Short-listed for the
MAN BOOKER PRIZE
NEW YORK TIMES BESTSELLER

MOHSİN HAMİD

KÖNÜLSÜZ FUNDAMENTALİST



THE RELUCTANT FUNDAMENTALIST

QANUN NƏŞRİYYATI

Tərcüməçi:
Mahirə Hacıyeva

T.me/Cinciva

Mohsin Hamid

KÖNÜLSÜZ FUNDAMENTALİST

İngilis dilindən tərcümə edən:
Mahirə Hacıyeva

qanun nəşriyyatı

T.me/Cinciva

Mohsin Hamid

THE RELUCTANT FUNDAMENTALIST

T.me/Cinciva

Pakistanın Lahor şəhəri. Saqqallı bir adam narahat görünüşlü bir amerikalı ilə söhbət edir. Qaş qaraldıqca onların danışığı heyrətamiz çalar alır və bizi Çingizin Amerika xəyalının gerçəkləşməsi, Çingizi deyil, keçmişinin nostalgiyasına qapılmağı seçən sevdiyi qadın, Çingizi Amerikanı tərk edib Pakistana gətirən, amma burada da ona rahatlıq verməyən identiklik dilemması ilə tanış edir. Əsərin ən maraqlı cəhəti isə yazıçı Mohsin Hamidin hər əsəri kimi "Könülsüz fundamentalist" romanı üçün də seçdiyi özünəməxsus təhkiyə üslubudur.

T.me/Cinciva

Mohsin Hamid **THE RELUCTANT FUNDAMENTALIST**
Mohsin Hamid **KÖNÜLSÜZ FUNDAMENTALİST**
Bakı, Qanun Nəşriyyatı, 2023, 168 səh.

Ölçü: 120x185mm
Cild: yumşaq
Çapa imzalandı: 16.06.23

İngilis dilindən tərcümə edən: Mahirə Hacıyeva
Redaktor: Röya Rəfili
Korrektorlar: Gülgəz Nur (Abbasova), Aygün Həsənova
Texniki redaktor: Aygül Yelmarlı
Mətn dizaynı: Ramin Əli
Qapaq dizaynı: Rafael Qasım

Qanun Nəşriyyatı
Bakı, AZ 1102, Tbilisi pros., 76
Tel: (+994 12) 431-16-62; 431-38-18
Mobil: (+994 55) 212 42 37
e-mail: info@qanun.az
www.qanun.az
www.fb.com/Qanunpublishing
www.instagram.com/Qanunpublishing

ISBN 978-9952-38-672-1

© Qanun Nəşriyyatı, 2023
© 2007 by Mohsin Hamid

Bu kitabın Azərbaycan dilinə tərcümə və yayım hüquqları Qanun Nəşriyyatına məxsusdur. Kitabın təkrar və hissə-hissə nəşri "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında Azərbaycan Respublikasının Qanunu"na ziddir.

T.me/Cinciva

Sizə necə yardım edə bilərəm, ser? Deyəsən, sizi tələşlandırdım. Saqqalım sizi qorxutmasın. Amerikanı sevirəm. Gördüm ki, nə isə axtarırsınız; axtarmaqdan da çox... hansısa bir missiyada imişsiniz kimi göründünüz, mən də həm bu şəhərdə yerli olduğum üçün, həm də sizin dilinizdə danışdığım üçün düşündüm ki, köməyimi təklif edə bilərəm.

Amerikalı olduğunuzu necə bildim? Yox, dərinizin rənginə görə deyil... ölkəmizdə fərqli dəri rənglərində insanlar var, sizinkinə şimal sərhədlərimizdə yaşayan adamlar arasında tez-tez rast gəlmək olur. Sizi ələ verən paltarınız da deyildi... istənilən avropalı turist sizin bu tək kəsikli kostyumunuzdan asanlıqla Des Moinesdən ala bilərdi. Düzdür, qısa kəsilmiş saçınız və geniş sinəniz – deyərdim ki, müntəzəm olaraq ağırlıq qaldıran bir adamın sinəsidir – yalnız müəyyən növ amerikalılar üçün tipikdir; amma bütün xalqların idmançıları və əsgərləri bənzərdir. Bunların əvəzində, sizi tanımağıma imkan yaradan duruşunuz idi və bu, sadəcə, bir müşahidədir, təhqir deyil, çünki görürəm ki, üzünüz sərtləşir.

T.me/Cinciva

Yaxşı, deyin, nə axtarırsınız? Əminəm, günün bu saatında sizi qədim Anarkaliyə – yəqin ki, xəbəriniz var, şahzadə üçün dustaq edilmiş bir kurtizanın şərəfinə belə adlandırılıb – yalnız bir şey gətirə bilərdi ki, bu da bir fincan əla çaydır. Təxminim düzdür? Onda, ser, icazə verin, bu çoxsaylı məkanlar arasında mənim sevimlim olanı təklif edim. Bəli, bunu. Metal stulları digərlərindən daha yaxşı üzlüklənməyib, taxta stolları da eyni dərəcədə nahamardır və bu da digərləri kimi üstüaçıqdır. Lakin sizi əmin edirəm ki, çayının keyfiyyəti bənzərsizdir.

Kürəyinizin divara o qədər yaxın olduğu bu stolu üstün tutursunuz? Lap yaxşı, amma ötüb-keçən, əsəndə isti günortaları daha da xoş edən mehdən az yararlanacaqsınız. Pencəyinizi də çıxarmayacaqsınız? Bu qədər formal! Bax *bu,* amerikalılar üçün heç tipik deyil, ən azından, mənim təcrübəmdə. Mənim təcrübəm dolğundur: sizin ölkənizdə dörd il yarım keçirmişəm. Harada? Nyu-Yorkda işləyirdim, ondan əvvəl də Nyu-Cersidə, universitetdə oxumuşdum. Bəli, haqlısınız: Prinstonda, doğru təxmindir.

Prinston barədə fikrim nə idi? Yaxşı, bu sualın cavabı bir hekayədir. İlk dəfə oraya çatanda ətrafımdakı qotik binalara baxdım – sonradan öyrəndim ki, şəhərdəki məscidlərin çoxundan sonra tikilib, amma üzəri fərasətli bir şəkildə turşu və daş hörgüsü ilə işlənmişdi ki, daha qədim görünsün – və düşündüm ki, *bu, gerçək olmuş bir xəyaldır.*

T.me/Cinciva

Prinston məndə belə bir düşüncə oyatdı ki, həyatım mənim ulduzu olduğum və hər şeyin mümkün olduğu bir filmdir. *Bu gözəl kampusa girişim var,* düşündüm, *sahələrinin titanı olan professorlara, filosof-krallar olacaq tələbə yoldaşlarına da əlim çatır.*

Deməliyəm ki, tələbə heyəti barədə ilkin ehtimalımda həddindən ziyadə səxavətli olmuşammış. Demək olar ki, hamısı zəkalı, bir çoxu da lap parlaq idi, amma mən qrupuma qəbul olunmuş iki pakistanlıdan biri olduğum halda – diqqət edin, yüz milyondan çox əhalidən ikisi – amerikalılar qəbul prosesində daha az çətinliklərlə üzləşirdi. Ölkənizin əhalisi mənimkindən cəmi iki dəfə artıq olduğu halda, həmvətənlərinizdən minlərlə qeydiyyatdan keçəni olurdu, beş yüz dəfə çox. Nəticədə, aramızdakı qeyri-amerikalılar amerikalılardan ortabab üstün olurdu, mən isə yuxarı kursa heç bir dənə də olsun B almadan keçdim.

İndi geriyə baxdıqca, o sistemin gücünü görürəm: praqmatik və effektiv, – Amerikadakı bir çox başqa şeylər kimi. Biz – beynəlxalq tələbələr dünyanın hər tərəfindən toplanırdıq, aramızdan ən mükəmməlləri və ən parlaq zəkalıları təyin edilənə kimi, yalnız əla cilalanmış, standartlaşdırılmış testlər deyil, həm də səylə hazırlanmış hesablamalar – müsahibələr, oçerklər, zəmanətlər – vasitəsilə ələnirdik. Mən Pakistanda testlərdə ən yüksək nəticə göstərənlər arasında olmuşdum və bundan əlavə, univer-

T.me/Cinciva

sitet komandasında yarışacaq qədər yaxşı futbol oyunçusu idim; futbolla ikinci kursda dizimi yaralayana qədər məşğul oldum. Mənim kimi tələbələr viza və təqaüd, tam maddi dəstək alır və meritokratiya sıralarına dəvət olunurdu. Əvəzində, istedadımızı sizin cəmiyyətə – qoşulduğumuz cəmiyyətə töhfə verəcəyimiz gözlənilirdi. Biz də bunu etməkdən çox məmnun idik. Mən qeyd-şərtsiz məmnun idim, ən azından, başlanğıcda.

Prinston hər payız bizim kampusa gələn korporativ işə götürənlər üçün ətəklərini qaldırırdı – sizin Amerikada dediyiniz kimi – onlara bir az dərisindən göstərirdi. Prinstonun göstərdiyi dəri, əlbəttə, əla növ idi - mümkün qədər gənc, fərasətli və ağıllı – lakin hətta bütün o dərilər içində də bilirdim ki, mənimki xüsusidir. Mükəmməl köksə sahib idim – qaralmış, dolğun, cazibə qüvvəsinə açıq-aşkar meydan oxuyan – arzuladığım istənilən işi əldə edəcəyimə də əmin idim.

Birindən savayı: "Underwood Samson & Company". Onlar haqqında eşitmisiniz? Dəyərləndirmə firması idi. Müştərilərinə biznesin dəyərini deyirdilər və deyilənə görə, bunu qeyri-adi dəqiqliklə edirdilər. Kiçik idilər – əslində, ən minimal sayda işçi götürən bir butik – və yaxşı pul ödəyirdilər, yenicə məzun olmuş birinə əmək haqqı olaraq səksən min dollardan çox təklif edirdilər. Lakin daha vacibi odur ki, adama bir sıra güclü bacarıq və yüksək marka adı verirdilər, elə bir ad ki, orada analitik kimi

T.me/Cinciva

iki ya üç il çalışdıqdan sonra adam faktiki olaraq Harvard Biznes Məktəbinə daxil olmaq haqqını əldə edirdi. Buna görə də Prinstonun 2011-ci il buraxılışından yüzdən çox məzun qiymətlərini və rezümelərini "Underwood Samson"a göndərdi. Səkkizi seçildi – açıqlamalıyam ki, iş üçün yox, müsahibə üçün – və onlardan biri də mən idim.

Narahat görünürsünüz. Olmayın; bu qüvvətli gənc, sadəcə, bizim ofisiantımızdır, əlinizi pencəyinizin altına uzatmağınız da lazım deyil. Belə başa düşürəm ki, pul kisənizi tutursunuz. Ona pulu sonra ödəyəcəyik, yeməyi bitirdikdən sonra. Süd və şəkərli adi çayı üstün tutardınız, yoxsa yaşıl çayı, ya da bəlkə, onların daha ətirli xüsusi Kəşmir çayını? Əla seçimdir. Mən də eynisindən içəcəyəm, üstəlik, bəlkə, bir boşqab calebi də yedik. Budur, getdi. Boynuma almalıyam ki, bir qədər zəhmli adamdır. Lakin qüsursuz dərəcədə nəzakətlidir: danışığının şirinliyi sizi təəccübləndirərdi, kaş urdu dilini başa düşəydiniz.

Harada qalmışdıq? Hə, "Underwood Samson". Müsahibəm günü mən özümə xas olmayan dərəcədə əsəbi idim. Müsahibə götürmək üçün bir nəfər göndərmişdilər, o da bizi Nassau İnndə, adi bir otaqda qəbul edirdi, diqqət edin, süitdə yox; bilirdilər ki, biz artıq kifayət qədər təsirlənmişik. Növbəm çatanda daxil oldum və fiziki görünüşü o qədər də sizdən fərqlənməyən bir adam gördüm: onun da təcrübəli ordu zabiti görkəmi vardı.

T.me/Cinciva

"Çingiz?", – dedi və mən razılıqla başımı tərpətdim, çünki adım, həqiqətən də, budur. "Gəlin, əyləşin".

Dedi ki, adı Cimdir və onu mənə iş təklif etmək üçün inandırmağa tam on beş dəqiqəm var. "Özünüzü satın", – dedi, – "Sizi xüsusi edən nədir?". Transkriptimlə başladım, qeyd etdim ki, *summa cum laude* kimi məzun olmaq yolundayam. Dediyim kimi, heç bir dənə də B almamışdım. "Əminəm ki, zəkalısınız", – dedi, – "lakin bu gün danışdığım adamlardan heç biri B almayıb". Bu məni pərt edən bir açıqlama oldu. Ona dedim ki, mətanətliyəm. Dedim ki, diz zədəsindən sonra fizioterapiyanı həkimlərin gözlədiyi vaxtın yarısına kimi bitirmişdim və universitet komandasında daha oynaya bilməməyimə baxmayaraq, yenə də altı dəqiqədən az bir müddətə bir mil qaça bilirdim. "Bu, yaxşıdır", – dedi və ilk dəfə mənə elə gəldi ki, onda müəyyən bir təəssürat oyada bildim, amma əlavə etdi, – "...başqa?"

Səsim kəsildi. Gördüyünüz kimi, mən, adətən, danışmağı sevirəm, amma o an nə deyəcəyimi bilmədim. Onun mənə tamaşa etməsinə baxdım, nə axtardığını başa düşməyə çalışdım. Stolun üstündə, aramızda olan rezümemə nəzər saldı, sonra yenə mənə baxdı. Gözləri soyuq və açıq-mavi rəngli, həm də *mühakiməedici* idi, bu sözün, adətən, işləndiyi mənada yox, peşəkarcasına qiymətləndirən – nə almaq, nə də satmaq niyyətində olmadığı almazı yoxlayan zərgər kimi. Nəhayət ki, bir qədər vaxt keçdikdən sonra – bir dəqiqədən çox ola bilməzdi,

T.me/Cinciva

amma daha uzun göründü – dedi: – "Mənə bir şeyi deyin. Haradansınız?"

Dedim ki, Pakistanın ikinci ən böyük şəhəri – Pəncabın qədim paytaxtı, demək olar ki, Nyu-York qədər əhalinin evi, aryanlardan moğollara, britaniyalılara kimi işğalçıların tarixlərinin yığıldığı tortalı düzənlik kimi qatqat Lahordanam. O, sadəcə, başını tərpətdi. Sonra dedi: "Siz də maddi yardım alırsınız?"

Ona dərhal cavab vermədim. Bilirdim ki, mühasiblərin toxuna bilmədiyi müəyyən mövzular var – misal üçün, din və cinsi oriyentasiya – düşünmüşdüm ki, maddi yardım da belə mövzulardan biridir. Lakin tərəddüdümün səbəbi bu deyildi, sual məni narahat etdi. Sonra dedim: "Bəli". "Bəs beynəlxalq tələbələr üçün yardım almaq daha çətin deyil?", – deyə soruşdu. Yenə dedim: "Bəli". "Beləliklə, siz, deyəsən, həqiqətən də, pula ehtiyac hiss etmisiniz", – o davam etdi. Üçüncü dəfə "Bəli", – dedim.

Cim kreslosunda geri söykəndi və lap elə sizin indi etdiyiniz kimi, ayaqlarını dizlərindən bir-birinin üstünə aşırdı. Sonra dedi: "Siz cilalanmısınız, yaxşı geyinmişiniz, intellektual ləhcəniz var. Yəqin ki, çox adam elə bilərdi, gəldiyiniz yerdə çox varlı ailədənsiniz". Sual deyildi, ona görə də cavab vermədim. "Buradakı dostlarınız bilirmi ki, təqaüd olmadan ailənizin sizi Prinstona göndərmək imkanı yox idi?", – deyə soruşdu.

T.me/Cinciva

Dediyim kimi, bu, müsahibələrimdən ən mühümü idi və çox yaxşı bilirdim ki, sakit qalmalı idim, amma əsəbiləşir və bu cür sorğulanmaqdan təngə gəlirdim. Ona görə də dedim: "Üzrlü sayın, Cim, amma bütün bunların bir mənası varmı?". Nəzərdə tutduğumdan daha aqressiv səsləndi – səsim yüksəldi və kəskinləşdi. "Deməli, bilmirlər", – Cim dedi. Gülümsədi və davam etdi: "Xarakteriniz var. Bu xoşuma gəlir. Mən də Prinstonu bitirmişəm. 81 buraxılışı, *Summa cum laude*", – göz vurdu: "Ailəmdən universitetə gedən ilk adam idim. Xərcimi ödəmək üçün kampusdakı adamların tapa bilməyəcəyi qədər uzaqda – Trentonda gecə növbəsində işləyirdim. Ona görə də, Çingiz, sizin haradan çıxdığınızı anlayıram. Acsınız və mənim hesabımda bu, yaxşı şeydir".

Deməliyəm ki, hazırlıqsız yaxalandım. Bilmirdim necə reaksiya verim. Lakin bir şeyi dəqiq bilirdim ki, Cimdən təsirləndim; o, hər şey bir tərəfə, iki dəqiqənin içərisində məni illərlə tanıyan adamlardan daha aydın gördü. Onun dəyərləndirmədə necə mükəmməl olduğunu anlaya bilirdim, onun firmasının – daha geniş olaraq – bu sahədə nə üçün belə yüksək qiymətləndirildiyini də. Həm də məmnun qaldım ki, məndə də dəyərləndirdiyi bir şey tapdı və bu qarşılaşmaya qədər sarsılmış olan güvənim bərpa olmağa başladı.

İcazənizlə, bu məqamda məsələdən azacıq yayınmağa dəyər. Kasıb deyiləm; bundan çox uzağam; babamın atası, misal üçün, Pəncabda müsəlmanlar üçün məktəb

T.me/Cinciva

açmağa ianə verəcək qədər imkanı olan bir vəkil idi. Babam və atamın hər ikisi universiteti İngiltərədə bitirib. Ailə evimiz Gülberqdə – şəhərin ən varlı məhəllələrindən birində bir akrlıq ərazidə yerləşir. Bir neçə qulluqçumuz, həmçinin bağban və sürücümüz var. Bütün bunlar Amerikada çox dövlətli olduğumuza işarə vurardı.

Lakin biz dövlətli deyilik. Evimizin kişiləri və qadınları – bəli, qadınları da – işləyirlər, işlərinin mütəxəssisidirlər. Pakistanda mənim babamın atasının ölümündən sonra keçən yarım əsr isə mütəxəssislər üçün heç də firavan bir dövr olmayıb. Məvacibləri inflyasiyaya uyğun olaraq qalxmayıb, rupi dollara qarşı davamlı sürətdə qiymətdən düşüb, aramızda sağlam bir ailə mülkünə sahib olanlar isə onu hər sonrakı – daha geniş – nəsillər arasında dəfələrlə bölüşüb. Ona görə də, babamın onun atasının gücü çatana gücü çatmırdı, atamın da öz atasını və məni universitetə göndərmək vaxtı çatanda pulu yox idi.

Lakin istənilən ənənəvi, sinfi, şüurlu cəmiyyətdə olduğu kimi, Pakistanda da status var-dövlətdən daha yavaş itirilir. Buna görə də Pəncab Klub üzvlüyümüzü saxlayırıq. Şəhər elitasının tədbirlərinə, toy və qonaqlıqlarına dəvət almaqda davam edirik. Küçələrdə BMW və idman avtomobillərində şütüyən, yüksəlməkdə olan sahibkar sinfinə isə – qanuni və ya qeyri-qanuni biznes sahiblərinə – nifrət və paxıllıq qarışığı ilə yuxarıdan aşağı baxırıq. Bizim vəziyyətimiz, ola bilsin ki, burjuaziyanın yüksəlişi ilə üzləşmiş on doqquzuncu əsr Avropa aristok-

T.me/Cinciva

ratlarının vəziyyətindən çox da fərqlənmir. Lakin fərqli olaraq, biz yalnız əvvəlki varlı təbəqəni deyil, həm də əvvəlki orta təbəqəni narahat edən, daha geniş pisliyin bir hissəsiyik: əvvəllər imkanımız çatan şeyləri almaq iqtidarını getdikcə daha çox itiririk.

Reallıqla qarşı-qarıya gəldikdə, adamın iki seçimi var: özünü hər şey yaxşı imiş kimi apar və ya çox işlə ki, hər şeyi əvvəlki şəkildə bərpa edə biləsən. Mən hər ikisini seçdim. Prinstonda cəmiyyət içində mən özümü səxavətli və qayğısız gənc şahzadə kimi aparırdım. Lakin həmçinin bacardığım qədər sakitcə üç kampusiçi işdə çalışırdım – Yaxın Şərq araşdırmaları proqramının kitabxanası kimi az-az baş çəkilən yerlərdə, dərslərimə isə gecə boyu hazırlaşırdım. Tanıdığım adamların çoxu mənim cəmiyyət içərisindəki xarakterimdən təsirlənirdi. Cim yox. Lakin xoşbəxtlikdən, mənim ayıb gördüyüm yerdə o, imkan görürdü. Həm də tam yox, müəyyən mənada – sonralar öyrənəcəyim kimi – haqlı idi.

Ah, çayımız gəldi! Belə şübhəli baxmayın. Xoşagəlməz heç nə baş verməyəcək, hətta qarın ağrısı belə. Hər şey bir tərəfə, çay heç də *zəhərlənmiş* kimi görünmür. Yaxşı, əgər sizi daha rahat edəcəksə, qoyun fincanımı sizinki ilə dəyişim. Bax, belə. Nə qədər şəkər istərdiniz? Şəkərsiz? Çox qəribə, amma təkid etməyəcəyəm. Bu yapışqan, narıncı şirniyyatdan – calebidən dadın, amma ehtiyatlı olun, istidir! Görürəm ki, bəyənirsiniz. Bəli, ləzzətlidir.

T.me/Cinciva

Hətta belə isti bir gündə də bir fincan çayın bu qədər təravətləndirici olması çox maraqlıdır – əsrarəngizdir.

Sizə "Underwood Samson"la müsahibəmdən və Cimin necə məni *ac* hesab etməsindən danışırdım. Onun daha nə deyəcəyini gözlədim, dediyi bu oldu, "Yaxşı, Çingiz, gəlin, sizi yoxlayaq. Sizə biznes işi verəcəyəm, qiymətləndirmənizi istədiyim bir şirkət. Bilmək istədiyiniz istənilən şeyi soruşa bilərsiniz – iyirmi sual düşünün – hesabınızı da o qələm və kağızla edə bilərsiniz. Hazırsınız?". Dedim ki, hazıram və o davam etdi: "Sizi çətinliyə salmaq fikrindəyəm. Gərək yaradıcı olasınız. Şirkət sadədir. Bircə xidmət xətti var: ani səyahətlər. Onun terminalına Nyu-Yorkda ayaq basırsınız və dərhal da Londondakı terminalında peyda olursunuz. *Star Trekdəki* transportir kimi. Başa düşürsünüz? Gözəl. Başlayaq".

Düşünmək istərdim ki, həmin dəqiqə mən zahirən sakit, amma daxilən panika içərisində idim. Onun təsvir etdiyi kimi bir uydurma, fantastik şirkəti necə dəyərləndirmək olar? Haradan başlayasan axı? Heç bir fikrim yox idi. Cimə baxdım, amma zarafat edirmiş kimi görünmürdü. Ona görə də dərindən nəfəs alıb gözlərimi yumdum. Futbol oynayanda çatdığım bir psixi vəziyyət vardı: özüm yox olardım, azad olardım, şübhə və çərçivədən azad, oyundan başqa heç bir şeyə diqqət yönəltməyəcək qədər azad. Bu vəziyyətə çatanda qarşısıalınmaz

T.me/Cinciva

hiss edərdim. Məncə, Sufi mistikləri və Zen ustadları bu hissi yaxşı anlayardı. Bəlkə də, qədim döyüşçülər də döyüşdən əvvəl, qorxunun ağırlığı olmadan hərəkət etmək üçün, yaxınlaşan ölümlərini ritualla qəbullanaraq buna bənzər bir şey ediblər.

Müsahibədə bu vəziyyətə çatdım. Cimin tapşırığında yol tapmaq üçün bütün varlığımla səfərbər oldum. Texnologiyanı anlamaq üçün suallar verməklə başladım; nə qədər ölçüyəgələn, güvənilir, etibarlıdır? Sonra Cimdən ətraf mühit haqqında soruşdum: bilavasitə rəqiblər varmı, tənzimləyicilər nə etməlidir, təchizatçılardan xüsusilə həssas olanlar varmı? Sonra hansı xərclərimizin ola biləcəyini tapmaq üçün məsələnin maliyyə qisminə keçdim. Sonda müqayisə üçün Concordeyə baxaraq gəliri yoxladım. Bunları etdikdən sonra da gələcək gəliri planladım və onu indiki dəyərə endirdim. Sonda bir rəqəmə çatdım.

"2,3 milyard dollar", – dedim. Cim bir müddət sakit dayandı. Sonra başını yellədi, "Həddindən artıq optimistdir", – dedi. "Bunu müştərilərin qəbul etməsi ehtimalınız həddindən çox yüksəkdir. Siz bir maşına daxil olub cisimsizləşdirilməyə və sonra minlərlə mil uzaqda yenidən birləşdirilməyə razı olardınız? Müştərilərimiz "Underwood Samson"a elə bu cür şişirdilmiş axmaqlıqların əsl mahiyyətini görmək üçün pul ödəyir". Başımı salladım. "Lakin", Cim davam etdi. "Yanaşmanız doğru

T.me/Cinciva

idi. Lazım olan hər şey sizdə var. Sadəcə, təlim və təcrübəyə ehtiyacınız var". Əlini uzatdı: "Sizə təklif var. Qərara gəlməniz üçün bir həftə verəcəyik".

Əvvəlcə ona inanmadım. Soruşdum ki, ciddidirmi, keçməli olduğum ikinci mərhələ varmı? "Biz kiçik bir şirkətik", – dedi: – "Vaxt itirmirik. Bundan əlavə, analitiklərin işə götürülməsi mənim vəzifəmdir. Başqa bir rəyə ehtiyacım yoxdur". Əlinin hələ də aramızda, havada sallandığını gördüm, qorxdum geri çəkər, əlini sıxdım. Möhkəm əl sıxdı və sanki həmin an mənə çatdırdı ki, "Underwood Samson" pul və status haqqındakı narahatlığımı uzaq keçmişdə qoyaraq mənim həyatımı da onunku kimi dəyişmək iqtidarındadır.

Elə həmin gün günortanın gec saatlarında yataqxanama qayıtdım – Eduards Hall adlanırdı. Səma parlaq mavi rəngdə, bu gün üzərimizdəki bu narıncı, tozlu səmadan çox fərqli idi və içimdə nəyinsə doğduğunu hiss etdim. Elə güclü bir fəxr hissi idi ki, onun təsiri altında başımı qaldırıb həm özümün, həm də əminəm ki, ətrafımdan keçib gedən tələbələrin dərin təəccübünə səbəb olaraq qışqırdım: "Allah, minnətdaram!"

Bəli, nəşəli idi. Geri, Prinstona baxanda, etiraf etmək lazımdır ki, *bax, bu cür*, uzunçu bir tərzdə düşünürəm. Prinston mənim üçün hər şeyi mümkün etdi. Lakin bu şəhərdə, doğulduğum şəhərdə dolğun, tünd rəng alana kimi qaynadılmış, təravətli, bol yağlı südlə qaymaqlan-

T.me/Cinciva

mış çaydan necə ləzzət aldığımı unutdurmadı, *unutdura bilmədi.* Əladır, elə deyil? Görürəm özünüzünkünü bitirmisiniz. İcazə verin, daha bir fincan süzüm.

2

Xallı cins şalvarlı o qızları görürsünüz? Bəli, cəlbedicidirlər. Bizim stola yaxın stolda əyləşmiş ailənin milli geyimdə olan qadınlarından necə də fərqlənirlər. Milli İncəsənət Kolleci uzaqda deyil, tini burulan kimidir, oranın tələbələri bura tez-tez bir fincan çay içmək üçün gəlir, elə indi bizim etdiyimiz kimi. Görürəm ki, biri xüsusilə diqqətinizi çəkib; sözsüz ki, gözəldir. Ser, mənə bir deyin görüm, geridə, vətəninizdə sevginizi buraxıb gəlmisinizmi? Kişi və ya qadın, hansına üstünlük verdiyinizi güman edə bilmirəm, amma baxışlarınızdakı ciddiyyət ikincini göstərir.

Çiyinlərinizi çəkməyiniz anlaşılmazdır, amma mən daha açıq sözlü olacağam. Bir sevdiyimi qoyub gəldim, adı Erika idi. Məzun olduqdan sonra görüşmüşdük, biz – Prinstondan olanların bir hissəsi Yunanıstanda tətil etməyə qərar vermişdik. O və dostları İvynin Universitetin ən prestijli yemək klubunun üzvləri idilər, valideynlərinin, ya da onların indi artıq əmanət fondlarından əldə edə bildikləri dividentlərinin hesabına səfər edirdilər; mənə

T.me/Cinciva

gəlincə, yeməklərimi yataqxanamın zirzəmi mətbəxində özüm bişirərdim və bu səfərə "Undevwood Samson"dan aldığım bonus hesabına qatıla bilmişdim. İvy adamlarından biri ilə Çakla futbol komandasındakı günlərimdən yaxın idim və onun vasitəsilə görüşdüyüm digər bir neçə nəfər də məni ekzotik tanış kimi xoşlayırdılar.

Afinada toplaşdıq, fərqli uçuşlarla gəlmişdik və mən Erikanı ilk dəfə görəndə özümü onun çantasını daşımağı təklif etməkdən saxlaya bilmədim – o qədər heyrətamiz dərəcədə *şahanə* idi ki... Saçı başında bir tac kimi yığılmışdı və Maonun rəsmi olan qısa köynəyinin altında qarnı – ah, necə də gözəl formada idi: sonradan öyrəndim ki, illərlə taekvondo məşqlərində formaya düşüb – görünürdü. Bizi bir-birimizə təqdim etdilər, gülümsədi və əlimi sıxdı – bilmədim məni həddindən ziyadə kübar, yoxsa anaxronistik hesab etdiyi üçün – sonra da liman şəhəri Pireyə yola düşdük.

Dərhal aydın oldu ki, Erikanı əldə etməyə çalışan tək mən olmayacağam. Əslində, elə bərəmizin yelkənlərini adalara yönəltmişdik ki, cavan bir oğlan – açıq və azacıq əzələli sinəsindən dəri ipdən asılmış bir diş sallanan – gitarasını dınqıldadıb göyərtənin bir tərəfindən Erikaya serenada oxumağa başladı. "Hansı dildir?", – Erika nəfəsi qulağımı qıdıqlayacaq qədər yaxına əyilərək, soruşdu. "İngilis dili, məncə", – bir müddət diqqət etdikdən sonra cavab verdim. "Əslində, Brayan Adamsdır, "Summer

T.me/Cinciva

of 69'"., – Güldü, "Haqlısan", – səsini nəzakətlə alçaldaraq dedi: – "Vau, çox pisdir!". Razılaşmağa meyilli idim, amma trubadurun heç bir təhlükə yaratmadığını artıq anlamış olduğumdan, əvəzində mərdliklə susmağı seçdim.

Növbəti gün parçalanmış vulkanın ağzında yerləşən Santorini adasında restoranda oturarkən vaxtın böyük bir hissəsində qolunu qayğısız bir tərzdə Erikanın stulunun arxasına uzadan Çakın yaxın, onun kimi təkhecalı ləqəbli dostu Mayk daha ciddi şəkildə meydan oxudu. Erika ondan qolunu çəkməsini istəmədi, amma ondan təsəlli aldım ki, mən danışanda ara-sıra gülümsəyərək, yaşıl gözlərini mənə yönəldərək *diqqətlə* qulaq asdı. Lakin sonra pansionatımıza gedərkən o və Mayk bizdən geri qaldılar və mən həmin gecə çətinliklə yatdım.

Səhər onun yeməyə Maykdan *əvvəl* – onunla bir yerdə yox – gəldiyini görəndə yüngülləşdim və bizim qrupumuzdan oyanan ilk iki nəfərin biz olduğumuzu görməkdən də məmnun qaldım. O, kruassanın üstünə cem çəkdi, yarısını mənə verdi və dedi, "Bilirsən, nə etmək istərdim?" Nə olduğunu soruşdum. "Burada təkbaşına qalmaq istəyərdim", – dedi: – "Bu adalardan birində otaq kirayə etmək və sadəcə, yazmaq". Ona dedim ki, belə də etməlidir, amma o, başını yellədi. "Heç bir həftə yaşamazdım", – dedi. "Tək qala bilmirəm. Lakin sənsə", – ba-

T.me/Cinciva

şını əyib qollarını çarpazladı: "Məncə, sən özünü əla hiss edərdin".

Bildiyim qədəri ilə, mənim heç zaman tənhalıq qorxum olmamışdı, ona görə də razılıqla çiyinlərimi çəkib izahat üçün dedim: "Uşaq olanda səkkiz nəfər idik, səkkiz əmiuşağı, hamımız eyni həyətdə – babamın oğlanlarına qoyub getdiyi, tək bir divarla haşiyələnmiş torpaq sahəsində yəni – aramızda bölüşdüyümüzdə ən çoxu üç itimiz və bir müddətlik bir ördəyimiz idi". Güldü və dedi: "Deməli tək qalmaq bir lüks olub, eləmi?" Başımı tərpətdim. "Səndə güclü bir ev duyğusu var", – dedi: – "Bilirsənmi, belə "mən böyük bir ailədənəm", – hissi. Bu, gözəldir. Səni etibarlı göstərir". Məmnun qaldım – baxmayaraq ki, tam anladığımdan əmin deyildim – nə isə yaxşı bir şey demək məqsədi ilə təşəkkür etdim. Sonra tərəddüdlə, çünki çox da irəli getmək istəmirdim, soruşdum: "Bəs sən? Sən etibarlı hiss edirsənmi?"

Bunu bir qədər düşündü və məncə səsində qəmgin bir notla dedi, "Hərdən... əslində, yox". Cavab verməyə macal tapmamış Çak, sonra da Mayk bizə qoşuldu, söhbət çimərliklər, sərxoşluq, bərələrin vaxt cədvəlinə dəyişdi. Lakin mən Erikaya, o da geri mənə baxanda, məncə, ikimiz də başa düşürdük ki, ikimizin arasında nə isə dəyişib, dostluğa ilk dəvət, bəlkə də, söhbətimizi davam etdirmək üçün səbirlə bir imkan gözləməyə başladım.

T.me/Cinciva

Belə imkan bir müddət yaranmadı, əslində, bir neçə gün çəkdi. Elə bilərsiniz ki, gözləmək məni əsəbiləşdirirdi, həyatımda heç vaxt ondakı kimi tətildə olmamışdım. Biz motor skuterlər kirayələyirdik, günəşin çılpaq dərini yandıracaq qədər qızdırdığı, qara vulkan qumu ilə örtülmüş çimərliklərə sərmək üçün qamış həsirlər alırdıq; yaşlı cütlüklərin yayda turistlərə kirayə verdiyi qədim evlərin otaqlarında qalırdıq; qızardılmış kalmar yeyir, qazlı su və qırmızı şərab içirdik. Ondan əvvəl nə Avropada olmuşdum, nə də dənizdə üzmüşdüm – Lahor dənizdən hava yolu ilə doxsan dəqiqəlik məsafədədir – ona görə də bu zəngin, gənc yoldaşlar arasında olmaq həzzinə təslim olurdum.

Boynuma alım ki, məni qıcıqlandıran *detallar* da vardı. Misal üçün, yoldaşlarımın bəzi – amma heç də nadir olmayan – hallarda yeməyin adambaşına demək olar ki, əlli dollara başa gəldiyini düşünmədən pulu çox rahatlıqla xərcləmələri, xidmətləri üçün ödəniş etdikləri adamlara qarşı göstərdikləri özündənrazılıq. "Ancaq bizə dedin ki", – işlərinin öz istədikləri kimi getməsində təkid etməzdən əvvəl özlərindən iki dəfə böyük bir yunana belə deyərdilər. Mən isə öz məhdud və tükənən pul ehtiyatım və özümdən böyüklərə qarşı ənənəvi duyğularımla düşünməyə başlamışdım ki, görəsən, insan tarixinin hansı qəribəliyi üzündən mənim yoldaşlarım – çoxu kübarlıqdan o qədər məhrum idi ki, öz ölkəmdə olsaydılar, gör-

T.me/Cinciva

məmiş adlandırardım – özlərini dünyada elə aparırlar ki, sanki dünyanın hökmdarlarıdır.

Lakin ola bilər ki, keçmişə baxarkən mənim sizin ölkə ilə münasibətlərimin sonradan aldığı şəkli bildiyimdən bu səbəbləri şişirtməyə meyilliyəm. Bundan savayı, qrupun digər üzvləri mənim üçün. sadəcə, arxa fonu təşkil edirdi; öndə Erika parlayırdı və onu müşahidə etmək məni tamamilə qane edirdi. Mənə demişdi ki, tək qalmağa nifrət edir və diqqət etdim ki, nadir hallarda tək olur. Adamları özünə cəlb edirdi; gözdən qaçmırdı, qeyri-adi cazibəsi var idi. Onun məskunlaşdığı əraziyə təsirini sənədləşdirən təbiətşünas onu yəqin ki, bir dişi aslanla müqayisə edərdi: güclü, zərif və daim öz qüruruna bürünmüş...

Lakin adama elə gəlirdi ki, onun öz ətrafındakılardan kənar, daxili bir yaşayışı var. O demək deyil ki, kənar dururdu, əslində, xasiyyəti mehriban idi. Adama elə gəlirdi ki, bir hissəsi – və bu da, onun cazibəsinin heç də əhəmiyyətsiz bir parçası deyildi – əlçatmaz idi, deyilməmiş düşüncələr içərisində itmişdi. Onu demək kifayətdir ki, sizin müasir qadın ikonalarınızla müqayisədə o, daha çox Peltrou düşərgəsinə mənsub idi, nəinki Spears.

Lakin mənim mədəni nümunələrimi eşidən yoxdur! Sizin fikriniz yayınıb, ser; Milli İncəsənət Kollecindən olan o qəşəng qızlar açıq-aydın yenidən diqqətinizi cəlb edib. Yoxsa saqqalı mənimkindən də qat-qat uzun olan,

T.me/Cinciva

onların yanında ayaq saxlamış o kişiyə baxırsınız? Elə bilirsiniz ki, onları paltarlarının uyğunsuzluğuna – köynək və cinslərinə görə danlayacaq? Məncə etməyəcək: qızlar bu ərazidə rahat görünürlər və yəqin ki, buraya tez-tez gəlirlər, amma o kişi yersiz görünür. Bundan əlavə, Lahor bazarlarının çoxsaylı qaydalarından biri də budur: kişi qadını narahat edirsə, qadının haqqı var ki, kütlənin qardaşlıq instinktinə güvənsin və kütlənin də bacılarını narahat edən kişini döydüyü məlumdur. *Budur*, ser, görürsünüzmü? Kişi yoluna davam etdi. Sadəcə, ona maraqlı görünən nəyəsə baxırmış, elə sizin kimi, amma siz bunu daha təmkinli edirsiniz.

Mənə gəlincə, o yay Erikaya gözümü zilləməməyə çalışdım. Lakin tətilimizin sonuna yaxın, Rodos adasında özümü saxlaya bilmədim. Rodos adasında olmamısınız? Mütləq gedin. Mənə getdiyimiz digər adalardan fərqli göründü. Şəhərləri qədim qəsrlərlə qorunaraq möhkəmləndirilib; onlar da müasir yunan ordusu, dəniz və hava qüvvələri kimi əsasən türklərdən müdafiə üçün olub. Şərqə qarşı qurulmuş qalanın bir hissəsi hələ də qalır. Qalanın o biri üzündə böyüdüyümü düşünmək mənə necə də qəribə gəlirdi!

Lakin söhbət bundan getmir. Sizə gözlərimi zilləməyə məcbur olduğum andan danışırdım. Çimərlikdə uzanmışdıq, ətrafımızda həmişəki kimi, çox sayda qadın paltarsız uzanıb günəş vannası qəbul edirdi – mənim tam

T.me/Cinciva

qəlbimlə dəstəklədiyim, amma biz prinstonlular arasındakı qadınların indiyə kimi heç etmədiyi bir vərdiş – gördüm ki, Erika çimərlik geyiminin iplərini açır. Sonra da məndən qısa bir məsafədə o, sinəsini günəşin qarşısında çılpaq açdı.

Bir dəqiqə sonra – yox, haqlısız, riyakarlıq edirəm; bir dəqiqədən çox – başını çevirdi və gözlərimi ona zilləyimi gördü. Beynimdən müxtəlif mümkün alternativlər keçdi: qəflətən gözlərimi yayındıra bilərdim, bununla da yalnız gözlərimi zilləmiş olduğumu sübut etməklə qalmaz, həm də onun çılpaqlığından narahat olduğumu göstərərdim; qısa bir fasilədən sonra, sanki sinəsinin görünməsi dünyada ən təbii bir şey imiş kimi gözlərimi sakitcə çəkə bilərdim; gözümü zilləməyə davam edə bilərdim, bu yolla da onun nümayişinə heyranlığımı göstərərdim; yaxud lap vaxtında deyilmiş bədii bənzətmə vasitəsilə onun diqqətinə çatdıra bilərdim ki, "*Mr. Palomar*"da mənim dilemmamı çox dəqiq ifadə edən bir abzas var.

Lakin bunlardan heç birini etmədim. Əvəzində qızardım və "Salam", – dedim. Gülümsədi – mənə elə gəldi ki, ona xas olmayan bir utancaqlıqla – və cavab verdi: "Salam". Başımı tərpətdim, demək üçün bir şey fikirləşdim, tapmadım və təkrar, "Salam", - dedim. Elə ağzımdan çıxan kimi də yox olmaq istədim; bilirdim ki, inanılmaz dərəcədə səfeh səslənmişəm. Gülməyə başladı, kiçik sinəsi yırğalandı və dedi: "Üzməyə gedirəm". Ancaq son-

T.me/Cinciva

ra gedərkən yarı çevrildi və soruşdu: – "Gəlmək istəyirsən?".

Arxasındakı əzələlərin onurğasını stabilləşdirmək üçün incə-incə gərildiyinə tamaşa edərək ardınca getdim. Suya çatdıq; ilıq və dupduru idi, səthindən baxanda yumru çınqıllar və balaca balıqların işıltısı görünürdü. İçəri sürüşdük, güclü zərbələrlə üzərək körfəzin içinə üzdü sonra isə mən ona çatana kimi suda yırğalandı. Bir müddət sakit dayandıq və suda burularkən sürüşkən ayaqlarımızın bir-birinə sürtünməsini hiss etdik. "Düşünmürəm ki", – axırda dedi: - "Bizim yaşda, sənin qədər nəzakətli başqa kiminləsə görüşmüşəm". "Nəzakətli?", - çox da sevinmədən dedim. Gülümsədi, "O cür demək istəmirəm", –dedi: – "*Darıxdırıcı* nəzakətli yox. Hörmətli nəzakətli. Adamlara məsafə verirsən. Bu, həqiqətən xoşuma gəlir. Qeyri-adidir".

Suda üz-üzə yırğalanmağa davam etdik və düşündüm ki, cavabında nə isə deməyimi gözləyir, amma sözlər məni tək buraxmışdı. Əvəzində səfeh görünməyən bir üz ifadəsi almağa çalışmaqla məşğul idim. Başını sudan yuxarıda saxlamağa çalışaraq dönüb sahilə tərəf üzməyə başladı. Yanında üzdüm və – qorxaq dilim üzərində qələbə qazanaraq – dilləndim: "Bir şey içmək üçün şəhərə qayıdaq?" Buna isə qaşını qaldıraraq ona xas olmayan bir ləhcə ilə cavab verdi: "Buna şad olardım, cənab".

T.me/Cinciva

Çimərlikdə bir köynək geyindi – hələ də yadımdadır, yaxalığı köhnəlmiş bir mavi kişi köynəyi – və dəsmalı ilə bikinisini çantaya qoydu. Yoldaşlarımızdan heç biri bizə qoşulmaq istəmədi, günün ən azı bir saatlıq günəşdən qaralmaq imkanı qalırdı. Beləliklə, biz ikimiz yola tərəf gedib avtobusa mindik. Yanaşı oturarkən onun çılpaq ayağının ayağımın üstünə qoyduğum əlimdən bir qarışdan da az bir məsafədə olduğunun fərqinə varmaya bilmədim.

Deməliyəm ki, Pakistanda olmağın adamın qadın bədəni görməyə həssaslığını artırması çox fövqəladə bir şeydir. Razılaşmırsınız? O saqqallı kişi – sizin ehtiyatlı nəzərlərinizi hətta indi də özünə cəlb edən – özü də ondan əlli yardlıq məsafədə olan o qızlara çiyninin üstündən baxmaqdan özünü saxlaya bilmir. Halbuki onlar yalnız boyunlarını, üzlərini və qollarının aşağı hissəsinin üçdə birini açıblar! Bu, qıtlığın təsiridir; ədəb qaydaları insanı nalayiqliyə susadır. Üstəlik, bir dəfə bu dərəcədə həssaslaşanda adam yalnız asta-asta sakitləşir, o da əgər sakitləşərsə; Yunanıstandakı səyahət yayına kimi artıq Amerikada dörd il keçirmişdim – və universitet tələbələrinin adətən təcrübədən keçirdiyi bütün yaxınlıqları yoxlamışdım – amma açıq qadın dərisinin hələ də kəskinliklə fərqində idim.

Erikanın bəyaz əzalarına göz zilləməyimin nəzakətsizliyindən özümü saxlamaq üçün soruşdum ki, köynək

T.me/Cinciva

atasının idimi? "Yox", – parçanı baş və şəhadət barmaqları arasında sürtərək dedi: – "Sevgilimin olub". "Ah", – dedim: "Bilmirdim ki, sevgilin var". "Keçən il dünyasını dəyişdi", – dedi: – "Adı Kris idi". Dedim ki, təəssüf edirəm və köynək gözəldir; Krisin əla zövqü olub. Onun əsl modabaz olduğunu və hətta xəstəxanada olarkən təkəbbürlü davrandığını deyərək razılaşdı. Tibb bacıları ona heyran qalmışdı: o, Erikanın ifadəsi ilə "*köhnə dünya* cazibəsinə malik, yaraşıqlı bir oğlan" olmuşdu.

Şəhərə çataraq limana yaxın, stollarını mavi, ağ çətirlər kölgələmiş bir kafe tapdıq. Erika pivə sifariş etdi mən də həmçinin. "Yaxşı, Pakistan necə bir yerdir?", soruşdu. Dedim ki, Pakistan dəniz kənarından səhralara, çay və kanallar arası ilə uzanıb gedən əkin sahələrinə kimi bir çox şeydir. Dedim ki, valideynlərim və qardaşımla maşın sürərək, Alp dağlarının zirvələrindən daha hündür olan dərələrin ətəkləri boyu keçərək, Qarakoram şosesi ilə Çinə getmişəm. Dedim ki, müsəlmanlar üçün spirtli içki içmək haramdır, ona görə də evimə Suzuki pikapında içki gətirən xristian qaçaqmalçım var. Gülümsəyərək mənim danışığıma qulaq asırdı, sanki təsvirlərimi qurtum-qurtum içir və onların zövqünə uyğun olduğunu görürdü. Sonra dilləndi: "Ev üçün darıxırsan".

Çiyinlərimi çəkdim. Ev üçün tez-tez darıxardım, amma həmin dəqiqə olduğum yerdən razı idim. Dəftərini çıxardı – yumşaq, narıncı dəri ilə bağlanmışdı; əv-

T.me/Cinciva

vəllər istirahət vaxtlarında ona cızma-qara etdiyini görmüşdüm – və onu qələmlə birlikdə mənə ötürərək soruşdu, "Yazınız necədir?". "Urdu əlifbası ərəb əlifbasına bənzəyir, amma bizdə daha çox hərf var", - dedim. "Mənə göstər", – dedi və dediyini etdim. "Gözəldir", – gözlərimə baxaraq dilləndi: "Mənası nədir?". "Sənin adındır", – cavab verdim: "Bu aşağıdakı isə mənim".

Günəş batdıqca biz stolumuzun arxasında qaldıq, söhbət etdik və Erika mənə Krisdən danışdı. Bir yerdə böyümüşdülər – üzbəüz evlərdə, bacı-qardaşı olmayan uşaqlar – və ilk dəfə altı yaşında olan, amma on beş yaşına kimi bir daha təkrarlanmayan ilk öpüşlərindən çox əvvəl də ən yaxın dostlar olmuşdular. Krisin aludə olduğu Avropa komiks kitabları kolleksiyası var idi və saatlarla onları oxuyar və özlərininkiləri yaradardılar: Kris şəkilləri çəkər, Erika yazardı. İkisi də Prinstona qəbul olmuşdu, amma Kris gəlməmişdi, çünki ona ağ ciyər xərçəngi diaqnozu qoyulmuşdu – cəmi bir siqaret çəkmişdi, Erika gülümsəyərək danışırdı, onu da yalnız biopsiya nəticəsini aldıqdan bir gün sonra – beşinci günlərə dərs salmamışdı, beləcə, həftənin üç gününü Krislə Nyu-Yorkda keçirə Erika bilmişdi. Üç il sonra Kris dünyasını dəyişmişdi, Erikanın üçüncü kursunun yaz semestrinin sonunda. "Ona görə də ev üçün darıxıram", – dedi: – "Lakin mənim evim nazik, uzun barmaqlı bir oğlan olub".

T.me/Cinciva

Həmin axşamın gec saatlarında, qrupumuzla axşam yeməyinə gedərkən, Erika mənimlə üzbəüz oturacağı seçdi. Çak bir neçə əcaib təqlidlə hamımızı güldürdü - məncə, mənim mannerizmim (davranışım) bir qədər şişirdilmişdi, amma digərləri tam hədəfə vururdu – sonra stolun ətrafında bizə tərəf dönərək ən çox nə olmaq istədiyimizi soruşdu. Növbə mənə çatanda dedim ki, bir gün nüvə gücünə malik bir islam dövlətinin diktatoru olmağa ümid edirəm; digərləri şoka düşdü və məcbur oldum izah edim ki, zarafatdır. Yalnız Erika gülümsədi; mənim yumor hissimi anlamış kimi göründü.

Erika dedi ki, roman yazıçısı olmaq istəyir. Onun yaradıcı tezisi Prinstonda mükafat qazanmış uzun bir bədii əsər olmuşdu; niyyəti vardı ki, onun üzərində təkrar işləyib bədii agentlərə göndərsin. Adətən Erika özü haqqında az danışardı, həmin gecə bunu edərkən asta səslə və tez-tez mənə baxaraq danışırdı. Hiss etdim ki – həmişəki kimi diqqətlərini çəkməyi bacardığı yoldaşlarımızın orada olmasına baxmayaraq – sirrini mənimlə bölüşür və bu hiss mənim əlləşdiyimi görüb, özüm xahiş etmədən, balığın sümüklərini ayırmağa yardım edəndə daha da gücləndi.

Yunanıstanda mənimlə Erika arasında hər hansı fiziki münasibət olmadı; heç əl-ələ belə tutmadıq. Amma ikimizin də getməli olduğumuz Nyu-Yorkdakı nömrəsini verdi və şəhərə yerləşməmə kömək etdi. Məmnun idim:

T.me/Cinciva

həqiqətən vurulduğum bir qadınla tanış olmuşdum və yeni həyatımın təqdim edəcəyi macəralar heç vaxt o qədər aydın duyulmamışdı.

Bu nədir? Ah, mobil telefonunuz! Buna bənzərini əvvəllər görməmişəm; belə başa düşürəm ki, bu, yerüstü bağlantı olmayanda peyk vasitəsilə əlaqə saxlamaq imkanı olanlardandır. Cavab verməyəcəksiniz? Sizi əmin edirəm, ser, söhbətinizə qulaq müsafiri olmamaq üçün *əlimdən gələni* edəcəyəm. Lakin əvəzində mesaj yazmağı seçirsiniz; çox ağıllı: çox vaxt bir neçə söz də kifayət edir. Mənə gəlincə, siz yazdıqca gözləməkdən məmnunam. Hər şey bir tərəfə, Milli İncəsənət Kollecindən olan o qızlar çaylarını yenicə bitiriblər və o tini burulub yoxa çıxmadan öncə bu küçədə olmalarının məmnuniyyəti yalnız bir neçə dəqiqə davam edəcək.

3

Biz yerlilər burada, Lahorda yazın son günləri hesab olunan bu günlərin qiymətini bilirik; isti olmasına baxmayaraq, günəşin adama rahatlıq gətirən təsiri var. Yaxud, ser, belə təsiri yalnız *bizədir,* siz heç də rahat görünmürsünüz. Ümid edirəm sözümdən inciməzsiniz, ətrafa tez-tez saldığınız bu məqsədyönlü baxışlarınız – nəzərlərinizi bir nöqtədən digərinə yönəldərkən, sanki başınızda davamlı şəkildə bir döyüntü var, tık-tık-tık – yuvasından çox uzağa getməyə risk etmiş və indi ona

T.me/Cinciva

tanış olmayan bir mühitdə olan, yırtıcı, yoxsa qənimət olduğundan əmin olmayan bir heyvanı xatırladır!

Yaxşı, müşahidə altında olan bir yadelli hissini özünüzdən kənarlaşdırın. Əvəzində, kölgələrin necə uzandığını müşahidə edin. Tezliklə bazarın hər iki başından darvazaları nəqliyyat üçün bağlayacaqlar, qədim Anarkalini yalnız piyadalar üçün açıq bir meydana çevirəcəklər. Artıq başlayıblar. Motorlu skuterli oğlanları polis həbs edəcəkmi? Tuta bilsələr! Budur, artıq şütüyüb uzaqlaşır, aradan çıxırlar. Lakin bunu son edən onlardır. Darvazalar indi qıfıllanır, gördüyünüz kimi, qalan o yarıqlar isə bir adamdan daha böyük bir şeyin keçməsi üçün çox dardır.

Görəcəksiniz ki, Lahorun yeni rayonlarında küçələr piyadalar üçün heç uyğun deyil. Öz genişliklərində - kütləvi parkları və üç zolaqlı bulvarları ilə - kənddən gəlmə qədim iyerarxiyanı tətbiq edirlər: atlının piyada üzərindəki üstünlüyünü. Lakin burada, bizim oturduğumuz yerdə və bizimlə Ravi arasında yerləşən daha qədim rayonlarda – basırıq, bu şəhərin labirintə bənzəyən ürəyində - Lahor daha demokratikcəsinə *şəhərlidir*. Doğrusu, dördtəkərli içərisindəki adam da bu küçələrdə enib kütləyə qarışmalı olur.

Manhetten kimi? Bəli, eynilə! Buna görə də Nyu-Yorka köçmək elə bil – tamamilə gözlənilmədən – evə gəlmək idi. Lakin başqa səbəblər də vardı: taksi sürücülərinin Urdu dilində danışması; mənim East Village mənzi-

T.me/Cinciva

limdən üç blok məsafədə "Pak-Punjab Deli" adlı samosa və çanna satan bir müəssisənin olması; parad vaxtı Beşinci avenyudan keçərkən təsadüfən, Cənubi Asiya gey və lezbiyan assosiasiyasının səs gücləndiricilərindən əmioğlumun toyunda oynadığım havanın eşidilməsi...

Metro vaqonunda dərim adətən rəng spektorunun ortasına düşərdi. Küçə tinlərində turistlər məndən istiqaməti soruşardı. Dörd il yarım ərzində heç vaxt amerikalı olmamışdım; *əlüstü* nyu-yorklu oldum. Nə? Səsim yüksəlir? Haqlısınız; o şəhər haqqında düşünəndə sentimentallaşmağa meyilliyəm. Hələ də ürəyimdə dərin məhəbbət duyuram, cəmi səkkiz ay yaşadıqdan sonra oranı tərk etməyə məcbur olduğum şəraiti nəzərə aldıqda, böyük mənası var.

Əlbəttə, mənim Nyu-York haqqındakı ilk həyəcanım "Underwood Samson" həyəcanıma bürünmüşdü. İlk iş günü keçirdiyim təəccüb hissini xatırlayıram. Ofisləri şəhərin ortasındakı binanın qırx bir və qırx ikinci mərtəbələrinə yerləşirdi – burada, Lahorda olan istənilən iki tikilini bir-birinin üstünə qoysaq, ondan da hündür – əvvəllər təyyarələrdə uçmuş, Himalaya səfər etmiş olduğum halda, heç nə məni bu mənzərənin dramatikliyinə, *gücünə* hazırlamamışdı. Anlamışdım ki, Pakistandan bura fərqli bir dünyadır; ayaqlarım növümüzün bildiyi ən yüksək texnoloji inkişafa sahib yerdə dayanmışdı.

T.me/Cinciva

Sizin ölkənizdə qalarkən belə müqayisələr məni tez-tez narahat edirdi. Əslində, onlar narahat etməkdən də artıq idi, məni küskünləşdirirdi. Dörd min il əvvəl bizim, İndus çay hövzəsinin adamlarının şəbəkələr üzərində şəhərləri olmuşdu və yeraltı kanalizasiya xətlərimizlə lovğalanmışdıq, halbuki həmin vaxt Amerikanı işğal edib koloniyalaşdıracaq olanların əcdadları savadsız barbarlar idi. İndi isə bizim şəhərlər plansız, əsasən antisanitar vəziyyətdə idi, Amerikanın isə fərdi ianələri bizim milli təhsil büdcəsindən böyük olan universitetləri vardı. Bu ölçüyəgəlməz fərqin xatırladılması məni utandırırdı.

Lakin həmin gün özümü bir pakistanlı yox, bir "Underwood Samson" stajçısı kimi görürdüm və şirkətimin təsirli ofisləri ilə *fəxr* edirdim. Kaş valideynlərimlə qardaşıma göstərə biləydim! Mənzərənin seyrinə daldım, amma çox çəkmədi; çatdıqdan az sonra bizi istiqamətləndirici təqdimat üçün konfrans zalına yönəltdilər. Orada Şerman adlı vitse-prezident – yeni qırxılmış başı parıldayan bir adam – qrupumuzun etikası haqqında danışdı.

"Meritokratiyayıq", – dedi: – "Ən yaxşı olacağımıza inanırıq. Siz ölkənin ən yaxşı məktəblərinin ən yaxşı namizədləri olmusunuz. Sizi buraya gətirən də budur. Lakin meritokratiya yeni işçi qəbulunu saxlamır. Hər altı aydan bir sizin dərəcələriniz göstəriləcək. Bonuslarınız və kadr təminatınız ondan asılı olacaq. Yaxşı işləsəniz, mükafatlanacaqsınız, işləməsəniz, qapıdan çöldə qala-

T.me/Cinciva

caqsınız. Bu qədər sadədir. Bu təlim proqramının sonunda ilk dərəcələrinizi biləcəksiniz".

Həqiqətən də, sadə. Təlim yoldaşlarımın necə reaksiya verdiyini görmək üçün ətrafıma göz gəzdirdim. Məndən əlavə beş nəfər vardı, dördü sərt bir şəkildə, diqqətlə oturmuşdu; beşinci, Vaynvrayt adlı oğlan daha rahat idi. Qələmini *"Top Gun"da* Val Kilmerə bənzər şəkildə, barmaqları arasında fırladaraq mənə tərəf əyildi və pıçıldadı. "İkinci yerə xal düşmür, Maverik". "Təhlükəlisən, buz adam", – bir donanma pilotunun ağır danışığına bənzətməyə cəhd edərək cavab verdim və bir-birimizə baxıb irişdik.

Lakin yerində, bu cür yüngül zarafatlardan savayı az əyləncə və oyun olardı. Növbəti dörd həftə ərzində günlərimiz ardıcıl rutində davam etdi. Səhərlər üç saatlıq seminarımız olurdu: biznes məktəbinin bütün bir ilini ixtisarlaşdırmağa çalışan modul seriyalarından biri. Ən prestijli müəssisələrdən olan mütəxəssislər dərs deyirdi – misal üçün, Whartondan olan bir qadın bizə maliyyəni öyrədirdi – və bizə verilən testlərin nəticələri diqqətlə qeydə alınırdı.

Nahar kafeteriyada edilirdi; günəşdə qurudulmuş pomidorlu toyuq pesto sarmaları yeyərək bizdən yuxarı vəzifəlilərin özlərini necə əminliklə apardıqlarını müşahidə edirdik. Sonra bizi PowerPoint, Excel və Access kimi kompüter proqramları ilə tanış etmək məqsədi daşıyan

T.me/Cinciva

emalatxanalara gedirdik. Bu dərsi kitabxanaçıya oxşayan, yumşaq danışıqlı təlimatçının ətrafında yarımdairə şəklində oturaraq keçirdik; Vaynvrayt bunu "Microsoft ailə vaxtı" adlandırırdı.

Nəhayət, günortadan sonra bizi Şermanın "yumşaq vərdişlər təlimi" adlandırdığı iş üçün üç nəfərlik iki qrupa bölürdülər. Bu sessiyalarda qəzəbli müştəri və ya köməyi dəyməyən baş mühasibatçı ilə iş kimi real həyat situasiyaları oynanılırdı. Bizə digər adamların düşüncə tərzlərini tanımaq, onların gündəmlərindən istifadə etmək və onu bizim arzuladığımız nəticəni əldə etməyə yönəltmək öyrədilirdi; bunu biznes üçün əqli cüdo adlandırmaq olar.

Görürəm, təlimimizin hərtərəfliliyi sizi heyran edir. Məni də edirdi. Bu sizin ölkənizin bir çox sahədə uğurunun dayağı olan sistematik praqmatizmin, *peşəkarlığın* nümunəsi idi. Prinstonda bilik yaradıcılıq aurası ilə ortaya çıxırdı; "Underwood Samson"da yaradıcılıq üzərində çalışılmırdı – yaradıcılıq da vardı və dəyərləndirilirdi - amma üstünlük *səmərəliliyə* verilirdi. Maksimal gəlir təkrar-təkrar vurğuladığımız məsəl idi. Prioritetləşdirməyi – irəliləməyin ən sərfəli olduğu məhvəri təyin etməyi və sonra diqqətimizi qərarlı şəkildə o məqsədin əldə olunmasına yönəltməyi öyrənirdik.

Lakin mənim bu dərin düşüncələrim yəqin ki, qurudur! Demək istəmirəm ki, yüksək maliyyə səltənətinə təşəbbüsümdən zövq almırdım. Əksinə, alırdım. Özümü

T.me/Cinciva

səlahiyyətli hiss edirdim və yeni imkanların bütün formaları üzümə açılırdı. Sizə bir nümunə verəcəyəm: xərc hesabatları. Bilirsinizmi kredit kartı vermələri və görünüşdə işlə əlaqəli hər hansı yemək və ya əyləncə xərcinin şirkətiniz tərəfindən qarşılanacağını demələri nə qədər xoşdur? Hər şey bir tərəfə, buraya iş üçün gəlmisiniz. Lakin mənim üçün iyirmi iki yaşında belə bir təcrübə bir kəşf idi. İstəsəydim, iş yoldaşlarımı işdən sonra içkiyə qonaq edə bilərdim – "yeni işçi yetişdirilməsi" adlandırılan bir fəaliyyət – bir saatda atamın bir gün ərzində qazandığından da artıq pul xərcləyə bilərdim! Buna görə cəzalandırılmayacaqdım!

Biz yeni işə götürülənlər müntəzəm olaraq bir-birimizin yetişdirilməsi imkanlarından faydalanırdıq. Bunu ilk dəfə etdiyimiz gecəni xatırlayıram; Royaltonda bara getdik, Qırx dördüncü küçədəki. Şerman da o dəfə bizimlə getdi və bizim işə başlamamızı qeyd etmək üçün bir şüşə əla növ şampan şərabı sifariş etdi. Öz şənimizə qədəh qaldırarkən ətrafıma baxdım. Beş iş yoldaşımdan ikisi qadın idi; Vaynvrayt və mən ağ deyildik. Heyrətamiz dərəcədə müxtəlif idik... və həm də deyildik: Hamımız eyni elit universitetlərdən gəlmişdik – Harvard, Prinston, Stanford, Yel; hamımız əminlik, təkəbbür saçırdıq; heç birimiz qısaboylu və ya artıq çəkili deyildik.

Onda ağlıma gəldi ki, – yox, dürüst olmalıyam, *indi* ağlıma gəlir ki, – saçları kəsilmiş və savaş qiyafəsi geyinmiş

T.me/Cinciva

olsaydıq, demək olar ki, fərqlənməzdik. Yəqin ki, Vaynv-raytın ağlına da bənzər bir şey gəlmişdi, çünki göz vuruh - sonradan aydın olduğu kimi, olduqca uzaqgörənlikdə mənə dedi: "Gənc Sky-walker, qaranlıq tərəfə diqqət et". Anamın Faiz və Qalibin şeirlərindən sitat gətirdiyi kimi Vaynvrayt da tanınmış filmlərdən sitat gətirməyə meyilli idi. Lakin mənə elə gəlir ki, Vaynvraytın bu məxsusi "Star Wars" sitatı zarafat idi, çünki ondan dərhal sonra o da, mən də, elə hamımız ürəkdən içib sərxoş olduq.

Şərab bitəndə Şerman getdi, amma bizə dedi ki, ürəyimiz istəyənə kimi davam edək və hesabımızı "Un-derwood Samsona" keçirək. Belə də edib gecənin yarı-sı səndələyə-səndələyə küçəyə çıxdıq. Vaynvraytla mən şəhər mərkəzinə taksi tutduq. "A kişi", - dedi: - "Krikitdən bir şey *qanırsan*?". Nə demək istədiyini soruşdum. "Atam dəli kimi kriket həvəskarıdır", – dedi: – "Barbadosadan-dır. Qərbi Hind adaları Pakistana qarşı" və Karib ritmina keçdi: "Gördüyüm ən mənhus (uğursuz) kriket matçı". Güldüm. "Yəqin ki, səksəninci illərdə idi", – dedim: "İndi komandalardan heç biri güclü oynamır".

İkimiz də ac idik və təklif etdim ki, "Pak-Pəncab Deh-li"də dayanaq. Piştaxta arxasındakı kişi məni tanıdı; hə-min səhər, işdə ilk günüm olduğunu deyəndə mənə pul-suz yemək vermişdi. "Dostum", - qollarını salamlamaq üçün geniş açaraq dilləndi. "Cənab", – başımı əyərək ca-vab verdim: "Heç evə getmirsiniz?". "Getmirəm", – dedi.

T.me/Cinciva

"Bu dəfə pulunu ödəməkdə israrlıyam", – kredit kartımı çıxarıb qarşıya əyilərək həm qəsdlə, həm də sərxoş şəkildə dedim və əlavə etdim: "Xərc hesabım var". Başını bulayıb orada olan yorğun taksi sürücülərinin açıq-aydın əyləncəsi içərisində cavab verdi ki, təəssüf edir, amma pulum olmadıqda, hər zaman, ödənişi sonraya saxlaya bilərəm, lakin American Express kartını qəbul etmir.

Urdu dilində danışsaq da, Vaynvrayt elə bil bizi başa düşdü. "Nağd pulum var", - dedi: - "Bunlar dadlı görünür". Belə düşündüyündən məmnun qaldım; sözsüz ki, burada olduğunuz müddətdə özünüzün də başa düşdüyü kimi, yeməyimiz biz lahorluların fəxr etdiyi bir şeydir. Bundan əlavə, kimsə adamı yeməyə qonaq edərsə bu, dostluq əlamətidir – bununla adamı qarşılıqlı səxavətə dəvət edir – və on beş dəqiqə sonra, boşqabındakı sonuncu qırıntıları yemiş Vaynvraytın barmaqlarını yaladığını görən kimi, artıq anlamışdım ki, ofisdə bir əqrəba ruhu tapmışam.

Bəs niyə geri çəkilirsiniz? Ah, bəli, bu dilənçi bədbəxt bir oğlandır. Görəsən, başına onu belə tamam eybəcərləşdirəcək nə qədər *hadisə* gəlib? Sizə yaxınlaşır, çünki siz xaricisiniz. Ona bir şey verəcəksiniz? Yox? Ağıllı hərəkətdir; adam gərək dilənçiləri həvəsləndirməsin. Yoxsulluğun səbəblərini araşdıran xeyriyyəçiliyə ianə etmək daha yaxşıdır, nəinki onun, sadəcə, bir simptomu olan bu varlığa. Nə edirəm? Ona bir-iki rupi verirəm – səhvdir,

T.me/Cinciva

əlbəttə, adət etmişəm. Budur, bizə dua oxuyur; yoluna davam edir.

Sizə Vaynvraytdan danışırdım. Növbəti həftələr ərzində aydın oldu ki, o, bizdəki sıralamanın ən yüksək dərəcələri uğrunda güclü rəqabətdədir. Biz analitiklər hamımız təbiətimiz etibarilə çox rəqabətcil idik – "Underwood Samson" tərəfindən nəzərə alınacaq qiymətləri əldə etmək üçün belə də olmalı idik – amma Vaynvrayt bunu çox üstüaçıq etmirdi; mehriban və sayğılı idi, buna görə də onu hamı xoşlayırdı. Lakin dostumun həddindən artıq istedadlı olduğuna heç bir şübhəm yox idi: təqdimatları qeyri-adi dərəcədə aydın olurdu; bizim adamlararası tapşırıqlarımızda əla nəticə göstərirdi; biznes işlərində nəyin daha əhəmiyyətli olduğunu təyin etmək instinkti var idi.

Mən də qrupda fərqlənirdim, təvazökarlıqdan uzaq hesab etməyin. Futbol oynadığım günlərdən bir növ nəzarətdə olan aqressiya saxlamışdım – davakarlıq deyil, diqqət edin, qətiyyətlilik – və bunu uğurum üçün istifadə etdim. Necə? Çox işlədim – məncə, hamıdan daha çox: gecələr yalnız bir neçə saat yuxu ilə keçinirdim – və hər dərsə tam diqqətlə yanaşdım. Təlimçilər tez-tez mənim mətanətimi tərifləyirdi. Bundan əlavə, təbii nəzakətliliyim və bəzən həmyaşıdlarımla aramda bir səddə çevrilən formallıq duyğum olduğum iş kontekstinə tam uyğun idi.

T.me/Cinciva

Sonralar tez-tez düşündüm ki, görəsən niyə mənim mannerizmim daha yaşlı işçilərə o cür xoş gəlirdi. Bəlkə, nitqimə görə: hər şey bir tərəfə, Pakistan kimi Amerika da əvvəl koloniya (müstəmləkə) olmuşdu, ona görə də mənim ingilisləşmiş ləhcəm sizin ölkənizdə bəlkə, hələ də sərvət və güclə əlaqələndirilir, lap elə mənim ölkəmdə olduğu kimi. Səbəb, bəlkə də, o idi ki, mənim həm hörmətli, həm də iyerarxal mühitdə özümə hörmətlə işləyə bilmək qabiliyyətim var, Amerika gənclərinin – pakistanlı tərəf müqabillərindən fərqli olaraq – nadir hallarda öyrəndiyi bir şey. Səbəb hər nədirsə, yadelliliyimin mənə münasibətindən xəbərdar idim və bundan bacardığım qədər istifadə etməyə çalışırdım.

İllik yay əyləncəsinə qatılmaq üçün biz təcrübəçilər üç nəfərlik iki qrupa ayrılıb gedərkən özüm və Vaynvrayt haqqında olan təxminim təsdiqləndi. Vaynvrayt və mənim daxil olduğum qrup Cimlə, bizi işə götürən icraçı direktorla bərabər limuzində getdik; digər qrup bir vitse-prezident kimi "Underwood Samson" panteonunda daha aşağı olan Şermanla getdi. Şirkətimizdə heç nə təsadüfən baş vermədiyindən, hamımız bunun bir işarə olduğunu başa düşdük.

Bəzi əməkdaşlar və Cimin komandalarından birinin vitse-prezidenti bizimlə limuzində idi. Cimdən və məndən savayı, hamı söhbət etməyə başladı. Cim sakitcə söhbəti müşahidə edirdi. Sonra mənə tərəf nəzər saldı,

T.me/Cinciva

gözlərimi qaçırmalı oldum ki, *mənim* də *onu* müşahidə etdiyimi görməsin. Lakin Cim öz sabit, nüfuzedici tərzində mənə baxmağa davam etdi və sonda dedi: "Ehtiyatlı oğlansan. Bilirsən, bunun səbəbi nədir?". Başımı yelləddim. "Özünü uyğunsuz hiss etmək", – dedi: – "Mənə inan. Bilirəm".

Əyləncə Hamptonsda, Cimin evində, mənə "*Great Gatsby*"ni xatırladan möhtəşəm mülkdə təşkil olunmuşdu. Çimərliklə yanaşı – qum təpələrinin qoruyucu yüksəkliyi arxasında – idi, hovuzu, tennis meydançası və çəmənliyin bir tərəfində içki içmək və rəqs etmək üçün ucaldılmış ağ pavilyonu vardı. Biz çatan kimi musiqi qrupu da başladı, qızardılmış ət və xərçəngin qoxusunu hiss etdim. Vaynvrayt tamamilə özünə uyğun yerdə idi; əməkdaşlardan birinin qolundan tutdu və az keçmədi ki, ikisi də musiqinin ritminə uyğun fırlanmaqda idilər. Biz əlimizdə kokteyl kənarda durub tamaşa edirdik.

Bir qədər sonra hava almaq üçün pavilyondan çıxdım. Günəş batmışdı və sahilin əyri xətti boyu, məsafədən başqa evlərin işıqlarının parıldadığını görə bilirdim. Dalğalar gəldikcə pıçıldayır, az müddət əvvəl Yunanıstanda olduğumu xatırladırdı. Dəniz həmişə mənə uzaq görünmüşdü, dəbdəbəli və macəra dolu; indi isə həyatımın demək olar ki, müntəzəm bir hissəsinə çevrilirdi. Lahoru tərk etdiyimdən bəri keçən dörd ildə nə çox şey dəyişmişdi!

T.me/Cinciva

""Underwood Samson"dakı ilk yay əyləncəmi xatırlayıram", – arxamdan bir səs dedi. Döndüm; Cim idi. Davam etdi: "Bunun kimi möhtəşəm bir axşam idi. Barbekyu, musiqi. Niyəsə mənə Prinstonu, ora düşəndə keçirdiyim hissləri xatırlatmışdı. Anlamışdım ki, bir gün Hamptonsda öz yerimin olmasına etirazım olmazdı". Gülümsədim; Cim adamda elə hiss oyadırdı ki, sanki fikirləri oxuya bilirdi. "Nə demək istədiyinizi bilirəm", – dedim. Cimin nəzərləri suyun üstündə gəzdi və biz bir müddət sakit dayandıq, sonra dedi: "Acsan?". "Hə", – deyə cavab verdim. "Gözəl", – rəğbətlə dilləndi, əlini hər iki çiynimə vurdu – qəribə, mənalı bir jest – və məni içəri apardı.

Axşam boyu Erikanın orada olmasını arzuladım. Onun başına nə gəldiyini düşünürdünüz? Yox, unutmamışdım; Nyu-Yorkdakı həyatımda çox yer tuturdu və tezliklə ona qayıdacağam. Lakin hələlik Cimin evinin necə möhtəşəm olduğunu qeyd etmək istədim, məncə, hətta *Erika da* təsirlənərdi. Tezliklə başa düşəcəksiniz ki, bu, çox məna verir.

Bir həftə sonra, analitik proqram sona çatanda, Cim bizi bir-bir ofisinə çağırdı. "Belə", – mənə dedi: – "Səncə, nəticən necədir?". "Olduqca yaxşı", – cavab verdim. Güldü, "Olduqca yaxşıdan da yüksəkdir", – dedi. "Qrupunda birincisən. Təlimçilərin deyir ki, səndə savaşçı ruhu var. Bundan utanma. İnkişaf etdir. Səni çox uzaqlara apara bilər". Çox məmnun qalmışdım, amma bilmirdim nə de-

T.me/Cinciva

yim. "Bir layihəm var", – Cim davam etdi: "Musiqi biznesi. Filippində. Qoşulmaq istəyirsən?". "Əlbəttə", – dedim: – "Təşəkkür edirəm".

Cimin ofisindən çıxanda Vaynvraytı məni gözləyən gördüm. "İkinci oldum", – gülümsəyərək dedi. "Düşündüm ki, birinci sənsən. Yeri gəlmişkən, işıq saçırsan. Görürəm ki, haqlıyam". "Bəxtim gətirdi", - cavab verdim. "O qədər də yox", – qolunu çiynimə qoyub dedi: - "Mənə içki almalısan".

Bəli, o anda xoşbəxt idim. İsti nailiyyət hissində üzürdüm. Məni heç nə narahat etmirdi; şəhər ayaqlarının altında olan gənc nyu-yorklu idim. Bu, tezliklə dəyişəcəkdi! Dünyam kökündən dəyişəcəkdi, lap ətrafımızdakı bu bazar kimi. Görürsünüzmü, o stolları necə cəld küçəyə çəkdilər? Az əvvəl nəqliyyatın guruldadığı küçəyə indi izdiham yığılmaqdadır. Bu mənzərəyə baxanda adama elə gəlir ki, günün saatından asılı olmadan qədim Anarkali *həmişə* belə görünüb. Lakin bir müddətdir burada oturan biz bunu daha yaxşı bilirik, elə deyilmi? Bəli, çevrəmizin yaxın keçmişi ilə bir qədər tanış olmuşuq və bu bizə imkan verir ki, indini daha incəliklə görək.

4

Görürəm ki, qolumun aşağısındakı, dərinin ətrafına nisbətən daha tünd və hamar olduğu hissədəki çapıq

T.me/Cinciva

diqqətinizi cəlb edir. Mənə deyiblər ki, kəndir yandırmasına bənzəyir; daha fəal dostlarım deyir ki, kəndirlə eniş və ya dağa dırmanma ilə məşğul olanların bədənlərindəki izlərdən fərqlənmir. Ola bilsin ki, *sizin* də fikrinizdən belə bir şey keçir, çünki üz ifadənizdə bir ciddiyyət sezirəm, sanki düşünürsünüz ki, görəsən, mənim kimi düzənliklərdən olan bir oğlanı hansı təlim düşərgəsi bu cür hərəkətlərə sövq edər!

İcazə verin, sizi əmin edim ki, zədəmin mənbəyi əslində, bayağı olub. Ölkəmizdəki, vətəninizdəki bolluğu nəzərə aldıqda, sizin tanış olmayacağınız bir hadisə var. Burada xüsusilə qışda, böyük bəndlərin su anbarları demək olar ki, quruyanda – biz özünü tam qapanma ilə göstərən elektrik çatışmazlığı ilə üzləşirik. Bunu yükü azaltma adlandırırıq və evlərimizdə xeyli şam ehtiyatı saxlayırıq ki, həyat ritmimiz boş yerə pozulmasın. Uşaq olarkən bir dəfə işıq sönəndə şamlardan birini götürdüm, ayağım ilişdi, yıxıldım və ərimiş mumu üstümə dağıtdım. Amerikada bu hadisə belə yüksək, təhlükəli ərimə dərəcəli mum istifadə etdiyi üçün mum istehsalçısı ilə uzunsürən məhkəmə çəkişməsinə səbəb olardı; burada, sadəcə, ağlamaqla keçən bir axşama və bu gün gördüyünüz bu qəribə şəkildə dümdüz, zəif görünən çapığa səbəb oldu.

Ah, bazarın üstü ilə asılmış dekorativ işıqları yandırmağa başlayıblar! Zövqsüzdür? Bəli, haqlısınız; mən

T.me/Cinciva

daha az rəngli şeylər seçərdim. Lakin ətrafımızdakıların yuxarı çevrilmiş üzlərindəki gülüşü müşahidə edin. Hətta indi, iyirmi birinci əsrin başlanğıcında, bunun kimi böyük və parlaq şəhərlərdə belə günəş işığı solmağa başlayarkən, insanın düzəltdiyi işıqların bu qədər *teatral* və emosional təsirə malik olması möhtəşəmdir. Müqəddəs Patrik günü münasibətilə yaşıl işıqlara və ya Frank Sinatranın ölüm günü solğun maviyə bürünmüş Empire State binasının bəlağətli gözəlliyini düşünün. Sözsüz ki, gecələr Nyu-York dünyadakı ən möhtəşəm mənzərələrdən biridir.

Manhettenə ilk gecə kəşfiyyatımı xatırlayıram, Erika tez-tez bələdçim olurdu. Yunanıstandan qayıtdıqdan az sonra məni evlərinə şam yeməyinə dəvət etdi; bütün günortanı nə geyinəcəyimə qərar verməklə keçirdim. Bilirdim ki, ailəsi dövlətlidir və mən də onların necə geyimdə olacağını təsəvvür edib o şəkildə geyinməyə çalışırdım: eleqant və eyni zamanda gündəlik bir tərzdə. Kostyumum çox formal göründü; gödəkcəm daha uyğun olardı, amma neçə il idi ki, almışdım və gözümə bir az nimdaş dəydi. Axırda etiketin hər bir koduna yazılmış etnik istisnalıq bəndindən yararlanmaq qərarına gəldim, cins və kraxmallanmış, incəliklə işlənmiş ağ, pambıq kurta geyindim.

Geyimim açıq fikirliliyin bir göstəricisi idi və Nyu-Yorkun *kosmopolitan* – həmin o çox işlənən söz – tə-

T.me/Cinciva

biətinə görə, həmin gün metroda bu geyimdə tamamilə rahat idim. Əslində, heç kim mənə fikir vermirdi, bircə bir gey polis mehribanlıqla mənə dəvət gülüşü göndərdi. Saat altı qatarından yetmiş yeddinci küçədə çıxdım. Baxmayaraq ki, orada əvvəllər heç vaxt olmamışdım, ərazi – füsunkar restoranları, eksklüziv dükanları, balaca itləri gəzdirən, qısa ətəkli cazibədar xanımları ilə – təəccüblü şəkildə tanış gəldi; sonralar anladım ki, bu tanışlıq hissini ərazini film seti kimi istifadə etmiş bir çox filmə borcluyam.

Erikanın ailəsi mavi talvarı və üzü mənfi ifadə alan qapıçısı olan köhnə, görkəmli bir binada yaşayırdı. Mən də qapıçının ifadəsinə uyğun olan soyuq və hətta amiranə tonda – beləcə, ehtiyatla çatdırdım ki, xətrimə dəyib və bunu ifadə etməyi də özümə yaraşdırmıram – cavab verdim. Arzu olunan təsiri verdi; cəld zəng etdi öyrənsin ki, mənə keçməyə icazə verilsinmi və deyiləndə ki, verilsin, məni liftə kimi şəxsən özü ötürdü. Mənə deyildi ki, penthouse üçün düyməni basım. Mənim beynimdə cah-calalla – bəli, boynuma alacağam, həm də pornoqrafiya ilə – əlaqəli bir termin idi. Beləliklə, mən Erikanın mənzilinin qapısına yüksək gözləntilərlə getdim, qapı mən döymədən açıldı.

Erika məni gülümsəyərək qarşıladı; qaralmış üzü sağlamlıqdan şəfəq saçırmış kimi görünürdü. Onun heyrətamiz olduğunu unutmuşdum və həmin an, dar girişin

T.me/Cinciva

olduğunu, haqqında danışdığı mirvarini yaratmasına nəyin səbəb olduğunu öyrənmək istəyirdim. Lakin düşündüm ki, soruşmaq həddi aşmaq olar; adam belə şeyləri özü seçən vaxtda, seçdiyi adama açır. Buna görə də sadəcə, üzümün ifadəsi ilə onu anlamaq arzusunda olduğumu çatdırıb heç bir söz deməməyi üstün tutdum.

Biz otaqdan çıxarkən, divarda bir eskiz gözümə dəydi. Tufanlı bir səma altında uçuş-enmə zolağı və sıldırım vulkanı olan tropik bir ada təsvir olunmuşdu; vulkanın kraterində içərisində başqa bir kiçik ada olan bir göl var idi – ada içərisində bir ada – möhtəşəm şəkildə sakit və təhlükəsiz. "Bu nədir?", soruşdum: "Krisin işidir", – cavab verdi, "Səkkiz, ya doqquz yaşımız olanda çəkmişdi. Özünün Tintin komikslərindən birindən ilhamlanmışdı. *Uçuş 714*". "Gözəldir", – dedim. Başını tərpətdi, "Eladir", – dedi: – "Əşyalarını toplayanda anası mənə verdi". Qələmlə işin mürəkkəbliyinə valeh olaraq eskizə bir dəqiqə artıq baxdım. Detallara diqqət – üslubu və mövzusu yox, əlbəttə – Lahorun muzeylərində və ya Milli İncəsənət Kollecində tapılan miniatür rəsmlərimizi xatırlatdı.

Erika məni çölə, damdakı terrasa apardı və valideynlərinə təqdim etdi. Anası stolun arxasında əyləşmişdi – bizim dörd oturacaqlı nahar yerimizə çevrilmiş bir tennis stolunun; əlimdən tutdu, salam verdi və sonra əlimi hələ də əlində saxlayaraq rəğbətlə Erikaya dedi: "Çox

T.me/Cinciva

yaxşı". "Özünü yaxşı apar, ana", – Erika cavab verdi. Atası manqalın qarşısında dayanıb hamburgerləri boşqablara yığırdı; davranışından aydın idi ki, o, korporativ dünyanın nəticələrə diqqət edən bir adamdır. Yemək üçün yerlərimizi alanda bir şüşə qırmızı şərab qaldırıb məndən soruşdu: "İçirsiniz?". "İyirmi iki yaşı var", – Erikanın anası, *"buna görə də, əlbəttə ki, içir"*, – mənasını verən bir tonla mənim əvəzimə cavab verdi. "Bir dəfə mənim üçün işləyən bir pakistanlı var idi", – Erikanın atası dilləndi: "Heç vaxt içmirdi". "Mən içirəm", – onu əmin etdim.

Çaşqın görünürsünüz və ilk dəfə deyil ki, beləsiniz. Bəlkə, saqqalımın əhəmiyyətini səhv başa düşürsünüz, hər halda, bir məsələni aydınlaşdırmalıyam ki, Nyu-Yorka çatana kimi saqqal saxlamamışdım. Əslində, pakistanlıların çoxu içki içir; alkoqolun qeyri-qanuniliyinin təsiri bizim ölkəmizdə demək olar ki, sizdə marixuananın qanunsuzluğunun oyatdığı təsirlə eynidir. Bundan savayı, içki içənlərin bir çoxu heç də mənim kimi qərb təhsilli şəhərlilər deyil; qəzetlərimiz davamlı olaraq ucuz keyfiyyətli qaçaq içki içdikdən sonra ölən və ya kor olan kəndlilər haqqında məlumat yayır. Sözsüz ki, poeziyamızda və folklor mahnılarımızda *sərxoşluq* məhəbbət və ruhi ziyalanma üçün daim vasitəçi rolu oynayır. Nə? Bu, günah deyilmi? Bəli, əlbəttə, günahdır – eynilə qonşunun arvadına tamah salmaq kimi. Görürəm ki, gülümsəyirsiniz; elə isə, bir-birimizi anlayırıq.

T.me/Cinciva

Lakin mövzudan kənara çıxıram. Sizə Erikanın ailəsi ilə ilk yeməyimdən danışırdım. İlıq bir axşam idi, indiki kimi – Nyu-Yorkda yay burada, Lahordakı yaz kimidir. Onda da yenə, indi olduğu kimi meh əsirdi, meh bu bazarın şam yeməyi hazırlamağa başlayan çoxsaylı açıq hava restoranlarından gələn qoxudan çox da fərqlənməyən odda qızardılan ət qoxusu gətirirdi. Yer möhtəşəm, şərab ləzzətli, burgerlər şirəli və söhbətimiz də xoş idi. Erika mənim orada olmağımdan xoşbəxt görünürdü və onun xoşbəxtliyi mənə də sirayət edirdi.

Lakin müzakirənin bir yerində qıcıqlandığım yadımdadır. Erikanın atası məndən soruşdu ki, geridə, evdə işlər necədir və mən də cavab verdim ki, yaxşıdır. Təşəkkür etdim və o, dilləndi: "İqtisadiyyat çökür, elə deyilmi? Korrupsiya, diktatura var, hamının zülm çəkdiyi bir vaxtda varlılar şahzadələr kimi yaşayır. Möhkəm adamlar, məni səhv başa düşməyin. Pakistanlıları xoşlayıram. Lakin elita o yeri yaxşıca qəsb edib, elə deyilmi? Bir də fundamentalizm. Sizin camaatın fundamentalizmlə çox ciddi problemi var".

Özümü cilovlanmış kimi hiss etdim. Onun dediklərində açıqca etiraz ediləsi bir şey yox idi; əslində, bu, müəyyən bir biliyə əsaslanan xülasə idi, onda oxumağa yenicə başladığım "*The Wall Street Journal*"ın baş səhifəsində verilən qısa xəbərlərə çox bənzəyirdi. Lakin onun tonu – xətrinizə dəyməsin, *amerikansayağı* aşağılayıcı

T.me/Cinciva

ahəng – məndə mənfi təsir oyatdı və yalnız nəzakət xətrinə cavabımı belə məhdudlaşdırdım: "Bəli, çətinliklər var, ser, lakin ailəm oradadır və sizi əmin edə bilərəm ki, hər şey o qədər də pis deyil".

Xoşbəxtlikdən, şam yeməyimizin davamı sakit keçdi. Sonra Erika ilə mən taksi ilə Chelseaya getdik, bir dostu – müasir incəsənət qalereyasının sahibinin qızı – onu sərginin açılışını qeyd etmək üçün təşkil etdiyi əyləncəyə dəvət etmişdi. Sürücümüzün telefonda pəncabi dilində danışdığını eşitdim və ləhcəsindən pakistanlı olduğunu bildim. Adətən salam verərdim, amma məhz o axşam etmədim. Erika məni xeyli maraqla müşahidə edirdi; axırda dedi: "Ümid edirəm hələ də atamın dediklərinə görə dilxor deyilsən". "Dilxor?", – cavab verdim: "Yox əlbəttə, qətiyyən". Güldü, "Çox pis yalançısan", – dedi: – "Haradan gəlməyindən söz düşəndə çox həssaslaşırsan. Üzündən görünür". "Onda üzr istəyirəm", – dedim. "Kobudluq etməyə heç bir haqqım yox idi". "Sən heç vaxt kobud deyilsən", – gülümsəyərək davam etdi: "Məncə, bəzən həssas olmaq da yaxşı şeydir. Bu göstərir ki, sənin üçün nə əhəmiyyətlidir".

İyirmi dördüncü qərb küçəsində taksidən endik. Taksinin pulunu ödəməkdə israr etdim, Erika əlimdən tutub məni adi bir binaya apardı, bu, köhnəlmiş bir sənaye korpusu idi. İçəri girən kimi musiqini eşitdim; pilləkənləri qalxdıqca musiqi yüksəlirdi, nəhayət, yanğın

T.me/Cinciva

qapısını itələyib açdıq və səs-küyə qərq olduq. Qalereya geniş bir məkan idi, ağ, təmiz xətləri və minimalist bərkitmələri vardı; manekenlərin boş başlarının arxasında video projektorlarında üzlər parlayırdı. Hiss etdim ki, içəridən olan birinin dünyasına aparılmışam – bu şəhərin dəbli ürəyinə - başqa heç bir yolla girişim olmayacaq bir dünyaya. Manekenləri, gündə qaralmış yaşlı kişiləri, qəribə geyimli rəssamları ötüb keçdik; kurtamı geyindiyimə sevindim.

Erika tezliklə dostlarının əhatəsində idi, heç birini əvvəllər görməmişdim. Adamları özünə cəlb etməsini müşahidə edirdim və Yunanıstana səfərimizi, qrupumuza göstərdiyi *cazibəni* xatırlayırdım. Lakin bu dəfə fərqli idi; bu dəfə məni də özü ilə gətirmişdi və bütün gecə boyu – baxışla, içki təklif etməklə, dirsəyimə əlini toxundurmaqla – elə etdi ki, bütün axşam boyu bir-birimizə bağlı qaldıq. Saatlar sonra evə tək gedəcəyi taksinin qapısını onun üçün açıq saxlayanda yanağımdan öpərkən mənə elə gəldi ki, ikilikdə xudmanı bir axşam keçirmişik, hərçənd, gecədə çox az danışmışdıq. Ola bilsin ki, Erika da eyni şeyi düşünmüşdü, çünki lap elə həmin dəqiqə dedi: "Təşəkkür edirəm". Təəccübləndim; elə bilirdim ona təşəkkür etməli olan mən idim, amma deməyə vaxtım olmadı, çünki qapını çəkib örtdü və getdi.

T.me/Cinciva

Erika növbəti həftələrdə məni bir neçə dəfə dəvət etdi. Lakin həmin ilk axşamdan fərqli olaraq – onun otağında və taksidə birlikdə olduğumuz – heç zaman tək olmadıq. Lover East Side ət qablaşdırma rayonunda, fransız restoranında kiçik bir musiqi məkanına getdik, Tribecada əzəmətli bir əyləncəyə qatıldıq, lakin həmişə başqalarının əhatəsində. Tez-tez Erikanı öz tanışlarının əhatəsində oturarkən, ya da ayaq üstə durarkən müşahidə edirdim. Belə dəqiqələrdə o, tez-tez özünə qapanmış olurdu; sanki ətrafındakılar ona öz içinə çəkilmək imkanı verirdi. Mənə yalnız qapını və işıqları açıq qoyduqda yata bilən uşağı xatırladırdı.

Arabir mənim onun üzərindəki nəzərlərimin fərqinə varırdı və gülümsəyirdi, sanki – özümü buna inandırırdım – soyuqda gəzib qayıdarkən çiyinlərini şalla örtmüşdüm. Bu cür gəzintilərdə, sadəcə, nəzakətlə danışırdıq, amma hiss edirdim ki, münasibətimiz dərinləşməkdədir. Axşamın sonunda yanağımdan öpürdü və mənə elə gəlirdi ki, hər dəfə bir az ləngiyir, axırda öpüşləri mən ətrini duyana və ağzının kənarlarındakı yumşaqlığı sezənə qədər davam etməyə başladı.

Manilaya yola düşməzdən bir həftə əvvəl Erika məni Mərkəzi Parka piknikə dəvət etdikdə və orada ikimizdən başqa heç kimlə görüşmədiyimizi gördükdə səbrim mükafatını aldı. Nyu-Yorkun Atlantikdən gələn sərt küləyin ağacları tərpətdiyi və buludları səmada qovduğu o şanlı

T.me/Cinciva

iyul sonu günortalarından idi. Sizə yaxşı tanışdır? Bəli, eynilə: şəhər ciyərlərini sərin, duzlu hava ilə doldurarkən rütubət yoxa çıxır. Erika həsir şlyapa taxmışdı və içərisində şərab, yenicə bişirilmiş çörək, doğranmış ət, bir neçə fərqli növ pendir və üzüm olan hörülmə səbət götürmüşdü – dadlı və fikrimcə, olduqca bol çeşidli idi.

Otluqda uzanaraq yeyir və söhbət edirdik, "Lahorda adamlar piknik edir?", – məndən soruşdu. "Yayda o qədər də yox", – dedim: "Ən azından, bu məsələdə bir seçimləri olarsa. Günəş çox güclü olur və çöldə görə biləcəyin adamlar hamısı kölgəyə yığışır". "Onda yəqin ki, bu sənə çox yad görünür", – dedi. "Yox", – deyə cavab verdim: "Əslində, bu mənə ailəmin Himalayın ətəklərindəki Natha Galliyə səfərini xatırladır. Orada yeməyimizi tez-tez açıq havada yeyirdik – çay və hoteldən götürdüyümüz xiyarlı sendviçlərlə". Bu təsvirə gülümsədi, sonra düşüncəli bir şəkildə sakit dayandı.

"Bunu uzun müddətdir etməmişəm", – yenidən danışmağa başlayanda əlavə etdi: "Krislə tez-tez parka gələrdik. Bu səbəti də özümüzlə gətirər, saatlarla burada vaxt keçirərdik". "O, öləndən sonra daha gəlmədin?", - soruşdum. "Gəlmədim", – bir qızçiçəyi dərərək dedi. "Bir çox şeyi daha etmədim. Bir müddət adamlarla danışmadım. Yemək yemədim. Xəstəxanaya getməli oldum. Mənə dedilər ki, bu barədə çox düşünməyim. Dərman verməyə başladılar. Anam üç ay işdən icazə almalı oldu,

T.me/Cinciva

çünki özümdə deyildim. Lakin hay-küy salmadıq və sentyabrın sonunda artıq Prinstona qayıtdım".

Dedikləri elə bu idi. Bütün bunları adi, hətta sakit səslə söylədi. Lakin yenə – bu dəfə, hətta keçəndəfəkindən də aydın şəkildə – qəlbindəki sınığı gördüm; bu məndə demək olar ki, ailə nəvazişi oyatdı. Ayağa qalxdıqda qolumu uzatdım və o da gülümsəyib qəbul etdi. Sonra ikilikdə gəzərək, Mərkəzi Parkdan uzaqlaşdıq. Onun sərin və hamar dərisindən duyduğum hissi hələ də açıqca xatırlayıram. Əvvəllər heç zaman bu qədər uzun bir vaxt təmasda olmamışdıq; onun bədəninin bu qədər güclü olması, eyni zamanda bu qədər yaralanmış birinə məxsus olması duyğusu uzun müddət mənimlə qaldı. Əslində, həftələr sonra Maniladakı hotel otağımda bəzən kabus toxunmuş kimi həmin hisslə oyanırdım.

Uğursuzluğa bir bax! İşıq söndü. Bəs siz niyə ayağa sıçradınız? Həyəcanlanmayın, ser; bayaq da qeyd etdiyim kimi, Pakistanda işığın oynaması və sönməsi adi haldır. Siz, həqiqətən də, həddindən artıq reaksiya verirsiniz; hələ hava qaralmayıb. Başımızın üstündəki səmada hələ də rəng qalır və siz orada əlləriniz gödəkcənizdə durduqca, sizi aydın görə bilirəm. Sizi əmin edirəm: heç kim pul kisənizi oğurlamağa cəhd etməyəcək. Bu ölçüdə bir şəhər üçün qəribə də olsa, Lahor belə kiçik cinayətlərdən azaddır. Əyləşin, sizdən xahiş edirəm, yoxsa məni də ayağa qalxmağa məcbur edəcəksiniz. Qonağım narahat

T.me/Cinciva

olanda bu vəziyyətdə qalmağımın kobudluq olduğunu düşünürəm.

Ah, qayıtdı! Şükür Allaha. Bir dəqiqəlik kəsilmədən başqa bir şey deyildi. Siz isə – qəflətən şahin kölgəsi altına düşmüş siçan kimi atıldınız! Əsəblərinizi sakitləşdirmək üçün sizə viski təklif edərdim, mümkün olsaydı. Jack Daniels, eləmi? Gülümsəyirsiniz; düşkün olduğunuz bir şeyə toxunmuşam. Təəssüf ki, bu bazarda köklərini sizin ölkədən götürmüş içkilər yalnız karbonlu, alkoqolsuz içkilərdir. Biri işinizə yarayar? Elə isə, dərhal ofisiantımızı çağıracağam.

5

Baxın, ser: meydanın üzərində yarasalar görünməyə başlayıb. Deyirsiniz, ətürpərdicidir? Necə də məftunedici bir Amerika ifadəsi – uzun illər eşitmədiyim biri! Onlar mənə ətürpərdici görünmür; hətta onları xoşlayıram. Mənə gənc yaşlarımı xatırladırlar: babamın hovuzunda üzərkən bizim üstümüzə cumardılar, ola bilsin, bizi qurbağalarla səhv salırdılar. O vaxtlar Lahor daha böyük varlıqların da evi idi – uçan tülkülərin, atam onları belə adlandırardı – axşamlar biz Mall Road yuxarı maşınla gedərkən onları yaşlı ağacların budaqlarından sallanan görərdik. İndi yoxa çıxıblar: yəqin kəpənəklər və atəşböcəkləri kimi onlar da müasir metropolisin sıxlığı və çirklənməsi ilə uyğunsuz olan *xəyalpərəst* bir dünyaya aid

T.me/Cinciva

olublar. Bu gün onları yalnız kənd-kəsəkdə görmək olur.

Lakin burada yarasalar sağ qalıb. Onlar da sizin və mənim kimi aşkar edilməyəcək qədər zirək və kütlənin içərisində ov edə biləcək qədər hiyləgər, uğurlu şəhər sakinləridir. Onların şəhər içərisində naviqasiya qabiliyyətinə heyrət edirəm: bu binalara nə qədər yaxınlaşsalar da, heç vaxt toqquşmurlar. Kəpənəklər isə ötüb keçən maşınların ön şüşələrinə yapışmağa meyillidirlər, bir dəfə də yolunu kəsən şüşəni dərk etməyi bacarmayan bir atəşböcəyinin təkrar-təkrar evin pəncərəsinə çırpıldığını görmüşəm. Bəlkə də, uçan tülkülərdə daha kiçik əmiuşaqlarında olan radar və ya çeviklik yoxdur, buna görə də Lahorun əvvəllər olan bütün tikililərdən daha hündür olan yeni ofis və binalarına dəyib ölüblər. Belədirsə, Nyu-Yorkda və hətta, bu mənada, Manilada da çoxdan nəsilləri kəsilib!

İlk "Underwood Samson" tapşırığımın başlanğıcında Filippinə çatanda həddindən artıq həyəcanlı idim. Birinci sinifdə uçmuşduq və kostyumumda, oturacağımda yarı uzanıb, cəlbedici – bəli, həqiqətən də, özümü buna inandıracaq qədər həyasız idim – *işvəli* stüardessanın mənə şampan şərabı süzən zamanı keçirdiyim hissi heç zaman unutmayacağam. Öz gözlərimdə həqiqi bir Ceyms Bond idim – amma daha gənc, daha qaraşın və ola bilsin ki, daha çox pul qazanan birisi. O vaxtları düşünəndə necə də uzaq keçmiş kimi görünür; təkəbbürüm necə də tez yox olacaqdı!

T.me/Cinciva

Lakin çox irəli qaçıram. Sizə Maniladan danışırdım. Heç Şərqdə olmusunuz, ser? Olmusunuz! Həqiqətən də, bir amerikalı üçün çox səyahət etmiş birisiniz – əslində, istənilən ölkədən olan adam üçün. Sizin *işinizin* təbiəti məni get-gedə daha çox maraqlandırır – amma əminəm ki, zamanı gələndə deyəcəksiniz; hələlik isə elə görünür ki, mənim davam etməyimi istəyirsiniz. Bir halda ki Şərqdə olmusunuz, qlobusun o hissəsində baş verən dəyişikliklərin necə möhtəşəm olduğunu söyləməyimə ehtiyacınız yoxdur. Lahor kimi – ya da bəlkə, Karaçı kimi – bir şəhərlə qarşılaşacağımı gözləyirdim. Lakin tapdığım göydələnlər və əla magistrallar məkanı oldu. Manilanın da gecəqonduları var idi, onları hava limanından maşınla gedərkən görmək olurdu: çirkli, ağ alt köynəyində, maşın təmiri dükanlarının qarşısında avara-avara sərilmiş kişilər rayonu – *Grease* kimi filmlərdə təsvirini tapmış 1950-ci illər Amerikasının daha yoxsul versiyası kimi. Lakin Manilanın bərq vuran səması və ultra-varlıların hasarlanmış bölgəsi Pakistanda gördüyüm heç nəyə bənzəmirdi.

Müqayisələrə çox da aludə olmamağa çalışdım; Nyu-Yorkun Lahordan daha varlı olduğunu qəbul etməklə Manilanın da belə olduğunu udmaq tamamilə başqa-başqa şeylər idi. Özümü çiyinləri üstündən baxıb, onu ötməkdə olan yarışçının heç də qrupun lideri deyil, geridə qalanlardan biri olduğunu görənə qədər heç də pis

T.me/Cinciva

getmədiyini düşünən uzaq məsafə qaçışçısı kimi hiss etdim. Bəlkə, elə buna görə də Manilada əvvəllər heç vaxt etmədiyim bir şey etdim: ləyaqətimin imkan verdiyi dərəcədə daha çox bir *amerikalı* kimi danışmağa və davranmağa cəhd etdim. Birgə işlədiyimiz filippinlilər amerikalıları, demək olar ki, instinktiv olaraq qlobal biznesin zabit sinfi kimi qəbul edərək aşağıdan yuxarı baxırmış kimi görürdülər və mən də bu hörmətdən öz payımı istəyirdim.

Buna görə də atam yaşında bir müdirə "Bunu *indi* istəyirəm" deməyi öyrəndim; cümlələri toxunulmaz bir təbəssümlə qısa kəsməyi öyrəndim; məndən haralı olduğum soruşulanda "Nyu-Yorkdan" deməyi öyrəndim. Soruşursunuz, bütün bunlar məni narahat edirdimi? Əlbəttə, ser; tez-tez utanırdım. Lakin zahirən bunun heç bir nişanəsini göstərmirdim. İstənilən halda, fəxr edə biləcəyim çox şey vardı; misal üçün, işə səmimi qabiliyyətim və həmyaşıdlarımdan mənim işim üçün gələn təmtəraqlı tərifl ər.

Əvvəl də qeyd etdiyim kimi, biz oraya musiqi biznesini dəyərləndirmək üçün getmişdik. Sahibi yerli A&R səhnəsində əfsanəvi bir adam olmuşdu; eynəyini çıxaranda gözlərində uzunmüddətli LSD təsiri ilə əlaqəli kosmik genişlik görmək olurdu. Lakin rəngli keçmişinə rəğmən, beynəlxalq musiqi şirkətlərindən ikisi üçün CD istehsal etmək və paylamaq üzrə qazanclı *autsorsinq* müqavilələri

T.me/Cinciva

imzalamağı bacarmışdı. İddia edirdi ki, onun işi Asiyanın Cənub-Şərqində bu sahədə ən böyük işdir – pirat, yükləmə və Çin rəqabətinə baxmayaraq, sağlam şəkildə də böyüməkdədir.

İşin dəyərinin, əslində, nə qədər olduğunu təyin etmək üçün biz bir aydan çox bütün günü işlədik. Hər cür təchizatçılar, işçilər və ekspertlərlə müsahibələr etdik, qapalı otaqlarda hüquqşünas və mühasiblərlə saatlar keçirdik; giqabaytlarla məlumat topladıq; etalonların iş göstəricilərinin müqayisəsini apardıq; sonda saysız-hesabsız yerdəyişmələrdən ibarət mürəkkəb bir maliyyə modeli hazırladıq. Vaxtımın çoxunu kompüterimin arxasında keçirir, həm də fabrikə və bir neçə musiqi dükanına baş çəkirdim. Bu səfərlərimdə komandamın gələcəyini formalaşdırdığımı bilərək özümü son dərəcə nüfuzlu hiss edirdim. Bu işçilər işdən atılacaqdı? Bu CD-lər başqa harada istehsal ediləcəkdi? Buna qərar verməyə, əlbəttə ki, *biz* bilavasitə kömək edəcəkdik.

Lakin çaşdığım anlar da olurdu. Belə hallardan birini xüsusi olaraq xatırlayıram: İş yoldaşlarımla bərabər Limuzin-də gedirdik. Tıxacda ilişmişdik, tərpənə bilmirdik və mən pəncərədən baxıb çox da uzaqda olmayan bir jeepney sürücüsünün mənə baxdığını gördüm. Üz ifadəsində gizlədilməmiş bir düşmənçilik vardı – bilmirəm niyə. Əvvəllər görüşməmişdik – buna tam əmin idim – və bir neçə dəqiqədən sonra da bir daha bir-birimizi

T.me/Cinciva

görməyəcəkdik. Lakin onun antipatiyası elə aydın idi ki, mənə nüfuz etdi. Gözümü ona zillədim, özüm də hirsləndim – burada olduğunuz müddətdə görəcəksiniz ki, biz lahorlu kişilər göz zilləməyi çox ciddiyə alırıq – və baxışlarımı o, qarşısındakı maşının hərəkəti ilə məcburi diqqətini yola yönəldənə kimi saxladım.

Sonra onun niyə o cür davrandığını anlamağa çalışdım. Ola bilsin ki, arvadı onu yenicə tərk edib; ola bilsin ki, bahalı maşın və kostyumumun mənə verdiyi üstünlük səbəbindən nifrət edir; ola bilsin ki, sadəcə, amerikalıları xoşlamır. Bu məsələ fikrimi lazım olandan artıq məşğul etdi, fərz edilən bütün ehtimalları irəli sürərək belə başa düşdüm ki, o və mən bir növ üçüncü ölkə həssasiyyətinə malikik. Sonra iş yoldaşlarımdan biri məndən nə isə soruşanda tamamilə qəribə bir şey baş verdi. Ona baxdım – sarışın saçlarına, açıq rəngli gözlərinə və hər şeydən çox da işimizin xırdalıqlarına olan diqqətinə, düşündüm ki, necə də *yaddır*. Həmin an özümü daha çox filippinli sürücüyə yaxın hiss etdim, nəinki ona; mənə elə gəldi ki, bayırdakı insanlar kimi evimə getmək əvəzinə, rol oynamaqda idim.

Əlbəttə, heç nə demədim, amma bu xüsusi hadisələr, ya da təəssüratlar seriyasından o qədər narahat idim ki, o gecəni yatmaqda çətinlik çəkdim. Xoşbəxtlikdən, işimizin intensivliyi daha çox insomniya (yuxusuzluq) mübarizələrinə imkan vermirdi; növbəti gün səhər saat ikiyə

T.me/Cinciva

kimi ofisdə qaldım və hoteldəki otağıma qayıdanda uşaq kimi yatdım.

Manilada olduğum müddətdə – iyulun sonu çatıb, sentyabrın ortası geri qayıtdım – ailə və dostlarımla əlaqəm Lahora hər həftə etdiyim telefon zəngləri və Nyu-Yorkda Erika ilə onlayn yazışmalarım idi. Vaxt fərqinə görə, onun mənə səhər yazdığı mesajlar inboksuma axşam çatırdı və yatmazdan əvvəl onları oxuyub cavablandırmağı səbirsizliklə gözləyirdim. Onun e-mailləri qısa olurdu; mənə heç vaxt bir-iki paraqrafdan artıq yazmırdı. Bir qeyd, misal üçün, haradasa, "C: Hamptonsdayam. Bir dəstəmizlə çimərlikdə vaxt keçirirdik. Bir az təkbaşına gəzdim. Qaya hovuzu tapdım. Qaya hovuzlarını xoşlayırsan? Çox sevirəm. Balaca dünyalar kimidir. Mükəmməl, müstəqil, şəffaf. Sanki zamanda donublar. Sonra axın qalxır, dalğa içəri çırpılır və geri qalan bir neçə balıqla hər şeyi yenidən başlayırlar. Nə isə... geri qayıdanda hamı harada olduğumu soruşa-soruşa durdu və başa düşdüm ki, bütün günortanı orada keçirmişəm. Bu, nə isə, sürreal bir şey idi. Səni xatırlatdı. - "E" kimi idi.

Bu cür mesajlar əhvalı bir neçə gün yüksəltməyə kifayət edirdi. Ola bilsin ki, bu sizə şişirtmə kimi görünür. Lakin başa düşməlisiniz ki, Lahorda mən orta məktəbdə olanda – hər yerdə olduğu kimi burada da cavanlar indi yəqin ki, daha azaddırlar – münasibətlər, adətən, ani telefon danışıqları, dostlar vasitəsilə xəbər və heç vaxt baş

T.me/Cinciva

verməyən görüş vədləri şəklində qurulurdu. Valideynlərim ciddi idi və sevgilimiz hesab etdiyimiz qızları bəzən həftələrlə görə bilmirdik. Ona görə də həzzin inkarını dadmağa vərdiş etmişdik – zövqlərin ən amerikansayağı olmayanı! – və mən bir az əvvəl təsvir etdiyim kimi e-maillər pəhrizi ilə xoşbəxt bir şəkildə yaşaya bilirdim.

Lakin əlbəttə ki, Erikanı yenidən görməyi çox istəyirdim, ona görə də layihəmizin sonu yaxınlaşdıqca əhvali-ruhiyyəm artırdı. Cim bizim nəticələrimizi yoxlamaq üçün uçub gəlmişdi; bir şey içmək üçün mənimlə əyləşdi. "Belə, Çingiz", əlinin işarəsi ilə Makati Shangri-Lanı - bizim nəfis hotelimizi göstərərək dedi: "Bütün bunlara öyrəşirsən?". "Sözsüz ki, ser", – deyə cavab verdim. "Hamı sənin haqqında yüksək fikirlər söyləyir", – deyib, reaksiyamı görmək üçün fasilə verdi; gülümsədiyimi görüb davam etdi: "Lakin deyirlər ki, həddindən artıq işləyirsən. Bütün enerjini indi yandırmaq istəməzsən, elə deyil?". "İcazə verin, sizi təkrar əmin edim ki", – dedim, "lazım olandan da çox istirahət edirəm". Qaşını qaldırıb gülməyə başladı. "Səndən xoşum gəlir, bunu bilirsən eləmi?", – dedi, "Gerçəkdən, axmaqlıq... uşağın əhvalını qaldırmaq üçün deyilən söz kimi nəzərdə tutmuram – sən köpək balığısan. Bunu mən deyiramsə, komplimentdir. Mən ilk dəfə qoşulanda məni də belə adlandırmışdılar: köpək balığı. Üzməyi heç dayandırmadım. Həm də təm-

T.me/Cinciva

kinli müştəri idim. Heç vaxt bu dünyaya aid olmadığımı hiss etdiyimi büruzə vermədim. Elə sənin kimi".

İlk dəfə deyildi ki, Cim mənimlə bu şəkildə danışırdı; heç vaxt da nə cavab verəcəyimdən əmin olmurdum. Seyrçiləri – krikitdə dediyimiz kimi – şeytansayağı çaşdırmağın çətin olduğunu nəzərdə tutan bir etiraf. Bunu rədd etsən, etirafçıya həqarət etmiş olacaqsan; qəbul etsən, öz günahını boynuna alacaqsan. Ona görə də dedim: "Niyə aid deyildiniz?". Gülümsədi – sanki yenə bütün fikrimi oxuya bilirdi – və cavab verdi: "Çünki o biri tərəfdə böyümüşdüm. Həyatımın yarısını şəkər dükanına çöldən baxırdım, ay uşaq. Amerikada isə nə qədər kasıb olsan da, televizor sənə yaxşı mənzərə açır. Lakin mən kasıbın kasıbı idim. Atam qanqrenadan ölmüşdü. Buna görə də nə dediyimi anlayırsansa, bir şüşə fermentli üzüm şirəsinə yüz dollar verməyin ironiyasını dərk edirəm".

Bu barədə düşündüm. Sizə dediyim kimi, kasıblıqla böyüməmişəm. Lakin kasıb bir oğlanın *həsrət* hissi ilə böyümüşəm, mənim nümunəmdə ailəmin malik olmadığı şeylərin yox, bir zamanlar malik olub, sonra itirdiklərinin həsrəti ilə. Qohumlarımdan bəziləri evsizlərin lotereyadan yapışdıqları kimi xəyali xatirələrindən yapışıb qalmışdılar. *Nostalgiya,* necə deyərlər, onların kokaini idi və mənim uşaqlığım onların bu aludəçiliyi ilə zibillənmişdi: yararsız borclar, miras didişmələri, təsadüfi içki

T.me/Cinciva

düşkünləri və intiharlar. Burada Cimlə mən, həqiqətən də, bənzər idik: o, şəkər dükanından çöldə böyümüşdü, mən isə onun örtülməkdə olan qapısının astanasında.

Komandanın digər üzvləri barda bizə qoşuldu, amma Cim qolunu mənim stulumun arxasına qoyub oturmaqda davam etdi, elə bir tərzdə ki, özümü – tamamilə hərfi mənada – elə hiss etdim, sanki məni qanadının altına almışdı. Gözəl hiss idi və hotel işçilərinin onunla necə davrandığını gördükdə əhvalım daha da yaxşılaşdı; Cimi hörmətli biri kimi təyin etmişdilər və ona yönələn gülümsəmə və diqqəti müşahidə etmək təsirli idi. Qrupumuzda yeganə qeyri-amerikalı idim, amma deyəsən, kostyumumun, bahalı bank hesabımın – və hər şeydən çox – yol yoldaşlarımın örtdüyü pakistanlılığım nəzərə çarpmırdı.

Lakin yenə də... Yox, burada fasilə versəm, yaxşıdır, çünki demək niyyətində olduqlarım sizin üçün duzsuz görünə bilər və başlamazdan əvvəl bir az isinmənizi istəyirəm. Bundan savayı, boğazım quruyub: meh, deyəsən, tamamilə yox olub və gecə düşmüş olsa da, həqiqətən istidir. Daha bir içki istəyirsinizmi? Yox? Sizə maraqlıdır, deyirsiniz və istəyirsiniz ki, davam edim? Lap yaxşı. Sadəcə, ofisiantımıza işarə edəcəyəm ki, mənə daha bir şüşə gətirsin: budur, alındı. Budur, gəlir, necə də tələsir; adama elə gələ bilər ki, onun yeganə müştəriləri bizik! Ah, ləzzətlidir – istədiyim bax, elə budur.

T.me/Cinciva

Növbəti axşam Manilada sonuncu axşamımız olmalı idi. Otağımda idim, əşyalarımı qablaşdırırdım. Televizoru açdım və ilk gördüklərimi film hesab etdim. Lakin baxmağa davam etdikcə, gördüklərimin bədii film deyil, xəbərlər olduğunu anladım. Nyu-York Dünya Ticarət Mərkəzinin qoşa binalarının çökdüyünü gördüm. Sonra isə *gülümsədim*. Bəli, alçaq səslənə bilər: ilkin reaksiyam bu qəribə məmnunluğum oldu.

İkrahınız aydındır; həqiqətən, yekə əliniz yəqin ki, özünüz də fərqində olmadan yumruğa çevrilib. Lakin xahiş edirəm, sosiopat olmadığımı dedikdə mənə inanın: başqalarının əziyyətinə laqeyd deyiləm. Ciddi xəstəlik diaqnozu qoyulmuş bir tanışımın haqqında eşidəndə, o dəqiqə rəğbətlə ağrı, böyrəklərimdə gözlərimi qırpmağıma səbəb olacaq qədər güclü zoqqultu hiss edirəm. Mənə xeyriyyəçilik ianəsi üçün yanaşıldıqda, kasıbyana imkanlarımın yetdiyi qədər səxavətli oluram. Ona görə də sizə minlərlə günahsızın qətlindən məmnun olduğumu dedikdə, bunu dərin bir çaşqınlıq içərisində edirəm.

Lakin həmin dəqiqə düşüncələrim hücumun *qurbanlarının* yanında deyildi, televizorda ölüm, uydurma olanda və bu mənim bir sıra epizodlar ərzində şəxsi bir əlaqə formalaşdırdığım obrazların başına gələndə daha çox təsir edir – yox, baş verənlərdəki *simvolizmdə* ilişib qalmışdım, Amerikanı açıq-aşkar dizləri üstə endirmiş birinin olması faktında. Ah, görürəm ki, sadəcə, narazılı-

T.me/Cinciva

günüzü artırmaqdayam. Əlbəttə, başa düşürəm: başqa birinin ölkənin başına gələn fəlakətdən kam almasına qulaq asmaq nifrət oyadır. Lakin siz özünüz də bu cür hisslərdən tamamilə məsum sayıla bilməzsiniz. Videokliplərdə Amerika hərbi ehtiyatlarının sizin düşmənlərinizi yerlə-yeksan etdiyi videolara baxarkən sevinmirsiniz?

Lakin deyirsiniz ki, siz müharibədəsiniz? Bəli, düzdür. Mən Amerika ilə müharibədə deyildim. Hətta bundan olduqca uzaq idim: Amerika universitetinin məhsulu idim; gəlirli Amerika maaşı qazanırdım; amerikalı qadına aşiq olmuşdum. Bəs niyə bir hissəm Amerikanın zədələnməsini arzulayırdı? Onda bilmirdim; sadəcə, onu bilirdim ki, hisslərimi iş yoldaşlarım qəbul etməyəcəkdi və onları mümkün qədər gizlətməyə çalışırdım. O axşam komandam Cimin otağında toplaşanda mən də üzümə ətrafımdakıların üzündə gördüyüm şok və əzab ifadəsi verdim.

Lakin onların sevdikləri adamlar haqqında danışdıqlarını eşidərkən fikirlərim Erikaya qayıtdı və artıq özümü yalandan həyəcanlı göstərməyə ehtiyac qalmadı. O zaman, əlbəttə, bilmirdim ki, ölüm sıfır nöqtəsi kimi tanınacaq coğrafi çərçivədə idi. Erikanın hücum vaxtı evdə – təhlükəsizlikdə olduğunu da bilmirdim. Onun üçün keçirdiyim narahatlıq və yuxusuzluq məni sanki yüngülləşdirirdi – bu imkan verirdi ki, iş yoldaşlarımın narahatlığını bölüşüm və ilkin məmnunluğuma bir müddət fikir verməyim.

T.me/Cinciva

Bir neçə gün Manilanı tərk edə bilmədik, uçuşlar təxirə salınmışdı. Hava limanında silahlı gözətçilərin mühafizəsi altında bir otağa aparıldım və alt paltarıma qədər soyundurduldum – utancverici də olsa, həmin gün üstündə çəhrayı ayı şəkilləri olan bir tuman geyinmişdim, amma bu məni yoxlayanların ciddi ifadələrində heç bir dəyişikliyə səbəb olmadı – buna görə də təyyarəyə minən son adam oldum. Girişim uçuş yoldaşlarımın çoxunda narahat baxış yaratdı. Nyu-Yorka üzümdə narazı bir ifadə ilə qayıtdım: şübhə altında olduğumdan xəbərdar idim; özümü günahkar hiss edirdim; buna görə də mümkün qədər soyuqqanlı olmağa çalışırdım; bu da təbii olaraq sərt və qapalı olmağıma səbəb olurdu. Mənimlə yanaşı əyləşmiş Cim bir neçə dəfə özümü necə hiss etdiyimi soruşdu.

Çatanda isə miqrasiya məni komandamızdan ayırdı. Onlar Amerika vətəndaşları üçün olan növbəyə qoşuldular; mən xaricilər üçün olana. Pasportumu yoxlayan zabit belində tapança olan və ingilis dilini məndən aşağı səviyyədə bilən, möhkəm bədənli bir qadın idi; onu gülümsəyərək yumşaltmağa cəhd etdim. "Birləşmiş Ştatlara səyahətinizin məqsədi nədir?" – deyə o soruşdu. "Burada yaşayıram", – deyə mən cavab verdim. "Sizdən soruşduğum *bu* deyildi, ser", – o dedi və təkrarladı: "Birləşmiş Ştatlara səyahətinizin *məqsədi* nədir?" Söhbətimiz bu şəkildə bir neçə dəqiqə davam etdi. Axırda məni ikinci

T.me/Cinciva

oxlama üçün bir otağa göndərdilər və orada əliqandal-
, tatulu bir kişinin yanındakı metal skamyada əyləşdim.
Qrupum məni gözləmədi; mən gözləmə zalına daxil ola-
a qədər onlar artıq çamadanlarını götürüb çıxıb getmiş-
lilər. Nəticədə, həmin gecə Manhettenə tək qayıtdım.

Bəs niyə səksənirsiniz? Ah, bəli, yarasalar; əslində, alçaqdan uçurlar. Bizə toxunmayacaqlar; icazənizlə, bu məsələdə sizi arxayınlaşdırım. Deyirsiniz, bunu bilirsiniz? Səs tonunuz köntöydür; görürəm, xətrinizə dəymişəm, hətta *hirsləndirmişəm*. Lakin məncə, çox da *təəccübləndirməmişəm*. İnkar edirsiniz? Yox? Bax *bu* məni heç də az təəccübləndirmir, çünki əvvəllər görüşməmişik, amma yenə də mənim haqqımda nə isə bilirmiş kimi görünürsünüz. Ola bilsin, görünüşümdən müəyyən nəticələrə gəlmisiniz, saqqalımdan; ola bilsin, hekayə xəttimi stend atıcısının qeyri-adi məharəti ilə izləmisiniz, ya da ola bilsin ... Bu cür fərziyyələr yetər! Gəlin, menyuya bir nəzər salaq: çox danışmışam və qorxuram ev sahibi olaraq borcuma səhlənkar yanaşmışam. Bundan savayı, indi daha çox *sizin* haqqınızda eşitmək istəyirəm: Sizi Lahora gətirən səbəb nədir, hansı şirkətdə işləyirsiniz və sair və ilaxır... Ətrafımızda gecə qatılaşır və bu, bazarın üstündəki işıqlara baxmayaraq, üzünüz çox kölgələnib. Bir halda ki gözlərimizin faydası azalır, gəlin, biz də yarasalar kimi başqa hisslərimizə güvənək. Qulaqlarınız isə yəqin ki, əldən düşüb; dilinizi işə salmaq vaxtı çatıb – başqa bir

T.me/Cinciva

şey üçün olmasa da, dad üçün. Yenə də ümid edirəm, siz danışmağa razı salmaq da mümkün olacaq!

6

Tərəddüd edirsiniz, ser, sizi diqqət mərkəzində qoymaq niyyətində deyildim. Buraya səfərinizin *məqsədini* açıqlamağa hələ hazır deyilsinizsə – davranışınız, dünyanın bu hissəsində məqsədsiz şəkildə gəzib-dolaşan turist ehtimalını tamamilə yox edir – təkid etməyəcəyəm. Ah, görürəm, ətri duymusunuz. Sizin gözlərinizdən heç nə yayınmır; hisslәriniz vəhşi təbiətdə olan bir tülkününkü kimi kəskindir. Xoşdur, elə deyilmi? Bəli, haqlısınız: yasəməndir. Bu ətir o ailənin yenicə yer aldığı yanaşı stoldan gəlir. Baxışlarınız da artıq özünüzün belə bunu təxmin etmiş olduğunuzu göstərir.

Nə böyük ziddiyyət: qadının dərisinin tünd rəngi fonunda o budaqların solğunluğu! Yenə nə böyük ziddiyyət: qızaran ətin güclü qoxusu fonunda onların ətrinin zərifliyi! Biz heyvanların yanmış cəsədləri ilə əhatə olunduğumuz halda, çiçəklərin çağırışından həzz almağa qabil olmağımız necə də qeyri-adidir, ancaq biz onsuz da qeyri-adi varlıqlarıq. Bəlkə də, ölüm və törəmə – həm də, əslində, sonlu və sonsuz – arasındakı əlaqəni şüuraltı olaraq tanımaq bizim təbiətimizdədir və biz, əslində,

T.me/Cinciva

digərini axtarmaq üçün birinin xatirələrini ilə idarə olunurmuş.

Xatırlayıram ki, ana nənəm dünyasını dəyişəndə mənə belə çiçəklər almaq tapşırılmışdı. O vaxt on altı yaşında idim və saxta sürücülük lisenziyam vardı – aslında, qardaşımın idi – sükan arxasında olmağa o qədər can atırdım ki, ailəm sürücümüzün edə biləcəyi işləri görməyə də mani göndərirdi. Bizim "Toyota Karolla"mıza illər ərzində yaxşı qulluq edilmişdi, amma uzun müddət idi ki, istifadədə idi və elə həmin gün olduğu kimi qızmağa meyilli idi. Yay günəşinin altında tərim süzülə-süzülə qəbiristanlığa apardığım, qollarımın üstünə qalaqlanmış o sapa düzülmüş yasəmənlərin məstedici ətrini bu günə kimi hiss edirəm.

Dünya Ticarət Mərkəzinin dağıdılmasından sonra Nyu-York yasa batmışdı, ölənlərin mənim orada olmadığım müddətdə yaranmış ziyarətgahlarında çiçəklərdən bəzəklər ucaldılmışdı. Gəzib keçərkən tez-tez onlara baxırdım: küçələrin tinlərində, dükanların arasında, kütləvi meydanların məhəccərləri boyu fotolar, buketlər, başsağlığı sözləri yuva salmışdı. Onlar mənə özümün bu faciəyə mərhəmətsiz – həqiqətən də, qeyri-insani – cavabımı xatırladırdı və onlardan davamlı olaraq məzəmmət pıçıltıları eşidirdim.

Digər məzəmmətlər daha yüksəkdən səslənirdi. Nyu-Yorku hücumlardan sonra sizin ölkənin bayraq-

T.me/Cinciva

ları işğal etdi; o bayraqlar hər yerdə idi. Diş çöplərinə keçirilmiş kiçik bayraqlar ziyarətgahların xüsusiyyətinə çevrilmişdi; bayraq stikerləri ön şüşələri və pəncərələri bəzəyirdi; binalarda böyük bayraqlar dalğalanırdı. Sanki hamısı bəyan edirdi: *Biz Amerikayıq* – Nyu-York deyilik, məncə, bu, tamamilə başqa bir məna verir – *dünyanın tanıdığı ən güclü sivilizasiya: bizi xəfifə almısınız: qəzəbimizdən özünüzü qoruyun.* Şəhərin yüksələn binalarına baxaraq, belə dəbdəbəli bir qaladan necə möhtəşəm bir ordunun çıxacağını düşünürdüm.

Erikanı təkrar gördüyüm fon belə idi. Mərkəzi Parkda birlikdə keçirdiyimiz günortadan altı həftə keçmişdi və zəng edəndə düşünmüşdüm ki, Erikanın başqa planları ola bilərdi, amma o təklif etdi ki, elə həmin axşam görüşək, bu da mənim işi bitirən kimi Nyu-Yorkda keçirdiyim ilk bütöv gün idi. Erika taksidən düşəndə səkidə dayanıb gözləyirdim. Havada xüsusi bir qoxu vardı: şəhər mərkəzində yanan dağıntı ciyərlərimizə yol tapırdı. Dodaqları solğun idi, sanki yatmamışdı, ya da ağlamışdı. Həmin an düşündüm ki, daha yaşlı, daha eleqant görünür, onda qadına yalnız yaşın bəxş etdiyi bir gözəllik elementi vardı və mənə elə gəldi ki, Erikanın vaxt ötdükcə, bir gün olacağı vəziyyətə ani bir nəzər saldım. Mənə elə gəldi ki, gözləməkdə olan bir imperatriçadır!

"Anam deyirdi", - şam yeməyi zamanı dedi, "bəlkə də, bir müddətlik şəhərdən getsək, yaxşıdır. Hamptonsa".

T.me/Cinciva

ıncaq ona dedim ki, etmək istədiyim son şey şəhərdən getməkdir – tənha olmaq istəmədim. Hücumlar başımla köhnə fikirləri çalxalayıb. Başımı tərpətdim, amma cavabında heç nə demədim. Özümü onunla dəfndə qarşılaşmış kimi hiss etdim; adam heç vaxt bilmir yas tutanlara nə desin. "Kris haqqında düşünə-düşünə dururam", – davam etdi, "bilmirəm niyə. Çox vaxt gecələr dincəlmək üçün nə isə qəbul etməli oluram. Elə bil bir il geri atılmışam". Məncə, təşvişə düşmüş kimi göründüm, çünki gülümsəyib əlavə etdi: "O *qədər də* pis deyiləm. Yəni yeməyim yerindədir. Özümü itirməmişəm. Ancaq elə bil xəyalat görürəm, başa düşürsənmi?"

Söz seçimi məni düşündürdü. "Bir xalam var", – dedim, "anamın bacılarının ən gözəli. Evliliyi planlaşdırılmış bir evlilik idi, ərini əvvəllər bir neçə dəfə görə bilmişdi. Əri hava qüvvələri pilotu idi. Üç ay sonra dünyasını dəyişdi, xalam bir daha ailə qurmadı. Deyirdi ki, əri həyatının məhəbbətidir". Erika təsirlənmiş, mənim dediklərimdən həm riqqətlənmiş, həm də narahat görünürdü; qarşıya əyilərək soruşdu: "İndi necədir?" "Dəlidir", – dedim, – "mart dovşanı kimi dəli". Erika gözlərini zillədi; sonra gülməyə başladı – təəccüb və məmnunluq dolu bir qəhqəhə ilə – sonra isə əlini əlimin üstünə qoyub: "Sənin üçün darıxmışdım", – dedi, – "nə yaxşı ki, geri qayıtdın".

Barmaqlarımı onun barmaqları arasına keçirmək istəyirdim, amma əlimi tamamilə sakit saxladım, sanki

T.me/Cinciva

edəcəyim hər hansı hərəkətin əlaqəmizi kəsəcəyindən qorxurdum. "Həqiqətən, dəlidir?", – Erika qaşını qaldırıb mənim tələffüzümü yamsılayaraq soruşdu. "Hə", – saxta bir ciddiyyətlə dedim, – "büsbütün". Buna gülümsədi; təklif etdi ki, daha bir şüşə şərab sifariş edək. Restoran gecə bağlanana qədər stolumuzda ləngidik – o vaxta kimi ləzzətli şəkildə sərxoş olmuşduq – sonra isə küçəyə çıxdıq. "Sənin gəldiyin yerdən danışmağını çox sevirəm", – qolunu qoluma keçirib dedi, " bu zaman elə *canlı* olursan ki..."

Demədim ki, o da Krisdən danışanda eyni cür görünürdü; demədim, çünki bu fakt məndə qarışıq emosiyalar oyadırdı. Bir tərəfdən, onun dostu olaraq – canlandığını görmək məni sevindirirdi və bilirdim ki, məni öz etimadına bu cür uyğun görməsi də sevgisinin işarətidir – başqa heç kimlə danışarkən Krisi müzakirə etdiyini eşitməmişdim; digər tərəfdən, onunla dostluqdan daha artıq bir münasibətə başlamağı arzu edirdim və onun Krisə davam etməkdə olan bağlılığında bir rəqibin – ölü olsa da, heç vaxt rəqabət apara bilməyəcəyim birinin olduğunu hiss edirdim. Haqqında danışdığım xala demək olar ki, hər cəhətdən Erikadan fərqlənirdi: kök idi, skuterlə gəzməkdə təkid edir, tez-tez bacısı uşaqları üçün hədiyyələrlə doldurulmuş çanta götürür və bir dulun kiçik pensiyası ilə yaşayırdı ın bu, xalamın qırx beş yaşı

T.me/Cinciva

olandakı vəziyyəti idi; şəkillərdən şövqlə baxan iyirmi iki yaşlı xanım isə özündən əmin və ağrılı dərəcədə cazibədar idi. Özündən uzaqlaşdırmış olduğu aşiqlərinin sayını yalnız təsəvvür edə bilirdim və fikirləşirdim ki, görəsən, mənim Erika sevdam da onlarınkı kimi taleyə məhkum idimi?

İndi Erikanın üzü rahatlaşmışdı; hətta başını çiynimə qoyanda əsnəməyini zorla saxladı. Lakin axşama təzə başlayarkən gərgin, qayğılı və nigaranlıqdan çaşqın idi. Hücumlardan sonra bir çoxları kimi, o da dərin narahatlıq keçirirdi. Lakin onun narahatlığı terrorçuların əlində ölmək perspektivi ilə yalnız dolayısı ilə əlaqəli kimi görünürdü. Dünya Ticarət Mərkəzinin dağılması, özünün də dediyi kimi, gölməçənin dibinə çökmüş çöküntü kimi yığılmış köhnə düşüncələri çalxalamışdı; indi onun fikrinin suları əvvəllər məhəl qoyulmamış şeylərlə bulanmışdı. Bilmirəm mənim halım da buna bənzər idimi?

Sakitcə gecə uzunu gəzişdik və bəxtim onda gətirdi ki – yox, riyakarlıq edirəm: bəxtin bununla bir əlaqəsi yox idi – özümüzü mənim binamın qarşısında gördük. "Yuxarı qalxa bilərəm?" – deyə o soruşdu. – "Harada yaşadığını görmək istəyirəm". Biz pilləkənləri qalxdıqca ürəyimin döyüntüsünü eşidə bilirdim; studio-mənzilim dördüncü mərtəbədə idi, ona görə də qalxmalı olduğumuz çox pillə vardı. Onun bu yer haqqında nə düşünəcəyindən narahat idim – hər şey bir tərəfə, bu onun evinin

T.me/Cinciva

ölçüsünün çox kiçik bir hissəsi kimi idi – amma özümü arxayın edirdim ki, burada bir *bədii* cazibə var. "Möhtəşəmdir", – hələ də yataq olaraq istifadə üçün açılmış vəziyyətdə olan matrasımın bir küncündə oturub dedi.

Gözlərini yumdu, dirsəkləri üstündə geri əyildi və güvənən kiçik bir qız tərzində, yuxulu-yuxulu gülümsədi. Sidik kisəm az qala partlayırdı və ayaqyoluna qaçmazdan əvvəl ona dedim ki, dərhal qayıdacağam. Mən geri qayıdana kimi o, dərin yuxuda idi, "Erika?", – dedim. Cavab yox idi. Bilmədim nə edim və axırda bir qədər tərəddüd edib işıqları söndürdüm. Jalüzlər yuxarı idi; Manhettenin gecə parıltısı otağa yol tapırdı, onun nəfəs aldıqca zərifliklə qalxıb enən sinəsinə baxdım. Sonra üstünü örtüb özüm üçün döşəməyə bir yastıq atdım. Yorulub əldən düşmüşdüm, əlavə olaraq da uzun uçuşun yorğunluğu vardı, amma uzun müddət yuxuya gedə bilmədim. Səhər, sonradan öyrəndiyim kimi, o, getməzdən əvvəl alnımdan öpəndə heç oyanmadım.

Bir tamaşa edin! Gülsatan yaxınlaşır. Onu stolumuza çağıracağam. Bu əhvalda deyilsiniz? Yəqin ki, bircə düzüm yasəmən qönçəsinə etiraz etməzsiniz. Budur, əlinizə götürün: velvet topu kimi deyilmi? Deyirsiniz, daha çox krevet popkorn kimidir? Ah, zarafat edirsiniz; bir anlıq elə bildim, ciddisiniz. Lakin dənizdən bu qədər uzaq olduğu üçün Lahorda heç çatışmayan bir delikatesi yadıma saldınız. Bir qab amerikan krevet popkornu üçün

T.me/Cinciva

nələr verməzdim... – ləziz, qıpqırmızı olana qədər yağda qovurulmuş, bir qutu pomidor sousu ilə verilən! – amma təəssüf ki əvəzində bu çiçəklərlə razılaşmalı olacağam: Nyu-Yorkda çox nadir, burada bu qədər adi.

Harada qalmışdım? Bəli, sizə Erika və Nyu-Yorka qayıtmamdan danışırdım. Gecəni mənzilimdə keçirdikdən sonra Erika məni sevindirəcək qədər tez-tez görüşə dəvət etməyə başladı. Erikanı Dünya Ticarət Mərkəzi qurbanları üçün fondun yaradılmasına, dostlarının şam yeməkləri təşkil olunan evlərinə – Manhettenin mənzil dənizində tək ailə məskəni olan adalar rolunu oynamaq üçün saxlanılan qəhvəyi daşlı adalara bənzəyən *evlərə* – açılışlarda, incəsənət himayədarları üçün təşkil olunmuş özəl nümayişlərdə müşayiət edirdim. Nyu-York cəmiyyətindəki görüşlərdə onun rəsmi müşayiətçisinə çevrildim.

Sözsüz ki, bu rol məni məmnun edirdi. Həyatımın elə bu cür də olacağını, sonunda belə uca məkanlarda, əsl varlılarla çiyin-çiyinə duracağımın necəsə qaçılmaz olacağını düşünəcək qədər lovğa idim. Erika mənim buna layiq olduğuma zamin idi; davranışım – özümü inandırırdım – tərbiyəmin qüsursuzluğunu göstərirdi; daha çox sual verənlər üçün isə Prinseton dərəcəm və "Underwood Samson" biznes kartım hörmət və rəğbət qazanmağıma kifayət idi.

Geri baxanda, vəziyyətdə müəyyən bir simmetriyanın olduğunu görürəm: ailəmin Lahorda uzaqlaşdığı cə-

T.me/Cinciva

miyyətin eynisinə mən Nyu-Yorkda daxil olurdum. Ola bilsin ki, yeni mühitimdə tapdığım rahatlıq və məmnunluq bununla əlaqədar idi. Lakin o günlərdə xoşbəxtliyimin daha böyük bir hissəsi daim Erikanın yanında olmağımdan irəli gəlirdi. Şişirtmədən deyim ki, onu saatlarla müşahidə edə bilərdim. Onun duruşundakı qürur, qollarının və çiyinlərinin kişisayağı qaməti, paltarının Yunanıstanda gördüyüm çılpaq sinənin xatirəsini örtməkdə acizliyi... bütün bunlar məni ehtirasla doldururdu.

Lakin həm də himayədarlıqla dolmuşdum. Coşqun bir kütlənin içərisində olarkən onun tez-tez tamamilə ayrılmış, öz dünyasına qərq olmuş olduğunu müşahidə edirdim. Nəzərləri daxilinə yönəlmiş olurdu və yoldaşlarının fikirləri yalnız dolayısı ilə üzündə əksini tapırdı, gölün üzərindən süzülüb keçən buludların kölgələri kimi. Nəzərinə çatdırılanda ki, kənara çəkilmiş görünür, gülümsəyirdi və deyirdi ki, həmişəki kimi, *ara verir*. Lakin şübhələnməyə başlamışdım ki, onunku, sadəcə, dalğınlıq deyildi, o, həm də içəriyə çəkən cərəyanlarla mübarizədə idi və gülümsəməsi öz dərinliyinə dalmaq, tələyə düşüb nəfəs ala bilməmək qorxusunu göstərirdi. O anlarda lövbəri kimi yardım etməyi arzulayırdım; vulqar görünmədən ona bildirmək istəyirdim ki, kiminsə onun üçün bu rolu oynamasına ehtiyacı var. Gördüm ki, bunu etməyin ən yaxşı yolu yaxınlaşıb ona toxunmaqdır – deyək ki, əlimi toxundurmadan stolun üstündə onun əlinə dəyəcək

T.me/Cinciva

dən yaxın məsafəyə qoymaq – sonra da onun mənim iki yaxınlığımın fərqinə varmasını gözləmək; belə hallarda yuxudan ayılırmış kimi başını silkələyər və aramızdakı boşluğu kiçik nəvazişlə doldurardı.

Məni Erikanı öpməkdən çəkindirən də elə bu hiyləgərlik hissi idi; eyni zamanda, ilk məhəbbətlə yanaşı gələn utancaqlıq və heyranlıq idi. İstənilən halda, East Village-də bir gecə Burma şam yeməyindən sonra dostum taksi çağırıb dağılışdıqca Erikanın məni bir kənara çəkməsinə kimi bir neçə həftə keçdi. "Sənə bir şey demək istəyirəm", – dedi, – "...qeyd etmək istəyirəm". "Niyə?" - soruşdum. "Çünki" – barmaqlarının uclarını birləşdirib gülümsəyərək dedi, – "agent tapmışam!". İlk cəhdləri uğursuz olmuşdu, izah etdi, lakin yaxınlarda əlyazmasını ailə dostunun vasitəçiliyi ilə bir agentliyə göndərmişdi; oradakı kiçik agentlik elə həmin gün günorta onu qəbul etməyə razılaşmışdı, demişdi ki, yeganə narahatlığı ölçüdür – onun sözləri ilə, povest heyvanlar arasında platibus kimi idi – lakin düşündükdən sonra belə qərar gəlmişdi ki, nəşriyyatlara yaxşı bir iş kimi təqdim edə bilər. Erikanı təbrik etdim və dedim ki, axşam üçün seçəcəyi istənilən macərada onu müşayiət etməyə hazıram. O isə təklif etdi ki, bir böyük şüşə şampan şərabı alaq və mənim elə tində olan mənzilimə gedək.

Bunu elə dedi, sanki bu, dünyada ən təbii şey idi. Mən gülümsəyib, – bacardığım qədər – deyib, bu fikri-

T.me/Cinciva

ni eyni yüngüllüklə qəbul etdim. Lakin ikimizə də aydın idi ki, bizim hərəkətlərimizə müəyyən bir *cazibə* qoşulmuşdu və mən cibimdə açarı axtardığım, içki dükanında xırda pul axtardığım və sonra da binamın qarşısında açarı axtardığım zaman özümə xas olmayacaq qədər fərasətsiz davranırdım. Soyuq bir oktyabr günü idi və Erika isti geyinmişdi; içəridə cins və qısaqol köynəkdən ibarət mükəmməl geyiminə çatana kimi qatları tökərək qolsuz jaketini və pambıq köynəyini soyundu. Şamım olmadığından televizoru açdım və səsini kəsdim, bununla da otağı titrək, tutqun işığa qərq etdim. Əmilərimdən birinin mənə məzuniyyət hədiyyəsi olan bəzəkli qədəhlərdən şampan içdik; şampan şərabına metal, amma xoş – və hətta ekzotik bir dad verdi.

"Bu gün taekvondo məşqində çırpılmışam", – Erika dilləndi. – "Döyüşürdük və mən çox zirək bir qadına qarşı idim. Düz qoltuğumdan vurdu. Budur", – deyə o, bədəninə toxundu, – "nəfəs alanda hiss edə bilirəm. Əməlli-başlı göyərib". Mənə baxdı. Əməliyyatımdan qalmış çapığın izi ilə dizimə toxundum. Sonra Erika dedi: "Görmək istəyirsən?". Zarafat edib-etmədiyini təyin etməyə çalışaraq ona baxdım; edənə oxşamırdı. O an səsimə güvənmədiyimdən, başımı tərpətdim. Elə bildim, sadəcə, köynəyini qaldıracaq, əvəzində onu tamamilə əynindən çıxarıb qolunu qaldırdı. Gözümü ona zillədim. Əvvəllər onu bikinidə görmüşdüm – əslində, köynəksiz – amma matrasımda, büstqalterlə oturanda elə bir hiss keçir-

T.me/Cinciva

dim ki, sanki onu heç vaxt çılpaq görməmişdim. Bədəni günəşdən qaralmamışdı, televizorun işığında, demək olar ki, mavi görünürdü və mənim xatırladığımdan da yaxşı formada idi. Sanki başqa dünyadan idi, ya da qrafik roman səhifələrindən çıxmışdı. Özümü diqqətimi onun zədəsinə yönəltməyə məcbur etdim; döş qəfəsinin yuxarısında, büstqalterinin ipi ilə ikiyə bölünüb qara və hirsli görünürdü.

Düşünmədən əlimi uzatdım. Sonra tərəddüd etdim. Diqqətlə baxışlarımı qaytardı, amma üz ifadəsi dəyişmədi, ona görə də barmaqlarımı zədənin üstünə qoyaraq ona toxundum. Qabırğasının xətti boyunca barmağımı gəzdirdikcə əlini başının arxasında saxladı. Tüklərinin biz-biz olduğunu hiss etdim və onu özümə tərəf çəkdim, yüngülcə qucaqladım, əvvəlcə alnını sonra dodaqlarını öpdüm. Cavab vermədi; müqavimət göstərmədi; paltarını soyundurduqca, sadəcə, qəbul etdi. Ara-sıra məndən yapışdığını, ya da çox xəfif təngnəfəsliyini hiss edirdim. Əsasən, sakit və hərəkətsiz idi, amma ehtirasım o qədər güclü idi ki, bunun qürurumda açdığı yaraya göz yumaraq davam etdim. Daxil olmaq çətin idi; onda sanki heç bir ehtiras yox idi. Heç bir söz demirdi, amma narahatlığını hiss edib, özümü dayanmağa məcbur etdim.

"Bağışla", – dedi. "Yox, sən bağışla", – dedim: "Bu sənin xoşuna gəlmir?". "Bilmirəm", – dedi və mənim yanımda ilk dəfə gözləri doldu. "Bacarmıram. Bilmirəm

T.me/Cinciva

mənə nə olub". Onu qollarımın arasında saxladım və orada ikilikdə uzanarkən mənə dedi ki, Krisdən sonra vaxt keçirdiyi ilk kişiyəm – əslində, Krisdən *savayı*. Dedi ki, Krisin ölümündən sonra seksuallığı keyləşib. Yalnız bir dəfə orqazm hiss edib və o da Krisin fantaziyası sayəsində. Bilmirdim nə deyim. Ona təsəlli vermək istəyirdim, zehnində onu müşayiət etmək və tənhalığını azaltmaq istəyirdim. Ona görə də dedim ki, mənə Krisdən danışsın, ilk dəfə necə öpüşdüklərindən, sevişdiklərindən danışsın. "Həqiqətən, bilmək istəyirsən?", – soruşdu. Cavab verdim ki, istəyirəm və o da danışdı.

Hekayələrini bir az, oradan-buradan bilirdim; həmin gecə tam öyrəndim. Nə isə mənə tanış da göründü; sonralar anladım ki, tanış görünən onun danışığındakı emosiya idi, onun məndə oyatdığına bənzər bir *emosiya*. Onun üçün ağrıdığımı və incidiyimi hiss etmədən dinləyə bilmək üçün özümü şəraitdən uzaqlaşdırmağa çalışdım – özünə rəğmən – bədəni məni rədd etmişdi. Buna, haqqında düşünəndə məni indiyə kimi təəccübləndirən dərəcədə, nail ola bildim. Hekayələri fikrimdə açıq-aydın qalıb, amma onu indi nağıl etməyəcəyəm. Onu demək kifayətdir ki, qeyri-adi məhəbbətləri olmuşdu, kimlikləri bir-birinə o qədər qarışmışdı ki, Kris dünyasını dəyişəndə Erika da özünü itirmişdi; dedi ki, hətta onda da əmin deyildi ki, bir daha özünə qayıda biləcəkmi?

T.me/Cinciva

Lakin Kris haqqında danışdıqca Erikanın səsi güclənirdi və mənimlə yanaşı olan çılpaq bədəninin yumşalıb rahatlaşdığını hiss edirdim. Gözləri canlanırdı; daxilinə çəkilmirdi. *Mənim* təcrübəm, Pakistanda yeniyetmələrin seks və münasibətlərinin təbiəti haqqında soruşdu. Ona danışdım ki, Amerikaya gələnə kimi mənim, demək olar ki, seks adında bir işim olmamışdı və münasibətlərim də onun nağıl etdiyinin qarşısında heç nəyə dəymirdi. Lakin onlarda da özünəməxsus bir xoşluq vardı və onu saatlar qədər davam etmiş kimi görünən bir müddətdə Lahor lətifələri ilə əyləndirdim. Bir anlıq ulduzlara baxırmış kimi, tavana baxdığımın fərqinə vardım və ikimiz də güldük. Hiss edirdim ki, nəhayət, eyni yataqda rahatlaşmağa başlayırıq. Bayırda səma işıqlanır və mən əsnəməyimi zorla saxlayırdım. Dedi ki, o da yarıyuxuludur və əlavə etdi ki, onu rahatlaşdırmaq üçün istənilən dərmandan daha yaxşı təsir edirəm. Eləcə də yatdıq, bir-birimizin qollarında deyil, çiyin-çiyinə, əllərimizin buğumları yanımızda bir-birinə söykənmiş. Ola bilsin ki, söhbətimizin təsiri ilə mən yuxuda Erikanı deyil, evimi gördüm; onun yuxuda nə gördüyünü isə bilmədim...

Lakin ser, görürəm ki, mənə nə isə xüsusi bir ifadə ilə baxırsınız. Ola bilsin ki, bu qədər məhrəmi sizə açdığıma görə məni qaba hesab edirsiniz? Yox? Başınızın o işarəsini təkzib kimi anlayacağam. İcazə verin, sizi əmin edim

T.me/Cinciva

ki, mən həmişə belə açıq danışmıram; əslində, demək olar ki, heç etmirəm. Lakin bu gecə, məncə, ikimiz də başa düşdüyümüz kimi, nə isə *mühüm* bir gecədir. Mən belə olduğunu dəqiq dərk edirəm – amma yenə də, səhv edirəmsə, sözsüz ki, məni dəhşətli dərəcədə ədəbsiz hesab etməyə tam haqqınız çatır!

7

İndi düşünməyə başlamışam ki, görəsən, Nyu-Yorkda özüm üçün formalaşdırmağa cəhd etdiyim həyatın bünövrəsinin möhkəmliyinə heç inanırdımmı? Sözsüz ki, inanmaq *istəyirdim*; yəni elə dərin bir istəyim vardı ki, ətrafımda dağılmaqda olan dünya ilə şəxsi Amerika xəyalımın yaxınlaşmaqda olan məhvi arasındakı aydın əlaqəni görməkdən bacardığım qədər özümü saxlayırdım. Göz yummaq gücüm, geri baxdıqda, məni indi də heyrətə salır – xəbərlərdə, küçələrdə, aşiq olduğum qadının vəziyyətində yaxınlaşan fəlakətin əlamətləri açıq-aydın idi. Mənim Erika ilə məşğul olduğum sentyabr və oktyabrın o həftələrində Amerika artmaqda olan təkəbbürlü qəzəbə bürünmüşdü; ölkənizdən gözlədiyim qüdrətli ordu qalxıb göndərilmişdi – lakin mənim evimə - Pakistandakı ailəmə doğru. Onlarla telefonda danışanda anam qorxur, qardaşım hirslənirdi, atam isə mətin idi – "hamısı keçəcək", – deyirdi. Atamın fikirlərində arxayınlıq

T.me/Cinciva

tapırdım və o fikirlər mənim imiş kimi onlara bürünürdüm. "Narahat olursan, a kişi?" - bir gün "Underwood Samson" kafeteriyasında smiti hisə verilmiş qızıl balıqla doldurub, üzərinə kremli pendir çəkərkən Vaynvrayt əlini qayğılı bir tərzdə çiynimə qoyaraq məndən soruşdu. "Yox", - deyə izah etməyə başladım, - "Pakistan Birləşmiş Ştatlara dəstəyini vəd edib, Talibanın qisas hədələri mənasızdır, ailəm təhlükədə deyil".

Pak-Punjab Delidə qulağıma çatan söz-söhbətə bacardığım qədər məhəl qoymurdum: Pakistanlı taksi sürücülərini az qala həyatlarını itirənə kimi döyürdülər; FBI məscidlərə, dükanlara, hətta insanların evlərinə basqın edirdi; müsəlman kişilər yoxa çıxırdılar, bəlkə də, dindirilmək üçün kölgəli həbs mərkəzlərində qeyb olurdular, ya da daha pisi. Düşünürdüm ki, bu hekayələr həqiqət deyil; bir neçəsi açıq-aydın şişirtmə idi; bundan savayı, baş verən açıq-aydın təhqir halları da çətin ki mənə təsir edərdi, çünki belə şeylər istənilən ölkədə olduğu kimi, Amerikada da istər-istəməz baş verirdi, amma ildə səksən min dollar qazanan Prinseton məzunlarının deyil, bədbəxt kasıbların başına gəlirdi.

Beləcə, inkar zirehimə bürünərək – davamlı və diqqətəlayiq bir uğurla – diqqətimi işimə cəmləyə bilirdim. Filippindəki fəaliyyətim üçün əldə etdiyim müstəsna rəydən sonra Cimin sevimlisinə çevrilmişdim. Ko-

T.me/Cinciva

mandalarından birində mənə daha bir iş təklif etdi. İş bu dəfə pis vəziyyətdə olan kabel operatorunun dəyərləndirilməsi idi. Şirkət Nyu-Cersidə idi, hər gün oraya gedib-gəlməyə başladım. Şirkət ümumilikdə texnologiya sektorunu bürüyən investor sentimentinin azalmasından, xüsusən də, kiçik ölçülü provayderlərdən çox ziyan görmüşdü; borclarını çətinliklə ödəyə bilirdi və alınma üçün əsas namizədə çevrilmişdi.

Bu işdə müştərimiz gələcək inkişaf potensialı ilə maraqlanmırdı. Tapşırığımız nə qədər yağ çəkməyin mümkünlüyünü təyin etmək idi. Çağırış mərkəzləri aydın idi, autsorsinqə gedə bilərdi; müştəri xidməti azaldıla bilərdi; alış-veriş müştərimizdə olan əməliyyatlarla birləşdirilə bilərdi. İşçi sayının azaldılması mühüm idi – bu üzdən də işçilər komandamızı çox soyuq qarşıladı. Telefon və fakslarımız sirli şəkildə xarab olurdu; təhlükəsizlik nişanlarımız və qeyd dəftərlərimiz yoxa çıxırdı. Maşın dayanacağına gedəndə görürdüm ki, kirayə maşınımın təkərlərindən biri deşilib – bu, təsadüf ola bilməyəcək dərəcədə tez-tez baş verirdi.

Bu hadisə bir dəfə Cim bizə baş çəkərkən də baş verdi; xahiş etmişdi onu şəhərə geri aparım. Mən ehtiyat təkəri çıxararkən başını yelləyərək, – "Bunun səni həvəsdən salmasına imkan vermə, Çingiz", – dedi, – "zaman yalnız bir istiqamətdə hərəkət edir, bunu yadında saxla. Şeylər həmişə dəyişir". Qol saatının – möhkəm, dalğıc

T.me/Cinciva

xronometrinin metal qayışını boşaltdı və əlinə sürüşdürdü. – "Mən kollecdə oxuyanda", – deyə davam etdi, – "iqtisadiyyat pis vəziyyətdə idi. Yetmişinci illər idi: Staqflyasiya. Lakin adam fürsətin qoxusunu tuta bilirdi. Amerika istehsaldan xidmətə keçid edirdi, nəhəng bir keçid, gördüyümüz hər şeydən daha böyük. Atam şeyləri əli ilə düzəldərək yaşamış və ölmüşdü, ona görə də lap yaxından bilirdim ki, bu dövran artıq keçmişdə qalırdı". O, saatını təkrar bərkitdi. Sonra yumruğunu sıxdı və güclü qolunu asta-asta, saat yerini tutana kimi o tərəf-bu tərəfə çevirdi. Hərəkətlərində, demək olar ki, yarış sahəsinə daxil olmazdan əvvəl əlcəklərini geyinən bir zərbəçi kimi – hətta deyərdim, bir cəngavər kimi – ritualsayağı bir keyfiyyət vardı.

"İqtisadiyyat bir heyvandır", – Cim davam etdi, – "təkamül edir. Əvvəl əzələyə ehtiyacı var idi; sonra ayıra bildiyi bütün qan beyninə axırdı. Bax, mən orada olmaq istəyirdim – maliyyədə; koordinasiya biznesində. *Sən* də bax, elə buradasan. Sən bu növə lazım olmayan, bədənin hansısa tərəfindən gətirilmiş qansan; quyruq sümüyü – mənim kimi. Biz heç olmaqda olan yerlərdən çıxmışıq". Təkəri dəyişməyi bitirmişdim, ona görə də baqajı bağladım və qapıların kilidini açdım. "Adamların çoxu bunu təyin edə bilmir, bala", – yanımda oturub kəmərini bağlayaraq dedi və başı ilə çıxıb gəldiyimiz qaranlıq binanı göstərdi: "Onlar dəyişikliyə müqavimət göstərməyə ça-

T.me/Cinciva

hışırlar. Güc – dəyişikliyin özünə *çevrilməyi bacarmaqdadır*".

Cimin dediklərini götür-qoy etdim – həm həmin axşam Manhettenə maşın sürərkən, həm də ondan sonra gələn həftələr ərzində. Sözlərində müəyyən bir həqiqət var idi, lakin mən çıxdığım yerin atrofiyaya məhkum olması fikrindən narahat idim. Ona görə də onun kiçik nəsihətinin müsbət cəhətlərini düşündüm: insanlıq üçün böyük əhəmiyyət daşıyacaq və buna görə də hər zaman artmaqda olan bir gəlir əldə edəcəyim fəaliyyət növünü seçmişdim. O payız həmin Nyu-Cersi korporativində işimizlə məşğul olduğumuz müddətdə aşıb-coşan nifrəti ağılsızlıq hesab etmək üçün özümü daha hazırlıqlı hiss edirdim.

Lakin tamamilə əndişəsiz olduğumu demək düzgün olmazdı. Kabel şirkətində yaşlı işçilər də var idi. Ara-sıra kafeteriyada onlara yaxın bir yerdə əyləşirdim – lakin heç zaman eyni stol arxasında yox; bizim komandamızın yanındakı stullar həmişə boş qalırdı – və ağlıma gəlirdi ki, onlardan çoxunun mənimlə yaşıd uşaqları var. İngilis dilinin *siz – you* sözü üçün daha hörmətli bir forması olsaydı – bizdə urdu dilində olduğu kimi – onlara müraciət edərkən heç tərəddüd etmədən o sözdən istifadə edərdim. Lakin belə olmadığı üçün, danışarkən onlara olan fərqli münasibətimi və ya simpatiyamı nümayiş etdirmək imkanım az olurdu Bunu ofisimizdə keçirdiyimiz çox-

T.me/Cinciva

saylı gecələrdən birində Vaynvrayta danışdım və o dedi: "Bu *adama* işləyirsən, dostum. Oriyentasiya vaxtı bunu sənə heç kim deməyib?". Sonra yorğunluqla gülümsəyib əlavə etdi: "Lakin mən nə dediyini anlayıram. Sadəcə, yadda saxla ki, işlər sən onlar üzərində işləsən də gedəcək, işləməsən də. Sadəcə, fundamentallıqlara diqqət yönəlt".

Fundamentallıqlara diqqət yönəlt. "Underwood Samson"un istiqamətverici, işdəki ilk günümüzdən bizə təlqin edilmiş prinsipi bu idi. Bu, dəyəri təyin edəcək istəklərin əsl təbiətini üzə çıxaran, diqqəti tək maliyyə detallarına yönəldən bir tapşırıq idi. Mən də həm qabiliyyət, həm də həvəslə tam bunu etməyə davam etdim. Çünki tam dürüst olsam, tezliklə ixtisara düşəcək işçilərə qarşı duyduğum şəfqət o qədər də böyük olmurdu; işimiz adamdan elə çox bağlılıq tələb edirdi ki, bu cür fikir dağınıqlığına cüzi imkan yaranırdı.

Lakin sonra - oktyabrın sonunda mənim soyuqqanlılığımı sarsıdan bir şey baş verdi. Erika ilə yarımçıq sevgi cəhdi yaşadıqdan sonra idi – ola bilsin iki-üç gün sonra, dəqiq yadıma sala bilmirəm. Artıq on dörd gün idi ki, Əfqanıstan bombalanırdı və axşam xəbərlərindən uzaq qalmağa çalışırdım, iyirmi birinci əsr silahları ilə təchiz olunmuş Amerika qırıcıları ilə aşağıdakı, aşağı təchizatlı və zəif qidalanmış əfqan qəbilələri arasındakı uyğunsuzluğun partizan və ya idman hadisəsisayağı təhlilinə bax-

T.me/Cinciva

mamağa üstünlük verirdim. Belə proqramlarla üzləşməli olduğum nadir hallarda – barda və ya deyək ki, kabel şirkətinin girişində – yadıma *"Terminator"* filmi düşürdü. Lakin rolları dəyişmiş, maşınların qəhrəman kimi çəkildiyi versiyası.

Lakin məni əsas sarsıdan hadisə bir dəfə özüm televizoru açanda baş verdi. Gecə yarını keçmiş, Nyu-Cersidən evə qayıtmışdım və kanalları çevirirdim, rahatlaşdırıcı sitkom axtarırdım. Birdən gözüm Amerika qoşunlarının Talibanın komandanlıq mərkəzinə cəsarətli həmləsi kimi təsvir edən xəyalata bənzər gecə görüntülərini yayımlayan xəbərlərə sataşdı. Reaksiyam özümü də təəccübləndirdi; Əfqanıstan Pakistanın qonşusu idi, dostumuz, yoldaş müsəlman ölkəsi idi və sizin həmvətənləriniz tərəfindən işğalın başlanğıcı olaraq qəbul etdiyim görüntü məni qəzəbdən titrətdi. Özümü sakitləşdirmək üçün oturmalı oldum və yadımdadır, yuxuya getməyi bacaranda artıq üç şüşə viski içmişdim.

Növbəti səhər ilk dəfə işə gecikdim. Gec və kəskin baş ağrısı ilə oyanmışdım. Qəzəbim çəkilmişdi və nə qədər hər şeyi təsəvvür etdiyimi iddia etmək istəsəm də, artıq özümü o qədər anlamağa qadir deyildim. Lakin özümə dedim ki, aşırı reaksiya vermişəm, edə biləcəyim bir şey olmayıb və bütün bu dünya hadisələri mənim şəxsi həyatıma heç bir əlaqəsi olmayan səhnədə oynanılır. Ancaq içimdə közərməkdə olan közdən xəbərdar olaraq

T.me/Cinciva

qalırdım və o gün işimin fundamentallıqlarına diqqətimi yönəltməkdə çətinlik çəkdim – adətən, buna o qədər qadir olduğuma rəğmən.

Bir qulaq asın! Boğuq mırıltı eşitdiniz, ser? Sanki məhbus edilmiş cavan şirdir. Bu, yeməksiz qalmış mədəmin üsyanıdır. Deyirsiniz, yaxşı olar ki, gözləyib hotelə geri qayıdanda yemək yeyəsiniz? Ancaq təkid edirəm! Lahor mətbəxinə belə orijinal təqdimatı rədd etməməlisiniz; bu bazarın layiqincə məşhur olduğu yeməklərinə görə bu, əsl ətyeyən bayramıdır insanın xolesterol haqqında biliyinin onu qənimətindən qorxmağa məcbur etdiyi vaxtdan əvvəlki eranı xatırladan – buna görə də çox ləzzətli ziyafət olacaq.

Ola bilsin ki, hal-hazırda dünyanın altıncı ən sıx məskunlaşmış ölkə statusumuza müvafiq sərvətimiz, gücümüz və hətta idman şöhrətimizin çatmaması – temperamentli komandamızın ara-sıra məharətinə rəğmən – səbəbindən biz pakistanlılar yeməyimizlə həddindən artıq qürur duymağa meyilliyik. Bu qüruru burada – qədim Anarkalidə təklif olunan yeməkdəki sadəlikdə görmək olur; bu dəyərli restoranlardan hansısa menyusuna qərb yeməyi daxil etməyi heç düşünməz də. Yox, əvəzində, biz qoyun kababı, toyuq tikələri, keçi ətindən şorba, ədviyyatlı qoyun beyni ilə əhatə olunmuşuq! Bunlar, ser, *yırtıcı* delikatesləridir - dəbdəbə işarəsi ilə, düşüncəsiz coşqu ilə aşılanmış delikateslər. Şərqə doğru sərhəddən sonra

T.me/Cinciva

rast gəlinən vegeterian reseptləri də bizə görə deyil, sizin vətəniniz üçün adi olan təmizlənmiş, steril, emal olunmuş ət də! Biz burada söhbət istəklərimizin nəticələri ilə üzləşməkdən gedəndə vasvasılıq etmirik.

Çünki biz həmişə borcla yüklənmiş, yadelli yardımından və sədəqəsindən asılı olmamışıq; nağıllarımızda özümüzə danışırıq ki, sizin televiziya kanallarınızda gördüyünüz kimi dəli və radikal olmamışıq, daha çox sufi, şair və – bəli – fateh krallar olmuşuq. Bu şəhərdəki Kral məscidini və Şalimar bağlarını *biz* tikmişik, qüdrətli divarları və döyüş fillərimiz üçün geniş enişi olan Lahor qalasını *biz* tikmişik. Biz bütün bunları sizin ölkəniz hələ də qitənin bir kənarını gəmirən on üç kiçik koloniyadan ibarət olanda etmişik.

Lakin səsimi yenə yüksəldirəm və bundan savayı, sizi daha da narahat edirəm. Üzr istəyirəm: kobudluq etmək niyyətində deyildim. İstənilən halda, yaxşı olar ki, əvəzində sizə Amerika qoşunlarının Əfqanıstana daxil olduğunu gördükdə hiss etdiyim qəzəb haqqında Erikaya nə üçün danışmadığımı izah edim. Agent tapmasını qeyd etdiyimiz həmin o gecədən sonra bir neçə gün Erika ilə heç bir əlaqəm olmadı; zəng edəndə telefona cavab vermirdi, mesajlarımı cavabsız qoyurdu. Bu davranış məni incidirdi – sakitliyini düşüncəsizlik kimi qəbul edirdim – və nəhayət, bir gün məni içkiyə dəvət etdikdə məzəm-

T.me/Cinciva

mət dolu bir əhvalda getdim. Görəcəyim mənzərə üçün tamamilə hazırlıqsız idim.

Piştaxta qarşısında tanıdığım canlı, özgüvən dolu qadın yox, kiçilmiş bir Erika – tamamilə yad görünən, solğun, əsəbi bir varlıq dayanmışdı. Çəki itirmiş kimi görünürdü və gözləri bar boyu dolaşırdı. Yalnız gülümsədikdə içərisindən əvvəlki Erika işardı, amma gülüşü elə gəldiyimi görən kimi anidən də üzündən silindi. Çaşqınlığım aydın idi, çünki təkrar gülümsədi və dedi: "Yəni o qədər pis görünürəm?". "Heç də yox", – deyə yalan danışdım. – "Bəlkə, bir az yorğunsan.? Özünü pis hiss edirsən?". "Hə", – dedi, – "bağışla ki, sənlə daha tez əlaqə saxlaya bilmədim". "Problem yoxdur", – dedim, – "ümid edirəm, bezdirməmişəm". "Heç vaxt", – davam etdi. – "Pis bir dönəm keçirirdim. Əvvəllər də olub. Lakin heç vaxt ilk dəfə Kris öləndə olduğu kimi olmamışdı".

Sifariş verdik, mənə pivə, ona bir şüşə su. Onu qucaqlamaq istədim, amma fikrimdən daşındım; toxunulmayacaq qədər kövrək görünürdü. "Baş verən odur ki", – davam etdi, – "beynim dairəvi hərəkətə başlayır, düşünür, düşünür və yata bilmirəm. Bir neçə gün yuxusuz olanda da adam xəstələnir. Yemək yeyə bilmir. Ağlamağa başlayır. Vəziyyət elə öz-özünü qidalandırır. Həkim nə isə daha güclü bir şey verib və yenə yatmağa başlamışam. Lakin bu, əsl yuxu deyil. Günün qalan hissəsinin təsirindən çıxmış kimi hiss edirəm – təyyarədən düşüb

T.me/Cinciva

eşidə bilməyəndə olduğu kimi. Elə onun kimi, amma tək eşitməni itirmirəm və qulaqlarımı da "part" deyib açа bilmirəm". Suyundan bir qurtum içib birtəhər mənə göz vurdu. Sonra dedi: "Qəribədir, eləmi?".

Orada eləcə, sakit dayanmışdım. Nə bir söz deyə, nə də heç olmasa gülümsəyə bilirdim; dəhşətə gəlmişdim. Lakin məndən bir cavab gözləyirdi, ona görə də dedim: "Bəs səni bu qədər dilxor edən o düşündüyün şey nədir?". "Kris haqqında çox düşünürəm", – dedi. - "Özüm haqqında da, kitabım haqqında da. Bəzən lap qaranlıq fikirlərim də olur. Səni də düşünürəm". "Məni düşünəndə, ağlına nə gəlir?" – deyə soruşdum. "Məncə, bu günlərdə məni tez-tez görmək sənə yaxşı təsir etməyəcək", – cavab verdi. – "Demək istəyirəm ki, sənin üçün yaxşı deyil". "Yox", – qorxduğuma baxmayaraq onu əmin etdim, – "səni görmək istəyirəm". "Elə bunu nəzərdə tuturam", – böyük ciddiyyətlə gözlərimə baxaraq dedi. – "Anlayırsan? Elə bunu nəzərdə tuturam".

Heç bir damcı da anlamadım və xahiş etdim ki, mənimlə evə gedək. "Getməsəm, yaxşıdır", – dedi, "həqiqətən". Lakin üz ifadəsində yumşaqlıq vardı və təkid etməyə davam etdikdə, razılaşdı. Taksidə gedərkən beynim nə baş verdiyini dərk etmək mübarizəsində idi. Bütün keçən həftələr – sentimental və köhnə dəbli səslənə bilər, amma mən uzunmüddətli münasibətlərin norma sayıldığı bir ailədə böyümüşdüm – Erikanın əri

T.me/Cinciva

olduğum xəyallara dalaraq keçirmişdim; indi isə nəinki xəyallarım, hətta qadının özü belə gözlərimin qarşısında yox olmaqda idi. Ona kömək etmək, ondan yapışmaq – əslində, *bizdən* yapışmaq – istəyirdim və çarəsizliklə onu psixozunun labirintindən çəkib çıxarmağa çalışırdım. Lakin necə davam etməli olduğumu bilmirdim.

Yatağımda xahiş etdi ki, qollarımı ona sarım və etdim, sakit-sakit qulağına pıçıldadım. Bilirdim ki, Pakistan haqqında hekayələrimi xoşlayır, ona görə də ailəm və Lahor haqqında elə hey danışdım. Onu öpməyə çalışanda dodaqlarını tərpətmədi, gözlərini yummadı. Ona görə də gözlərini yumdum və soruşdum: "Kris üçün darıxırsan?". Başını tərpətdi və kirpikləri arasından göz yaşlarının axdığını gördüm. "Onda elə təsəvvür et", – dedim, – "elə təsəvvür et ki, mən oyam". Bilmirəm bunu niyə dedim; məğlub olduğumu hiss edirdim və bu, irəliyə yeganə yol kimi görünürdü. "Nə?", – dedi, amma gözlərini açmadı. "Elə təsəvvür et ki, mən oyam", – təkrar etdim. Beləcə, sakitcə və qaranlıqda elə də təsəvvür etdik.

Sonra baş verənləri necə təsvir edəcəyimi bilmirəm; əlbəttə, iddia edə bilmərəm ki, mən *cinli* idim, amma eyni zamanda da, sanki özümdə deyildim. Sanki tilsimə düşmüşdük, mənim Kris olduğum, onun Krislə olduğu bir dünyaya nəql olunmuşduq və Erika ilə mənim heç zaman ləzzət almadığımız bir məhrəmliklə sevişirdik.

T.me/Cinciva

Bədəni daha məni rədd etmirdi; mən onun qapalı gözlərinə, onun qapalı gözləri isə *Krisə* baxırdı.

Geri əyilib sinəsini qarşımda açdıqca sanki cansız olan bədənin hamarlığını və sərinliyini hələ də xatırlayıram. Ayaqları arasındakı giriş yaş idi və genişlənmişdi, amma eyni zamanda, qəribə şəkildə sərt idi; mənə – istəmədən – yaranı xatırladırdı, nəzakətlə davranmağa çalışmağıma rəğmən, hərəkətimizə zorakı çalar qatırdı. Bir neçə dəfə sanki qan qoxusu duydum, lakin "aybaşı vaxtıdırmı" fikirləşib yoxlayanda əlimdə ləkə görmədim. Sona yaxın titrədi – acınacaqlı, demək olar ki, ölümcül bir şəkildə; titrəyişi mənə də sirayət etdi.

"Mehriban adamsan", – sonra biz orada uzanarkən dedi. – "Deyilişi axmaq bir şey kimi səslənir, amma bu, həqiqətdir". Onu qucaqladım və cavab vermədim. Əvvəllər və o vaxtdan bəri bir daha hiss etmədiyim nə isə hiss etdim; yaxşı xatırlayıram; eyni zamanda həm özümü *tox* hiss etdim, həm də *utandım*. Toxluğum mənə aydın idi, utanmağım isə daha çaşdırıcı idi. Bəlkə də, başqa birinin cildinə girməklə özüm öz gözümdə kiçilmişdim; bəlkə də, bir hissəsinə çevrildiyim bu qəribə romantik üçlükdə ölü rəqibimin davam etməkdə olan dominantlığı məni alçaltmışdı; bəlkə də, eqoist davrandığımdan narahat idim və hətta hiss edirdim ki, Erikaya dəhşətli bir zədə vurmuşam. Lakin bu son izah – ümid edirəm – ağlabatan deyil; sözsüz ki, növbəti həftələr və aylar ərzində onun başına nələrin gələcəyindən xəbərdar ola bilməzdim.

T.me/Cinciva

Həmin gecə Erika dərman qəbul etmədən yuxuya getdi; mən oyaq qaldım, çünki yemək yeməmişdim. Onu narahat etməkdən qorxduğum üçün qalxıb soyuducuya tərəf getməyə tərəddüd edirdim, amma dərin yatmışdı, lap uşaq kimi və axırda qalxa bildim. Yalnız çörək yeyib, su içdim: dadsız bir yemək, amma doyana kimi yedim və yatağa qayıdanda elə bil, mənə qabaqdan yanım üstdə uzanmağa məcbur edən tarım bir qaval bağlanmışdı.

Ətrafımızdakı zülmət və sizin ifadəsiz üzünüz səbəbindən, ser, dəqiq demək çətindir, amma mənə elə gəlir ki, mənə müəyyən dərəcədə nifrətlə baxırsınız; sözsüz ki, sizə indicə danışdıqlarımı *siz* mənə danışmış olsaydınız, mən də sizə eyni cür baxardım. Lakin ümid edirəm ki, ikrahınız iştahanızı öldürməyib, çünki ofisiantımızı çağırıram ki, sifarişimizi götürsün. Bu gecə, sizi əmin edirəm, yeməyimiz heç dadsız olmayacaq – budur, gəlir. Nə yaxşı oğlandır!

8

Ser, görürəm ki, ofisiantımızla bağlı narahatlığınız niyəsə davam edir. Qəbul edirəm ki, vahiməli bir tipdir, hətta sizdən də böyükdür. Lakin yıpranmış üzünün sərtliyini asanlıqla izah etmək olar: Şimali-Qərbdən gəlib, orada həyat heç asan deyil. Sizi xoşlamadığını hiss etmisinizsə, xahiş edirəm, əhəmiyyət verməyin; onun

T.me/Cinciva

qəbiləsi bizim Əfqanıstanla sərhədimizin hər iki tərəfinə yayılıb və sizin həmvətənlərinizin işğalçı davranışından ziyan çəkib.

Soruşursunuz, dua edirmi? Yox, cənab, heç də! Qiraəti – ritmik, şablon, əzbərdəndir, ona görə də qəbul edirəm ki, duadan çox fərqlənmir – əslində isə menyumuzu şifahi şəkildə çatdırmağa cəhd edir, sizin ölkənizdə adama xüsusi yeməkləri sadaladıqları kimi; bu gün qonağı olduğumuz bu mükəmməl müəssisə yəqin ki, uzun illərdir elə eyni yeməyi hazırlayır. Sizin üçün tərcümə edə bilərdim, amma ola bilsin ki, ikimiz üçün də müəyyən delikatesləri mən seçsəm, daha yaxşı olar. Mənə bu lütfü bəxş edərsinizmi? Təşəkkür edirəm. Budur, etdik və artıq uzaqlaşır.

Erika ilə nəhayət ki, sevişə bildiyim o gecədəki narahatlığımdan danışırdım – münasibətimiz normal bir münasibət olsaydı, böyük həzz verəcək bir gecədən. Dan yeri sökülmədən çıxıb getdi, diksinərək yuxudan ayıldı və təkidlərimə baxmayaraq evə qayıtmaqda israr etdi. Yenə ondan təkrar bir xəbər alana kimi uzun müddət vaxt keçəcəkdi; zənglərim cavabsız qaldı, mesajlarıma əhəmiyyət verilmədi. Dərsimi almışdım və əlaqə saxlamağa çalışmaqdan əl çəkdim. Lakin on dörd gün keçdikdən sonra təkrar cəhd etdim və cavab mükafatımı aldım. Bu cür yox olduğuna görə üzr istədi, əvvəl etdiyi kimi: dedi ki, onun fikrincə, tez-tez görüşməyimiz nə ona, nə

T.me/Cinciva

də mənə xeyır verməyəcək; görüşmək xahişimə də razılıq verdi. "Bizə gəl", – dedi, – "çölə çıxacaq halda deyiləm".

Erikanın mənzilinin qapısında anası məni qarşılayıb giriş salonuna apardı – orada bütün antik bər-bəzəyin içərisində bonsay ağacı və klavesin də var idi. O dedi: "Məncə, bir az söhbət etsək, yaxşı olar. Erika sənə öz keçmişindən danışıb, eləmi?". Başımı tərpətdim. "Yaxşı", – deyə davam etdi. - "O vəziyyəti yenə qayıdıb. Ciddidir. Hal-hazırda ona lazım olan şey stabillikdir. Emosional sarsıntı olmaz, məni başa düşürsənmi? Görürəm ki, yaxşı, gənc adamsan. Bilirəm də ki, Erika sənin lə maraqlanır. Lakin anlamalısan ki, o bu dəqiqə xəstə bir qızdır. İndi ona sevgili lazım deyil. Dost lazımdır". Yalvarış dolu nəzərlərlə mənə baxdı. "Başa düşürəm, xanım", – dedim. – "Onun üçün nəyin ən yaxşı olduğunu düşünürsünüzsə, elə də edəcəyəm". "Təşəkkür edirəm", - dedi, sonra gülümsəyib əlavə etdi, – "səni niyə xoşladığını anlamaq asandır".

Bu söhbətin mənə böyük təsiri oldu, deyilənlər üzündən yox – baxmayaraq ki, Erikanın vəziyyətinin belə ciddi xarakteri məni təşvişə salmışdı – *necə* deyilməsi üzündən; Erikanın anasının səsi sakit çarəsizliyi ifadə edirdi və bu məni qorxutdu. Tərəddüdlə Erikanın otağına daxil oldum, bu zaman görəcəyim qarşısında möhkəmlənməyə çalışırdım. Gördüyüm əvvəlcə təşviş oyatmadı; Erika yatağında uzanmışdı, solğun idi, bəli,

T.me/Cinciva

sanki qızdırmalı idi, saçları da çoxdan yuyulmamış kimi görünürdü, amma yaxşı əhvalda idi. Əli ilə yanında mənə yer göstərdi və oturarkən alnından öpməyim üçün başını uzatdı.

Bir müddət heç nə baş verməyibmiş və ən adi şəraitdə görüşürmüşük kimi söhbət etdik. Ona Nyu-Cersidəki layihəmdən – kabel şirkəti işçilərinin bizim orada olmağımıza mənfi münasibətindən, Cimin məsləhətlərindən və məni son dəfə gördüyü vaxtdan bəri həyatımda baş verənlərdən danışdım. O da həkimi və dərmanlarından, dərmanların diqqətini necə pozduğundan və buna görə də günlərinin heç nə baş vermirmiş kimi ötüb-keçməsindən danışdı. Bütün bunları elə rahat tərzdə təsvir edirdi ki, adi müşahidəçi vəziyyətinin ciddi olmadığını və sağalmaq üzrə olduğunu fikirləşərdi – mən romanı haqqında soruşana qədər.

Soruşar-soruşmaz peşman oldum. Əminliyini itirdi və gözləri narahat-narahat otaqda dolaşmağa başladı. "Üzərində işləyə bilmirəm", – dedi. – "Hər dəfə çalışanda çaşıb qalıram. Agentimdən gələn zənglərə də cavab vermirəm. Yazıq. Yəqin fikirləşir ki, lunatikəm". Dedim ki, yazıçılar, adətən, eksentrik olaraq tanınır və ona görə də çətin ki, agenti tələş keçirsin. Sonra da mövzunu dəyişməyə çalışdım, amma imkan vermədi. "Daha kömək etmir", – dedi. – "Hər dəfə içimdə bir şeyin ilişib qaldığını hiss edəndə yazmağa qayıdardım. Ancaq indi bacar-

T.me/Cinciva

nıram, çıxara bılmırəm. Əksinə, məni içəriyə çəkir, bilirsənmi? Yazmaq əvəzinə, bununla yaşamağa başlayıram". Bunun nə olduğunu soruşmaqdan özümü saxlamağa çalışdım – bilmirəm cavabın onu, yoxsa məni üzəcəyindən qorxdum – amma bacarmadım. "Görəsən, nə isə qalıbmı...", – qəflətən və sarsıdıcı dərəcədə sakit-sakit izah etdi, – "yoxsa hər şey tükənibmi?.."

Sözlərinin məni nə qədər narahat etdiyini sizə necə izah edə bilərəm, ser? Kənara baxdı və necə içinə çəkildiyini görə bildim. Əlimi əli ilə yanaşı qoydum, keçmişdə dəfələrlə olduğu kimi, indi də onu düşüncələrindən ayırmağa müvəffəq olacağıma ümid etdim. Bir nişan üzüyü enindən böyük olmayan məsafədə ayrılmış dərilərimizə baxdım – mənimki sağlam və qəhvəyi, onunku xəstəhal, bəyaz. Ancaq o mənim fərqimə varmadı. Yaxınlığımı hiss etməsini gözlədim; bir dəqiqə beləcə keçdi. Sonra o, əlini olduğu yerdən çəkdi – heç mən tərəfə də baxmadı – qucağına aparıb o biri əli ilə üstünü örtdü.

Bundan az sonra Erikanın anası içəri girəndə onun söhbətimizi böldüyünü düşünmədim. Yox, qızı ilə mənim aramda gedən hansısa müzakirəyə mane olmadı, o, sadəcə, mənim Erikanın Krislə etdiyi söhbətə müdaxiləmə son qoydu – mənim heç cür çata və hətta aydın görə bilmədiyim bir müstəvidə gedən söhbətə. Otaqdan çıxarkən Erika sağollaşmaq üçün mənə əl etdi, amma bunu edərkən gözlərini yayındırdı, ona görə də baxışla-

T.me/Cinciva

rını görə bilmədim. Anası gəldiyim üçün təşəkkür etdi və xahiş etdi ki, təkrar gəlməzdən əvvəl Erikanın mənimlə əlaqə saxlamasını gözləyim. Bununla və yanağıma qonan nəzakətli bir öpüşlə liftin qapıları üzümə bağlandı, mən tək-tənha aşağı doğru yol aldım.

Mənzilimə qayıdıb o gecəni pəncərələrimdən süzülən şəhər işıqları içərisində, yarıqaranlıqda keçirdim və sonrakı neçə aylar ərzində də edəcəyim kimi dərin-dərin düşündüm – düzü, elə indi də bunu düşünürəm: "Görəsən, Erika hara gedirdi? Onun batmasını nəyin tətiklədiyini heç vaxt anlamadım – şəhərinə edilmiş hücum?.. Çap etdirmək üçün kitabını göndərməsi?.. Bizim sevişməmizin onda oyatdığı əks-səda?.. Bütün bunlar hamısı?.. Bunlardan heç biri?.." – Lakin məncə, mən elə onda da bilirdim ki, Erika qayıdıb-qayıtmamağa yalnız özünün qərar verə biləcəyi bir güclü *nostalgiyaya* qapılmaqdadır.

Aydın idi ki, Erikanın mənim – hətta özüm olmayan bir kişinin rolunu oynamağa razılaşaraq belə – verməyə qadir olmayacağım bir şeyə ehtiyacı var idi. Çox güman ki, xərçəngin onu fanilik və ölümdən agah etməsinə kimi olan dövrün - Krislə keçən yeniyetməliyinin həsrətini çəkirdi. Ola bilsin ki, onların birgə keçirdiyi vaxtın reallığı Erikanın mənə dəfələrlə təsvir etdiyi qədər möhtəşəm idi. Ola bilsin ki, onlarınkı, xəyali olacaq qədər güclü bir keçmiş idi. Onların məhəbbətinin həqiqiliyinə inanıb-i-

T.me/Cinciva

nanmadığımı bilmirdim; lakin o, məni bir dönük olaraq qəbul etməyən bir din idi. Ancaq bilirdim ki, *Erika* onun həqiqiliyinə inanır və ona müqayisəyə gələcək heç bir cah-calal təklif etmək iqtidarında olmamağım məni öz gözümdə alçaldırdı.

O il Erikanı təkrar görmədim. Şükranlıq tezliklə dekabrın soyuğu ilə əvəzləndi, hər həftə - hər gün ona zəng etmək haqqında düşündüm və özümü saxladım. Anası xahiş etmişdi ki, gözləyim, amma həm də bizim katastrofik münasibətimizin ovaxtaqədərki inkişafına əsaslanaraq şübhələnirdim ki, daxili çəkişməsinə zorla müdaxiləm onu yalnız incidəcək. Lakin boynuma almalıyam ki, motivlərim tamamilə nəcib deyildi; içimdə, az da olsa, rədd edilmiş sevgiliyə xas qəzəb, incidilmiş qürur elementləri vardı və bu alçaq hisslər də məsafə saxlamağıma kömək edirdi. Yenə də Erikanın sağlamlığı üçün nigaran idim – həmçinin müəyyən qədər irrasional *ümidim* də qalmışdı – ona görə də əlaqədən çəkinmək mübarizəm aludəçilikdən qurtulmağa çalışan adamınkından çox fərqlənmirdi.

Ola bilsin ki, zehni vəziyyətimlə əlaqədar idi, amma mənə elə gəlirdi ki, Amerika da həmin vaxtlarda dəhşətli bir nostalgiyaya qapılmaqda idi. Müharibə otaqlarında bayraqlar və uniformalarda kameralara müraciət edən generallarda, *borc* və *şərəf* kimi sözləri əks etdirən qəzet başlıqlarında nə isə rədd edilməsi mümkünsüz olan bir

T.me/Cinciva

retro xüsusiyyəti var idi. Hər zaman amerikalıların yalnız irəliyə baxan bir xalq olduğunu düşünmüşdüm; ilk dəfə idi ki, onun *geriyə* baxmaqda bu qədər qətiyyətli olduğuna təəccüblənirdim. Nyu-Yorkda yaşamaq qəflətən İkinci Dünya müharibəsini təsvir edən bədii filmdə olmaq kimi idi; mən bir yadelli olaraq, sanki *Technocolor* deyil, ağ-qara olmalı olan bir setə tamaşa edirdim. Sizin həmvətənlərinizin nəyin həsrətini çəkdiyi mənə aydın deyildi. Sorğu-sualsız dominantlıq dövrünün? Təhlükəsizliyin? Mənəvi əminliyin? Anlamırdım... amma başqa bir dövrün paltarını geyinməyə çalışdıqları aydın idi. Həmin dövrün uydurma olub-olmadığını həqiqətən canlandırmaq mümkün olsaydı, orada mənim kimi biri üçün də rol yazılıb-yazılmadığını düşündüyüm üçün özümü bir xain kimi hiss edərdim.

Bəs bu nədir? Ah, qəribə telefonunuz, heç etirazım yoxdur; cavabınızı yazın, xahiş edirəm. Mənə elə gəlir ki, sizinlə qədim kilsə zəng qülləsi dəqiqliyi ilə əlaqə qurulur, yəni dəqiq olaraq hər saatdan bir – bəlkə, şirkət sizi yoxlayır? Yox, fikir bildirmənizə gərək yoxdur. Lakin bir halda ki, cavabınız göndərilib, icazə verin diqqətinizi bizim toyuq tikələrimizin qızarmaq üçün düzüldüyü o manqala yönəldim. Aşpazımız alovu yelpiklədikcə kömürdən çıxan qığılcıma baxın, hirsli və qırmızı. Qəbul etməlisiniz ki, gözəl mənzərədir və indi – *budur*, qoxunu duyursunuzmu? – Ən ağızsulandırıcı qoxular gələcək.

T.me/Cinciva

Sizə ölkənizdə keçirdiyim son qış aylarında mənəvi dünyamda üstünlük daşımağa başlayan nostalgiya haqqında danışırdım. Lakin diqqətəlayiq bir istinadgah bu hissə qarşı dayanmışdı: mənim oyaq saatlarımın çoxunu məşğul edən – bir müəssisə olaraq – və qətiyyən nostalji olmayan "Underwood Samson". İşdə biz keçmişə az nəzər salaraq gələcəyi formalaşdırmaqda davam edirdik və kabel şirkətindəki layihəmə daldıqca, şəxsi effektivliyim artmaqda idi; bütün diqqətimi işə yönəldərək fikirləşmək üçün boş vaxt yarananda məni məşğul edən çoxsaylı narahatlıqdan yaxa qurtarmağa cəhd edirdim.

Məncə, fundamentallıqlarla heç zaman o vaxtdakı kimi məşğul olmamışdım, elə təhlil edirdim, sanki həyatım bundan asılı idi. İnancımız maksimum gəliri hər şeydən üstün tutan bir inanc idi, bu mənim üçün ikiqat daha güvənli görünürdü, çünki ölçülən – beləliklə də *bilinən* – idi. Bu, böyük bir qeyri-müəyyənlik dönəmində və digərləri hansısa gəlib-keçmiş, əgər ümumiyyətlə heç mövcud olmuşdusa, *klassik* dövrün həsrətində olduğu bir vaxtda, inkişaf imkanlarının mümkünlüyünə inancı tamamilə saxlayırdı. İş yoldaşlarıma qarşı davranışımda müəyyən dəyişikliklər sezirdim, onların diqqətini iş həyatına cəmləməyə nəyin sövq etdiyini daha yaxşı anlayırdım, yəqin elə buna görə də müəyyən vaxt ərzində ofisdəki şöhrətim yüksəlməkdə davam etdi.

T.me/Cinciva

Lakin hətta "Underwood Samson"da belə artmaqda olan *qəbilə* hissindən tamamilə qaça bilmirdim. Bir dəfə kabel şirkətinin dayanacağında kirayə maşınıma tərəf gedərkən tanımadığım bir kişi mənə yaxınlaşdı. Bir qədər anlaşılmaz səs çıxardı – bəlkə, *"akhala-malakhala"* ya da *"khalapal-khalapala"* – və üzünü təşviş oyadacaq qədər mənimkinə yaxınlaşdırdı. Duruşumu dəyişib yanpörtü dayandım və əlimi çiyin hündürlüyündə qaldırdım; elə bildim dəli, ya da sərxoşdur; oğru olduğunu da düşündüm, ona görə də özümü müdafiə etməyə, ya da vurmağa hazırlaşdım. Elə həmin an başqa bir kişi peyda oldu; o da mənə qəzəblə baxdı, sonra dostunu qolundan tutub çəkdi və dedi ki, buna dəyməz. Birincisi könülsüz olaraq uzaqlaşdırılmasına imkan verdi. "Rəzil ərəb", – dedi.

Mən ərəb deyiləm. Yerli-yersiz savaşan da deyiləm. Lakin qanım gicgahımda zoqquldadı və qışqırdım: "Üzümə de, qorxaq, qaçıb gizlənərək demə". Olduğu yerdə dayandı. Baqajı açıb dəmir şini götürdüm; soyuq metalın hərisliyini əlimdə hiss etdim və həmin an özümü ondan adamın kəllə sümüyün sındıracaq zorakılıqla istifadə etməyə qadir hiss etdim. Bir neçə ölüm saçan saniyə tərpənmədən dayandıq; sonra düşmənimi yenə də qolundan tutub çəkdilər və o da ədəbsiz ifadələr işlədərək uzaqlaşdı. Maşınıma oturanda əllərim titrəyirdi; oynadığım müxtəlif komandaların formalarında çox dalaşmışam – amma bu üzləşmə görünməmiş gərginlikdə

T.me/Cinciva

idi və özümü maşın sürməyə uyğun hiss edənə kimi xeyli vaxt keçdi.

Soruşursunuz ki, necə görünürdü? Yaxşı, ser, o... Necə də qəribədir! Kişinin xüsusiyyətlərini, yaşını, görünüşünü indi yadıma sala bilmirəm; düzünü desəm, sizə danışdığım bu hadisələrin bir çox detallarını artıq xatırlamıram. Lakin önəmli olan əsas *məğzidir*; hər şey bir tərəfə, sizə tarixi danışıram və siz razılaşarsınız ki, əhəmiyyətli olan təhkiyənin gücüdür, nəinki adamın detallarının dəqiqliyi. Yenə də sizi əmin edə bilərəm ki, danışdığım həmin axşamkı hadisələr bütün niyyəti və məqsədi ilə elə mənim təsvir etdiyim kimi baş vermişdi.

İstənilən halda, gəlin diqqətimizi yayındırmayaq. Dayanacaqdakı hadisədən bir neçə gün sonra – kabel şirkətindəki layihəmizin sonuna yaxın – yenə Cimlə birlikdə Manhettenə maşın sürürdüm. Gec idi və ikimiz də acmışdıq; onu düşürərkən təklif etdi ki, ikimiz üçün tuna qızarda bilər. Mənzili adamın gözlədiyi kimi konservativ, uniformalı qapıçısı olan Upper East Side mənzili deyildi; əvəzində bu bir, TriBeCa, Duane küçəsində, adi bir binanın son mərtəbəsində yerləşən dörd min kvadrat metrlik çardaq idi. İlk dəfə daxil olanda *dəbli* xüsusiyyəti məni heyrətə saldı, dizayna böyük önəm verildiyi aydın idi. Demirəm ki, qarmaqarışıq və ya qadınsayağı idi; yox, boruları görünən bir şəkildə tavana bərkidilmiş, sement döşəməli, minimalist bir yer idi. Lakin hər bir mebel

T.me/Cinciva

mükəmməl bir şəkildə seçilmiş – işıqlandırılmış və yerləşdirilmiş – kimi görünürdü, divarlardan isə arasında diqqəti cəlb edəcək sayda çılpaq kişi rəsmlərinin də olduğu, təsirli və güclü incəsənət işləri asılmışdı.

Cim qollarını çırmaladı və balığı qızarda-qızarda nə fikirləşdiyimi soruşdu. Stulda oturdum, aramızda yemək stolu rolunu oynayan mətbəx barı var idi. "Əslində, heç nə", – dedim: "Ailən evdə deyil?" Mənə tərəf döndü, açıq-aşkar nəşəli idi: "Evli deyiləm". "Ah", – dedim: "Uşağın da yoxdur?" "Yoxdur", – təsdiqlədi və davam etdi: "Sualımdan qaçırsan". "Nəyi nəzərdə tutursan?", – soruşdum. "Son vaxtlar özündə deyilsən", – dedi: – "Fikirlisən. Nə isə səni içəridən yeyir. Məncə, bu sənin pakistanlı tərəfindir. Dünyada baş verənlərdən narahatsan". "Yox, yox", – sədaqətimi böləcək hər hansı ehtimalı rədd etmək üçün başımı silkələdim: "Evdə işlər bir az qarışıb, amma düzələcək". İnanmırmış kimi göründü: "Ailən yaxşıdır?" "Bəli", – dedim: "Təşəkkür edirəm". "Yaxşı", - dedi: - "Lakin sənə əvvəllər də dediyim kimi, autsayder olmağın nə demək olduğunu bilirəm. Nə vaxt danışmağa ehtiyacın olsa, məni səslə".

Cimin evindən izi azdırdığıma ümid edərək çıxdım. Lakin yenə də mənim açıq-aydın şəffaflığım təşviş doğurdu; Cim xüsusilə perspektivli müşahidəçi idi, amma mənim daxili münaqişəm ona bəlli idisə, bəlkə, başqalarına da bəlli idi. Müsəlmanların biznes dünyasında üz-

T.me/Cinciva

ləşməkdə olduğu diskriminasiya haqqında söz-söhbət eşitmişdim – rədd edilmiş iş təklifləri və əsassız işdən çıxarılma söhbətləri – və "Underwood Samson"dakı vəzifəmi itirmək istəmirdim. Bundan savayı, bilirdim ki, şirkətimiz də sənayenin bir çox hissəsi kimi fəaliyyət səviyyəsində sentyabr hücumlarının ardınca kəskin tənəzzül yaşayırdı və Vaynvrayt mənə dedi-qodu çatdırmışdı ki, ixtisarlar gözlənilir.

Kabel şirkətindəki layihəmiz yaxşı bitdi – o mənada ki, biz əsaslı dəyər qənaəti təyin edə bildik və müştərimiz dəyərləndirməmizin hərtərəfliliyindən məmnun qaldı – amma dekabr icmal günümdə mən bir əsəbi gənc adam idim. Məlum oldu ki, narahatlığıma heç bir əsas yoxdur. Daxil olduğum sinifdəki altı analitikdən ikisi – beşinci və altıncı sıradakılar – sözsüz ki, şirkətimizin ilk işdən çıxardığı işçilər arasında idilər. Cim məlumat verdi ki, yenə də birinci sıradayam, işimizin standartlarına görə, qarşıdan gələn zəif vaxtı nəzərə aldıqda, səxavətli bir təklif olan bonusla da mükafatlandırıldım. Bu, imkan verdi ki, böyük tələbə kreditimi tamamilə ödəyim və kənara da bir neçə min qoyum. Məst olardım, amma həmin həftənin əvvəlində silahlı adamlar Hindistan parlamentinə hücum etmişdi və uğurumu qeyd etmək əvəzinə ölkəmin tezliklə müharibədə olacağı ehtimalı ilə üzləşmişdim.

Anam dedi ki, gəlməyim; atam da. Lakin Seventh Avenue səyahət agentliyi və mənim qəfil PİA biznes sinfi

T.me/Cinciva

imkanım sayəsində ilin o vaxtında, Nyu-York alıcılarının son hədiyyə bazarlıqları ilə məşğul olduqları və cütlüklərin Milad ağacı üçün gözəl, kiçik kollarını mənzillərinə daşıyarkən küçələrdə öpüşdükləri bir vaxtda Lahora uçdum. Təyyarədə, ayaqqabılarını – mənim məyusluğuma səbəb olaraq – çıxaran və keçidə nəzər saldıqdan sonra Allahın istəyi olarsa, nüvə silahı ilə məhv olmanın qaçılmaz olduğunu, amma Allahın bu məsələdəki fikrinin hələ naməlum olduğunu bəyan edən bir kişinin yanında oturdum. Mehribanlıqla mənə gülümsədi və düşündüm ki, bu fikri söyləməkdə məqsədi məni arxayınlaşdırmaq idi.

Bununla da, ser, yeməyimizin vaxtı çatdı! Öz sağlamlığınız xətrinə, bu yoğurt və doğranmış tərəvəzi yeməyinizi məsləhət görmürəm. Nə? Yox, yox, məşum bir şey nəzərdə tutmuram; çiy qida mədənizi korlaya bilər, vəssalam. Təkid etsəniz, özüm hər bir boşqabdan yeyib yoxlayaram, göstərərəm ki, qorxacaq bir şey yoxdur. Budur. Bir parça isti çörək, bax, belə – ah, gil sobadan təzə çıxıb – və başlayıram.

9

Soruşursunuz bizə çəngəl-bıçaq verəcəklərmi? Əminəm ki, ser, sizin üçün bir çəngəl tapıla bilər, amma icazə verin sizə deyim ki, əllərimizi kirlətmək vaxtı çatıb.

T.me/Cinciva

Hər şey bir tərəfə, birlikdə müəyyən bir vaxt keçirmişik; əminəm ki, artıq geri durmağa ehtiyac hiss etmirsiniz. Qənimətə toxunmağın böyük həzzi var; minillik təkamülümüz deyir ki, yeməyimizə dərimizlə toxunmaq dad hissimizi gücləndirir – iştahamızı da! Görürəm sizi bundan artıq inandırmağa ehtiyac yoxdur; barmaqlarınız o kababın ətini qətiyyətlə parçalamaqdadır.

Amerikadan buraya gələndə müəyyən tənzimləmələr etməyə ehtiyac yaranır; *müşahidənin* fərqli bir yolu tələb olunur. Həmin o müharibənin üfüqdə göründüyü qış Lahora qayıdanda öz baxışlarımdakı amerikalılığı xatırlayıram. Evimizin nimdaş görkəmi, tavanındakı çatlar, rütubətin divara hopduğu yerlərdəki quru boya qabarcıqlarının qopub tökülməsi məni təəccübləndirmişdi. Həmin axşam işıq sönmüş, hər yeri kədərə qərq etmişdi, amma hətta fısıldayan qaz qızdırıcısının tutqun işığında belə mebel köhnə və təmirsiz, rəngi solmuş görünürdü. Evi bu vəziyyətdə görmək qanımı qaraldırdı – yox, qanımı qaraltmaqdan çox utandırırdı. Mən *buradan* çıxmışdım, mənşəyim bura idi və buradan da fağırlıq yağırdı.

Lakin təkrar vərdiş etdikcə, ətrafımla yaxınlaşdıqca anladım ki, dəyişən ev deyildi, *mən* idim; Ətrafıma bir yadelli gözləri ilə baxırdım, həm də hər hansı bir yadelli yox, sinif otaqlarında, iş yerlərində sizin ölkənin elit təbəqəsi ilə rastlaşanda məni əsəbiləşdirən o səlahiyyətli və soyuq amerikalı gözləri ilə. Bunu anlamaq məni qəzəb-

T.me/Cinciva

ləndirdi; gözlərimi yataq otağımın ləkəli güzgüsünə zilləyərək məni bürümüş xoşagəlməz həssaslıq hissindən yaxa qurtarmağa qərar verdim.

Yalnız bunu etdikdən sonra evimi, uzunömürlü əzəmətini, şübhəsiz şəxsi keyfiyyətlərini, özünəməxsus cazibəsini qiymətləndirərək, yaxşı görə bildim. Qonaq otaqlarını moğol miniatürləri və qədim xalçalar bəzəyirdi; eyvanında mükəmməl kitabxanası var idi. Yoxsulluqdan çox uzaq idi; əslində, zəngin bir tarixə malik idi. Necə bu qədər nakəs – həm də kor – ola bildiyimə, əksini necə düşünə bildiyimə təəccübləndim və bu vəziyyətin mənə təsirindən narahatlıq keçirdim: bu o demək idi ki, əsaslı bir özüldən məhrum adam idim və başqalarının yanında keçirdiyim qısa müddət belə mənə təsir etməyə kifayət edirdi.

Lakin bundan daha mühüm məqam o idi ki, daxili düşüncələrim evimin başının üstünü alan xarici reallıqla üst-üstə düşürdü. Qardaşım məni hava limanından götürməyə gəlmişdi; məni döş qəfəsimi tərpədəcək qədər möhkəm qucaqladı. Maşın sürdükcə əli ilə saçlarımı qarışdırdı. Birdən-birə özümü çox gənc – ya da bəlkə, elə öz yaşımda – hiss etdim: uşağabənzər, iyirmi iki yaşlı, nəinki özünü orta yaşlı kişi kimi hiss edən, tək yaşayan və bir kostyum geyinərək doğulmadığı şəhərdə pul qazanan biri kimi. Uzun müddət idi mənə bu cür məhrəmliklə, asanlıqla toxunulmamışdı və gülümsədim. "İşlər necə-

T.me/Cinciva

dir?", – soruşdum. Çiyinlərini çəkdi. "Buradan bir saatlıq məsafədə, dostlarımdan birinin evində artilleriya batareyası basdırıblar. Boş otağına da bir polkovnik yerləşib", – cavab verdi: "Yəni işlər o qədər də yaxşı deyil".

Valideynlərim yaxşı görünürdülər axırıncı görüşümüzə nisbətən, daha zəif olsalar da, onların yaşında bu, vaxt keçdikcə baş verəcək bir şey idi. Anam gəlişimə xeyir-dua vermək üçün yüz rupilik bir əsginası başıma dolandırdı; onu sonra nəzir verəcəkdi. Atamın qəhvəyi və nəmli gözləri parıldayırdı. "Linzadır", – gözlərini cib dəsmalı ilə silərək dedi: – "Ağıllı işdir, hə?" Dedim ki, ona yaraşır və yaraşırdı da; eynəyi köhnəlmişdi, üzünün gücünü gizlədirdi. Nə anam, nə də atam müharibə ehtimallarını müzakirə etməyə razı olmadı, əvəzində məni yedirtmək, Nyu-Yorkdakı həyatımın detalları və işimdəki uğurlar haqqında eşitməkdə israr etdilər. O dünya haqqında burada danışmaq qəribə idi, lap məsciddə mahnı oxumaq kimi; bir yerdə təbii görünən başqa yerdə qeyri-təbii görünə bilər və bəzi anlayışları izah etmək olmur, hətta uyğun ifadə tapanda belə. Misal üçün, Erikanın heç adını da çəkmədim, əslində, onları narahat edəcəyini düşündüyüm heç bir şey haqqında danışmadım.

Lakin həmin axşam mənim şənimə ailə yeməyi təşkil olundu və orada əsas müzakirə mövzusu Hindistanla mümkün müharibə idi. Hindistan parlamentinə hücum edənlərin Pakistandan olduqları haqqında fikir müxtə-

T.me/Cinciva

lifliyi var idi, amma bir məsələdə hamı razılaşırdı ki, Hindistan bizə ziyan vurmaq üçün əlindən gələni əsirgəməyəcək və onlara Əfqanıstanda verdiyimiz yardıma rəğmən, Amerika bizə kömək etməyəcək. Hindistan ordusu artıq səfərbərliyə keçmiş və Pakistan da cavab verməyə başlamışdı; mənə deyildi ki, şəhərdən sərhəddəki qoşunlarımıza təchizat daşıyan yük maşınları karvanları keçir; yemək yeyərkən başımızın üstündən uçan hərbi vertolyotların səsini də eşidirdik; söz-söhbət gəzirdi ki, tezliklə magistral yollarda nəqliyyatın hərəkəti məhdudlaşdırılacaq, hərbi reaktiv təyyarələr nüvə qarşılaşması zamanı uçuş sahələri məhv olarsa, istifadə olunacaq bu yollara eniş etmək üçün məşq edəcək.

İstənilən an hərtərəfli hücuma hazır milyonluq ordudan qısa bir məsafədə yaşamağı təsəvvür etmək sizə qəribə gəlir yəqin ki, çünki bilinən tarixdə öz torpağında müharibə aparmamış, yalnız gizlin bir terror hücumuna məruz qalmış bir ölkədən gəlmisiniz. Qardaşım silahını təmizləyirdi. Əmilərimdən biri su və qida tədarükü görürdü. Ehtiyatda olan bağbanımızı orduya çağırmışdılar. Lakin insanlar əsasən normal həyatlarına davam etməkdə idi; Lahor qərbdə Morokkoya qədər uzanıb gedən müsəlman torpaqları zolağında ən son əsas şəhər idi və buna görə də ön xəttə olan şəhərlərə məxsus, qabarıq ifadə olunmayan dəliqanlılığa sahib idi.

T.me/Cinciva

Lakin mən narahat idim. Özümü gücsüz hiss edirdim; Şərqdəki qonşumuzdan – etiraf etmək lazımdır ki, bizdən çox-çox böyük olan – gələn hədə-qorxu qarşısındakı zəifliyimiz və gücsüzlüyümüz məni qəzəbləndirirdi. Bəli, nüvə silahına malik idik, əsgərlərimiz geri çəkilməzdi, lakin yenə də bizi hədələyirdilər və mən bunun qarşısında yuxuya gedə bilmədən yatağımda uzanmaqdan savayı bir şey etməyə qadir deyildim. Əslində, tezliklə ailəmi, evimi buraxıb gedəcəkdim və bu da məni öz gözümdə bir qorxağa, bir xainə çevirirdi. Belə bir şəraitdə kim adamlarını tərk edər? Onları nəyin uğrunda tərk edirdim? Yaxşı maaş verən iş və məni hətta görmək belə istəməyən bir qadın uğrunda? Təkrar-təkrar bu suallarla çarpışırdım.

Nyu-Yorka qayıtmaq vaxtı çatanda valideynlərimə bir az da qalmaq istədiyimi dedim, amma bunu eşitmək belə istəmədilər. Bəlkə də, özümün bölündüyümü, nəyinsə məni Amerikaya çağırmaqda olduğunu hiss edirdilər; ola bilsin ki, sadəcə, oğullarını qorumağa çalışırdılar. "Üzünü qırxmamış getmə", – anam mənə dedi. "Niyə?", – atamla qardaşımı göstərib soruşdum: "Onların saqqalı var axı". "Onlar keçəlliklərini gizlətmək üçün saqqal saxlayırlar. Həm də sən hələ uşaqsan", – cavab verdi. Anam qısa saqqalımı sığalladı: "Bu səni lap siçana oxşadır".

T.me/Cinciva

Təyyarədə mənimlə uçanlardan çoxunun həmyaşıdlarım olduqlarının fərqinə vardım: tətildən sonra geri qayıdan kollec tələbələri, gənc mütəxəssislər. Mənə istehzalı göründü; döyüş gözləniləndə yaşlılar və uşaqlar uzağa göndərilməlidir, amma bizim misalımızda ən güclü və sağlamlarımız, keçmişdə qalıb döyüşmək üçün ən yararlı sayılmış olanlar ölkəni tərk edib gedirdik. Özümə nifrətlə dolmuşdum, elə bir nifrətlə ki, nə danışa, nə də bir şey yeyə bildim. Gözlərimi bağlayıb gözlədim və saatlar hətta qaçmaq məsuliyyətimi də uzaqlaşdırdı.

Deyirsiniz silahlı münaqişədən əvvəlki vəziyyətdəki həyəcana nabələd deyilsiniz? Aha! Deməli xidmətdə olmusunuz, ser, lap şübhələndiyim kimi! Razılaşırsınızmı ki, nəyinsə baş verməsini gözləmək ən çətinidir? Bəli, doğrudur, qırğının özü qədər də çətin deyil, əsl əsgər kimi danışırsınız. Lakin görürəm ki, yeməyə fasilə vermisiniz; bəlkə, təzə çörək gözləyirsiniz. Budur, mənimkinin yarısını götürün. Yox, təkid edirəm; ofisiantımız bu dəqiqə yenisini də gətirəcək.

Keçmişinizi nəzərə alsaq, geniş həcmli qırğının aydın bir ehtimal olduğu yerdən sakit bir yerə qayıtmağın nə demək olduğunu başa düşürsünüz. Qəribə yerdəyişmədir. İş yoldaşlarım ofisdə təkrar peyda olmağımı nəzərə çarpacaq və yarı gizlədilmiş çaşqınlıqla qarşıladılar. Çünki anamın təkidlərinə və bunun miqrasiyada mənim üçün yaradacağı çətinliklərə baxmayaraq, iki həftə-

T.me/Cinciva

lik saqqalımı qırxmamışdım. Bu, ola bilsin ki, mənim özümə məxsus olan bir etirazım, identikliyimin simvolu idi, bəlkə də, mənə yenicə arxada qoyub gəldiyim reallığı xatırlatmasını istəyirdim; indi dəqiq xatırlamıram. Bircə onu bilirəm ki, üzü təmiz qırxılmış iş yoldaşlarımın gənc ordusuna qarışmaq istəmirdim və içimdə bir çox səbəbdən dərin qəzəb var idi.

Fiziki əhəmiyyətsizliyini nəzərə aldıqda – hər şey bir tərəfə, bu ki, adi bir saç dəbidir – mənim dəri rəngimdə olan bir adamın saqqal saxlamasının sizin həmvətənlərinizdə buraxdığı təsir heyrətamizdir. Metrodan istifadə edərkən – əvvəllər heç bir çətinlik çəkmədən kütləyə qarışa bildiyim halda – indi, tamamilə tanımadığım adamlar dəfələrlə məni təhqir edirdi, "Underwood Samson"-da da bircə gecənin içərisində pıçıltıların və qəribə nəzərlərin obyektinə çevrilmişdim. Vaynvrayt mənə bir dost məsləhəti bildirdi, "Bura bax, kişi", – dedi: – "Bilmirəm bu saqqal məsələsi nədir, amma məncə səni burada ən xoşlanan adama çevirmir". "Gəldiyim yerdə saqqal adi bir şeydir", – dedim. "Mən gəldiyim yerdə də qaxac toyuq adi bir şeydir", – deyə cavab verdi: "Lakin bunu bütün üzümə yaxıb gəzmirəm ki. Sən gərək ehtiyatlı olasan. Bütün bu korporativ məsləkdaşlıq örtüyü, əslində, daha da dərinlərə gedir. Mənə inan".

Dostumun narahatlığını qiymətləndirdim, amma təklifini qəbul etmədim. İxtisarlara baxmayaraq, şirkəti-

T.me/Cinciva

mizin işi yanvar ayında az olaraq qaldı və mən də edəcək çox işim olmadan stolumun arxasında oturub qaldım. Bütün bu müddət ərzində vaxtımı internetdən Pakistan və Hindistan arasındakı pisləşməkdə olan əlaqələr, ekspertlərin regiondakı hərbi balansı qiymətləndirmələri, mümkün döyüş ssenariləri və qarşıdurmanın hər iki xalqın iqtisadiyyatına vurduğu ziyan barədə məlumatlar oxumaqla keçirdim. Amerikanın dünyada belə bir qarışıqlıq yaratmaq iqtidarında olmasına heyrət edirdim – Əfqanistanda bütöv bir müharibə düzəldir, Hindistanı Pakistana hücuma təhrik edən hərəkətləri ilə də zəif xalqların güclülər tərəfindən işğalını qanuniləşdirirdi – və bütün bunların öz torpağına çox az hiss olunan təsiri vardı.

Bir tərəfdən də altı həftə əlaqə saxlamamağa çalışdıqdan sonra nəhayət ki, Erikaya zəng etdim və telefonu daim bağlı olduğundan, ardınca e-maillər yazmağa başladım. Çox istəyərdim ki, e-maillərimin adətən qısa xarakterli, onun sakitlik xahişinə hörmətlə, sadəcə, nəzakətli bir salamlaşma olduğunu deyim, amma həqiqət odur ki, onları yazmaq üçün saatlar sərf edirdim və yazdığım ən uzun mətnlər idi. Onlarda Erikaya həm evdə, həm də iş həyatımda baş verənlərdən, içərisində olduğum qarışıqlıqdan bəhs edirdim; həm də ondan ötrü nə qədər darıxdığımı, haraya və nə üçün yox olduğunu anlamadığımı deyirdim. Bir neçə gün sonra cavab verdi. "Klinikada-

T.me/Cinciva

yam", – dedi, "adamların bərpa olunduğu bir yerdə. Mən də sənin haqqında düşünürəm". Ona baş çəkməyə dəvət edirdi; suallarıma üzbəüz cavab verməyə çalışmaq onun üçün daha asan olacaqdı.

Klinika yarımgünlük məsafədə, Hudson çayına baxan əlli akrlıq sahəni əhatə edən bir villada yerləşirdi. Məni qeydiyyatdakı tibb bacısı qarşıladı: "Yəqin ki, Çingizsiz", – dedi. – "Erika mənə sizdən çox danışıb". "Bəli, nə bildiniz?", - deyə soruşdum. "Kirpikləri Maybelin reklamındakı kirpiklər kimi", – cavab verdi, – "Erika belə deyir". Bu ağlabatmayan təsvir haqqında düşünərkən tibb bacısı bildirdi ki, Erika məni gözləyib, amma sonra özünü bir qədər əsəbi hiss edərək onun adından mənə bəzi şeyləri çatdırmağı xahiş edib. "Demək, mənimlə görüşməyəcək?", – soruşdum. Tibb bacısı gülümsəyib cavab verdi: "Əlbəttə, görüşəcək, əzizim, amma belə yerlərdə olanda adamlar bəzən utanır. Ona elə gəlir ki, sizinlə birinci mən danışsam, ikiniz üçün də daha rahat olar", – deyib əlimə toxundu və sonra əlavə etdi, – "mən sizin hovuza atılmazdan əvvəl alacağınız duş kimiyəm".

Erika haqqında başa düşməli olduğum o idi ki – tibb bacısı dedi – Erika başqasını sevirdi. Bilirdi ki, bunu eşitmək mənə ağır olacaq, ancaq bilməli idim. Erikanın sevdiyi adamın tibb bacısı və mənim ifadə etdiyim kimi mərhum olması fərq etmirdi; Erika üçün o, sağ idi və problem də elə bunda idi; Erika üçün beynində bizimlə

T.me/Cinciva

yaşayacağı hər şeydən daha güclü və mənalı şeyləri yaşadığı halda, tibb bacısı və mənim kimi olmaq, bizim yaşadığımız dünyada həyat sürmək çətin idi. Ona görə də Erika insanların heç də özlərini pis hiss etmədən xəyallarda yaşadığı belə bir yerdə - bizdən ayrı yerdə - özünü daha yaxşı hiss edirdi. "Lakin axır-əvvəl o, burada yaşamalı olacaq", – dedim, – "bəlkə, onda mənimlə olmağı seçər". Tibb bacısı başını yellədi, – "Bəlkə də", – dedi, – "ancaq indi siz onun üçün görüşəcəyi ən çətin adamsınız. Onu ən çox çaşdıran sizsiniz. Çünki ən real olan sizsiniz və onun tarazlığını pozursunuz".

Tibb bacısı dedi ki, Erikanı ağacların içərisi ilə burulub gedən cığırın sonunda, təpənin üstündə tapa bilərəm. Həqiqətən də, orada idi, kobud işləməli taxta skamyada oturmuşdu. Qalın bir jaket geyinmişdi və yaxınlaşdığımı eşidib döndü; cılızlaşmışdı, üz sümüklərinin üstündəki dəri sanki göyərmişdi və *əsl* mömindən çox da fərqlənməyən bir şəkildə nur saçırdı. Əlini uzatdı, amma sıxmaq əvəzinə dodaqlarımı sintetik qış əlcəyinə toxunduraraq əlini öpdüm. "Nə sevimli görünürsən", – dedi, – "saqqalın gözlərini üzə çıxarır". Onun biraylıq orucunu qurtarmaq üzrə olan, yeməyə fikir verməyəcək dərəcədə dua və müqəddəs kitabın qiraətinə aludə olmuş adama bənzədiyini düşündüm, amma bunu demədim.

Qolunu uzatdı və biz sakitcə söhbət edə-edə gəzişdik: ağzımızdan çıxan duman bizdən irəli qaçırdı. "Bura

T.me/Cinciva

bu dəqiqə mənim üçün ən yaxşı yerdir", – dedi, – "burada özümü sakit hiss edirəm". "Sakit görünürsən", – ancaq "*həddindən artıq sakit*" deməkdən özümü saxlayaraq dilləndim. "Bağışla ki, gizlənirdim", – dedi. – "Ona görə yox ki, səni görmək istəmirdim. Ona görə ki, səni dibə çəkdiyimin fərqində idim və istəmirdim əzab çəkəsən". "Niyə əzab çəkəcəkdim?", – deyə soruşdum. "Kiminsə qayğısına qalanda və o çıxıb gedəndə adam əzab çəkir", – cavab verdi. "Axı sən hara gedirsən ki?", – soruşdum. Çiyinlərini çəkdi və cavab vermədi. Ayaqlarımızın altında xırtıldayan qarın səsindən başqa bir səs eşidilmirdi; qulaqlarım soyuqdan göynəməyə başladı. "Bəs burada yazırsan?", – soruşdum. "Yox", – dedi, – "nəyisə yazacaq ağılda deyiləm. Lakin çox düşünürəm. Xəyal qururam". "Bəs mən ara-sıra xəyallarına gəlirəmmi?", – soruşdum. "Arabir", - gülümsəyərək dedi. "Rol oynayan ekzotik yadelli ilə qəribə seks fantaziyaları bəs?", – soruşdum. Gülüb qolumu sıxdı; üzü ilk dəfə olaraq yumşaldı, kövrəkləşdi. Lakin sonra təkrar içinə çəkildi, – "Mənə kömək etdin", – dedi, "mehriban və səmimi oldun... sənə minnətdaram".

Mənə ən çox təsir edən Erikanın cümləsi yox, məni qətiyyətlə keçmiş zamana qoyması oldu. İçimdə ümidin söndüyünü hiss etdim və – "Minnətdar olma; ehtiraslı ol. Mənimlə Nyu-Yorka gəl", – deməyimə rəğmən – bunu sözlərə güc verən inam olmadan dedim – o dəqiqə başını

T.me/Cinciva

çaynıma qoydu, amma cavab vermədi. Bu dünyadan ayrılmış, tərki-dünya vəziyyətinin qəbul etdiyi dərmanlarla nə dərəcədə əlaqədar olduğunu düşündüm və birlikdə binaya tərəf getdikcə gözümün ucu ilə onu süzdüm. Bir anlıq onu qaçırıb, kirayə maşınımda oradan uzaqlaşdırmaq istədim; əmin idim ki, reallığa qayıtmasına mənim qayğım qəbul etdiyi dərmanlardan çox kömək edər. Lakin belə bir hərəkətin absurdluğu – və ona qarşı hörmətsiz olacağı – aydın idi, ona görə də bu fikirdən daşındım.

"Xizək sürməyi bacarırsan?", – soruşdu. "Yox", – dedim, "heç etməmişəm". "Krislə mən", – dedi, – "hər qış Koloradoya, ara-sıra da Vermonta gedərdik. Hətta uşaq olanda birlikdə Mərkəzi Parkı da keçmişdik. Bizə xizək hədiyyə olunmuşdu, biz də onları götürüb heç kimə demədən çıxmışdıq. İlişmişdik. Valideynlərimiz polis çağırmışdı. Əyləncəli idi amma. Bu yer o hadisələri yadıma salır. Əsas da o yamacdakı qar. Necə də xəfif görünür, necə də yumşaqdır. Bir ara sən də yoxla". Qapının kandarındakı çınqıllara çatmışdıq. "Birgə edərik", – dedim. Başını yellədi, – "Edə bilmirəm", – dedi, – "sən sına amma. Xoşbəxt olmağa çalış, yaxşımı? Hər şey üçün təəssüf edirəm. Xahiş edirəm, özündən muğayat ol".

Məni qucaqladı, sonra isə elə oradaca dayanıb mənə baxdı. "Axı o *ölüb*", – deyə bağırmaq istədim. Onu öpməmək üçün edə bildiyim tək bu idi; bəlkə də, etməli

T.me/Cinciva

idim. Bilmirdim, onu qazanmaq üçün mübarizə aparmağa davam etməliyəm, yoxsa arzusuna boyun əyib çıxıb getməliyəm; sonda ikincini seçdim. Maşın sürdükcə öz-özümə deyirdim ki, bəlkə də, bu, bir sınaqdır və mən uğursuzluğa uğramışam; bəlkə də, risk etməli idim. Az qala çevrilib geri qayıdacaqdım, amma qayıtmadım. Çevrilsəydim, işlər başqa cür də gedə bilər, amma elə olduğu kimi də davam edə bilərdi.

Ondan sonra işdə qəzəbli və Erika, ev haqqında düşüncələrə dalmış tənha bir adama döndüm. İnzibati işlərimdə səhlənkar idim və özümə yeni iş tapmaq üçün qətiyyən cəhd etmirdim. Demək olar ki, kiminsə əlində çəhrayı kağızla stoluma yaxınlaşıb məni bu zillətdən çıxaracağını gözləyirdim. Əvəzində, Cim məni çağırıb təəccübləndirdi, rəğbətini bildirdi. "Qulaq as, bala", – dedi, – "burada bəziləri düşünür ki, sən bir qədər səfil görünürsən: saqqal-zad. Açığı mənim heç vecimə də deyil. Məni maraqlandıran işindir və gördüyüm qədər sən sinfində ən yaxşı analitiksən. Bundan savayı, bilirəm ki, Pakistanda baş verənlər sənin üçün asan deyil. Sənə lazım olan özünü məşğul saxlamaqdır, bu da, boynuma alım ki, indi əlimizdə quru boru kəməri olan bir vaxt heç asan deyil. Lakin Valparaiso, Çilidə bir nəşriyyatı dəyərləndirmək işi var. Kiçik bir komanda lazım olacaq, vitse-prezident və bir analitik. Normalda bunu daha təcrübəli birinə tapşırardım, lakin sənə təklif edirəm. Nə deyirsən?". – "Təşək-

T.me/Cinciva

kür edirəm, ser", – kəkələdim. Güldü, "Bir az həvəs də... bir zəhmət", – əlavə edərək dedi. – "Böyük məsuliyyətdir. Heç bir arxan olmayacaq". "Mənə güvənə bilərsiniz", – bu dəfə daha aydın görünən bir səmimiyyətlə danışdım. Nə qədər uğurlu olduğumu anlamadım, çünki cavabında Cim gülümsəsə də, üzündə dərin müəmmalı baxış vardı.

Lakin görürəm ki, yeməyi saxlamısınız, ser... yoxsa doymusunuz? Yaxşı, çox təkid etməyəcəyəm; amma desert sifariş edəcəyəm – doğranmış badamlı, hilli düyü pudinqi. Getdikcə qəddarlaşan bir şəkil almaqda olan bu axşamımız üçün əla şirniyyatdır. Belə yeməklər tam sizin zövqünüzcə olmaya bilər, amma sizi dilə tutacağam ki, heç olmasa, kiçik bir dişlək də olsa, yeyin. Hər şey bir tərəfə, döyüşə gedərkən sizin əsgərlərinizin yeməklərinə şokolad da daxil edildiyini görmüşük, buna görə ən qanlı tapşırıqları belə yerinə yetirməzdən əvvəl ağzınızı şirinləşdirmək sizə çox da yad ola bilməz.

10

Siz, ser, qolunuzu yanınızdakı stolun arxasına o şəkildə – əyri qoyduqda, kostyumunuzun yüngül parçasının altında bizim ölkəmizin – adama elə gəlir, yəqin ki, bütün ölkələrin – gizli agentlərinin silah üçün qoltuqaltı qobura asdığı yerdə, düz döş sümüyünə paralel nöqtədə bir qabarıq nəzərə çarpır. Yox, yox, xahiş edirəm, mənə

T.me/Cinciva

görə oturuşunuzu dəyişməyin! Sizin silahlı olduğunuza işarə vurmaq niyyətində deyildim; əminəm ki, sizdə bu, sadəcə, ehtiyatlı yolçuların oğruların tapmayacağı bir yerdə gizlətdiyi pul kisəsinin konturlarıdır.

Mən Çiliyə gedərkən belə ehtiyat tədbirləri almamışdım. Yenə daha rahat, birinci sinifdə uçurduq. Amma mən kabinəmizin lüksündən artıq zövq almırdım; layihəmizin başlanğıcı üçün bizi müşahidə edən Cim və bütün səfər boyu mənim birbaşa rəhbərim olacaq vitse-prezidentdən fərqli olaraq, bir neçə dəfə stüardessanın şampan şərabı təklifini rədd etdim. Havada olduğumuz bütün saatlar ərzində nə yedim, nə də yatdım; fikirlərim bizdən aşağıda olan qitədə deyildi və bir neçə dəfə ümumiyyətlə gəldiyimə təəssüf etdim.

Erikaya necə kömək edə biləcəyimi düşünürdüm. Onu sonuncu dəfə gördüyüm kimi – cılız, dünyadan qopmuş və *cansız* – görmək mənə ağrı verirdi; uşaqlıqda bir itimiz vardı, baytarın bizə "heç vaxt istifadə etməyin" dediyi gənə tozunun səbəb olduğu leykemiyaya məğlub olmuşdu. Son günlərində passivləşmişdi və tənha qalmaq istəyirdi. Lakin Erika leykemiyadan əziyyət çəkmirdi; onun xəstəliyinin yəqin ki, bu cür psixoloji vəziyyətə gətirib çıxaracaq biokimyəvi strukturdan savayı, heç bir fiziki səbəbi yox idi. Onunku ruhun xəstəliyi idi və mən başdan-başa, həm də paylaşılan mistik ənənələrinin nüfuz etmiş olduğu bir mühitdə böyüdüyüm üçün adamla-

T.me/Cinciva

rın qayğısı, şəfqəti və sevgisinin təsir etmədiyi bir ruhun mövcud olduğunu qəbul etmirdim. Mühüm olan o idi ki, psixikasını qoruyan o membrana daxil ola bilməməyimin səbəblərini başa düşməyə çalışım; birbaşa cəhdlərim rədd edilmişdi, amma kifayət qədər fərasət osmos prosesi ilə qəbul olunmağıma şərait yarada bilərdi. Cəhd etməkdən başqa bir alternativ təsəvvür edə bilmirdim; natamam ayrılığımıza rəğmən, ona olan həsrətim zəifləməmişdi.

Santyaqoya bu düşüncələrlə çatdım. Səyahətimiz oradan yolla davam etdi – təmir komandasının mexaniki kürəklərinin Çilinin xarakterik qırmızı torpağında parçaladığı böyük hissələr səbəbindən kiçik bir tıxanma olsa da, səfərimiz rahat keçdi – təyinat nöqtəsini görməzdən qabaq qoxusunu duyduq; Valparaiso duzlu Sakit okeanda idi və təpələrin zirvələri arxasında gizlənmişdi.

Nəşriyyatın rəhbəri filtrsiz siqaret aludəçisi, günəşli gündə kağızı yandıra biləcək qədər qalın şüşəsi olan eynəkli, Xuan Batista adlı yaşlı bir adam idi. Ana babamı xatırladırdı; onu dərhal xoşladım. "Kitablar haqqında nə bilirsiniz?", – bizdən soruşdu. "Media sənayesi üzrə ixtisaslaşmışam", – Cim cavab verdi. – "Son iyirmi ildə bir düjün nəşriyyat dəyərləndirmişəm". "Bu ki maliyyədir", – Xuan Batista atmaca atdı, – "sizdən kitablardan nə anladığınızı soruşuram". "Atamın əmisi şair idi", – dilləndim, – "Pəncabda yaxşı tanınırdı. Ailəmdə kitablara

T.me/Cinciva

böyük sayğı var". Xuan Batista qarşısındakı bu gəncin yalnız indi fərqinə varırmış kimi üzünə baxdı; o görüşdə bir daha danışmadım.

Cim sonra bizə izah etdi ki, Xuan Batısta bizim orada olmamızdan heç məmnun deyil. Şirkətə çox illər başçılıq etmiş olsa da, sahibi deyildi; sahibləri şirkəti satmaq istəyirdi və gələcək alıcı – bizim müştərimiz – çətin ki qazanclı təhsil və peşəkar nəşriyyatlardan əldə edilən gəliri zərər vuran ticarət bölməsini subsidiyalaşmaya yönəldilməsinə davam edəcəkdi. Bədii müəllifləri olan – kommersiya baxımından, bütün praktik məqsədlər üçün qeyri-müəyyən hesab edilən – ticarət müəssisənin qalan hissəsi üçün bir yük idi; bizim işimiz bu yükdən can qurtarılarsa, aktivlərin dəyərini təyin etmək idi.

Böyük, oval stolu və divarlar boyu düzülmüş kitab rəfləri olan köhnə, amma gözəl bir konfrans otağına yerləşdik. Külək əsəndə pəncərələrdən çöldə bərkidilmiş taxta tufan tixaclarının taqqıltısını eşidə bilirdim. Günortalar isti keçirdi – buraya Cənub yayının ortasında gəlmişdik - amma səhərlər bəzən dumanlı, soyuq havaya oyanırdıq və belə vaxtlarda kostyumumun yundan olmasına sevinirdim. Cim iki gündən sonra çıxıb getdi və vitse-prezidentimin yanında məndən böyük işlər gözlədiyini dedi. Lakin laptopum açıq, internet əlaqəm qurulmuş, qələm və qeyd dəftərim yanımda qoyulmuş olsa da, diqqətimi işə cəmləməkdə acız idim.

T.me/Cinciva

Əvəzində, Pakistan və Hindistanın qisas məqsədli ballistik raket sınaqları keçirdiyi, Dehlini müharibə lehinə ritorikadan və İslamabadı fəlakət uçurumundan çəkindirəcək güzəştlərə gətirmək üçün hər iki dövlətin paytaxtına axışıb gələn möhtərəm xaricilər haqqında məlumat verən veb-səhifələri izləyirdim. Məni sizin ölkənizin bütün bu baş verən hadisələrdəki rolu maraqlandırırdı; şübhəsiz ki, Əfqanıstan kompaniyasını həyata keçirmək üçün Pakistanda hərbi bazasını yaratmış Amerika. sadəcə, Hindistana deyə bilərdi ki, Pakistana hücum Amerikanın müttəfiqinə hücum deməkdir və bunu edərsə, Amerikanın böyük hərbi gücündən cavab alacaqdır. Lakin ölkəniz bunu etmirdi; iki potensial döyüşçüyə qarşı ciddi neytrallıq saxlayır və bununla da daha böyük – tarixin o dönəmində – və daha döyüşkən tərəfi dəstəkləmiş olurdu.

Məlumat toplayıb maliyyə modelimi qurmaq əvəzinə, bu düşüncələrə dalmışdım. Bundan əlavə, Valparaiso özü də diqqəti yayındırmağa yetərli idi; şəhərin güclü ab-havası vardi; bulvarı və təpələri melanxoliyaya bürünmüşdü. Tarixi haqqında oxudum və öyrəndim ki, bir əsrdən çox müddətdir ki, tənəzzül etməkdədir; Panama kanalına görə, bir zamanlar Sakit okeandan Atlantik okeana səyahət edən gəmilərin son dayanacağı statusu üzündən rəqiblərin uğrunda mübarizə apardığı bu limandan yan keçir və bununla da onu kənarda qoyurdular. Buna

T.me/Cinciva

görə – Valparaisonun əvvəlki əzəməti – mənə Lahoru xatırladırdı və bizim dilimizdə deyildiyi kimi: *xarabadan binanın bir vaxtlar gözəl olduğu duyulurdu.*

Vitse-prezidentin məndən getdikcə daha artıq narahat olduğunu hiss edirdim; günahlandırmağa haqqım çatmırdı: yazıq adam səhərdən gecə yarısına kimi işləyir və yeganə qrup üzvündən çox az kömək alırdı. Özümü məşğul olurmuş kimi göstərirdim, amma günlər ötüb son müddət keçdikcə onun da səbri tükənirdi. "Bura bax", – bir gün o dedi: – "Problem nədir? Heç bir şey etmirsən. Bilirəm, işində yaxşısan deyilir, amma bir iş görmürsən. De görüm, sənə nə lazımdır? Modelinə yardım lazımdır? İstiqamət lazımdır? De, mən də edim, amma Allah xətrinə, özünü ələ al". Bir menecer kimi reputasiyası çox yüksək idi və içimdə baş qaldırmış qarışıqlığı ona açа bilərdim, amma münasibətimiz insan əlaqələri səviyyəsində sıfırda idi. Ona görə də üzr istəyib bildirdim ki, düz hədəfə vurur, amma narahatlığına ehtiyac yoxdur, mən ikiqat çalışacağam. "Hər şey", – maksimum arxayınlıq tonunda dedim, - "nəzarət altındadır".

Bu onu bir müddət qane etdi, amma dediklərim heç də həqiqət deyildi. Bilirdim ki, məndən zəhləsi gedir. Haqlı idi: hər şey bir tərəfə, planı yerinə yetirməməklə onun işinə kölgə salırdım. Artıq mənim də öz növbəmdə ondan zəhləm getməyə başlamışdı. Onun öz mikrokainatının strukturları içərisinə belə, tamamilə necə

T.me/Cinciva

bata bildiyini anlamaqda çətinlik çəkirdim. Bəli, mən də əvvəllər öz şirkətimin intensiv şəkildə diqqəti işə yönəltmək təlimlərindən rahatlıq tapmışdım, amma indi görürdüm ki, daimi maliyyə gələcəyini reallaşdırmaq səyinə qapılaraq, insana emosional təsir göstərən ciddi şəxsi və siyasi məsələlərə az fikir verilmişdi. Başqa sözlə, gözümdən pərdələr çəkilir, görüş dairəmin qəfil genişlənməsi gözlərimi qamaşdırır və hərəkətsiz qalırdım.

Ayağımı sürüyə-sürüyə bir iclasdan digərinə getdikcə, Xuan Batistanın məni müşahidə etdiyini görürdüm. Qapısı açıq olurdu və stolu elə yerləşdirilmişdi ki, dəhlizi görə bilirdi. Bir dəfə oradan keçəndə məni çağırdı. "Müasir Pəncab poeziyasına göz gəzdirmişəm", – dedi: – "Atanın əmisinin adı nə idi?" Dedim, başını tərpətdi, ispan dilinə tərcümə olunmuş bir antologiyada adına rast gəlmişdi. İşin belə olmasına həm təəccübləndim, həm də məmnun qaldım, amma mən cavab verənə kimi dedi: – "İş yoldaşlarından çox fərqli görünürsən. Elə bil yolunu itirmisən". "Xeyr", – təəccüblənib cavab verdim. Sonra əlavə etdim: – "Amma deməliyəm ki, Valparaiso mənə çox təsir edib". Məsləhət gördü ki, Pablo Nerudanın evinə baş çəkim, amma gün ərzində... çünki axşamlar o ev bağlı olurdu və bizim qısa söhbətimiz bununla da bitdi.

Bilmirəm Xuan Batista məni niyə seçmişdi. Bəlkə, onda heyrətamiz bir empatiya qurmaq qabiliyyəti var idi

T.me/Cinciva

və məni həll etməyə kömək edə biləcəyi bir dilemmada görüb mərhəmətli davranmışdı; bəlkə, düşmənləri arasından, sadəcə, zəif və asanlıqla məğlub edilə bilənini seçmişdi; bəlkə də, bu, sadə bir təsadüf idi. Sentimental olaraq bu ehtimallardan birincisinə inanmaq istəyirdim. Nə olursa-olsun, Xuan Batista mənim dəyişkən səyahətimə əhəmiyyətli impuls əlavə etdi... bu günə kimi də davam edən səyahətimə....

Qabağa qaçıram, amma istənilən halda, desertimiz də gəlib çıxıb. Bircə kasa gətirib; hiss etdim ki, sadəcə, dadına baxacaqsınız, elə özüm də, çünki tamam doymuşam. Nə fikirləşirsiniz, ser? Ah, dodaqlarınızı o cür büzməyiniz uğursuz əlamətdir. Deyirsiniz çox şirindir? Nəzərə alsaq ki, məncə, sizin ölkənizdə də mənim kimi şirinliyə milli düşkünlük var, sizinki maraqlı bir müşahidədir. Lakin ola bilsin ki, siz ölkəniz üçün tipik deyilsiniz; səfərləriniz sizi vətəninizin hər tərəfində tapılan soda fəvvarələrindən və dondurma barlarından uzaqlaşdırıb.

O yanvar mən də uzaqlara səyahət etmişdim, amma Nerudanın evi Lahordan çox da uzaq görünmədi; coğrafi olaraq uzaq idi, əlbəttə; sözsüz ki, ora dünyada tapıla bilinəcək ən ucqar yerlərdəndir, amma ruhu sanki mənim şəhərimdən bir xəyali karvan səfəri və ya Ravidən Hindusa bir gecə gəzintisi məsafəsində idi. Vitse-prezidentə paylama mərkəzini yoxlamağa getdiyimi söylədim və bu bəhanə ilə təpələrə tərəf yol aldım. Geri dönüb okeana

T.me/Cinciva

baxanda qağayıların da mənim dayandığım yüksəkliyə qalxdığını görəcək qədər hündürə dırmaşdım. Qonşuluqdakı ərazi qrafiki kimi rəngli şəkillər çəkilmiş divarları olan, təkərli dükan arabalarından düzəlmiş taxta arabalarda uşaqların yarışdığı kasıb bir yer idi. Ev körfəzdən çıxan qayığabənzər, kompakt, gözəl bir ev idi; aşağısında bağ, barın arxasında isə Nerudanın qonaqlarını sərxoş olduqlarına inandırmaq üçün istifadə etdiyi qabarıq güzgü var idi. Terrasda ləngiyib günəşin səmada enməsinə tamaşa etdim. Bir az kənarda kimsə gitara çalırdı; incə bir melodiya, sözləri olmayan bir musiqi idi.

Erika haqqında düşündüm. Məncə, onunla əlaqə yaratmaq cəhdlərimin uğursuzluğa uğramasının səbəbi bir çox məsələdə harada durduğumu bilməməyim olmuşdu; stabil *özəkdən* məhrum idim. Hara aid olduğumdan əmin deyildim – Nyu-Yorka, Lahora – hər ikisinə, ya heç birinə – buna görə də Erika məndən kömək istəyəndə ona verəcək əsaslı bir şeyim olmamışdı. Bəlkə, elə buna görə öz identikliyim bu qədər kövrək olduğu üçün Kris rolunu oynamağı qəbul etmişdim. Belə etməklə də – içimdəki nostalgiyaya başqa bir alternativ verməməklə – Erikanı öz çaşqınlığında daha da dərinə itələmişdim. Bütün bunları ona e-maildə yazmağa qərar verdim, bir növ üzr istəmək, ya da onun qırdığı əlaqəni yenidən başlamaq üçün bir dəvət kimi və yadımdadır ki, yazdığımı heç bir dəfə də oxumadan "göndər" düyməsini basdım.

T.me/Cinciva

Lakin günlərim cavab almadan keçirdi və cavabın gələcəyinə olan ümidimi getdikcə itirirdim. Valideynlərimə zəng etdim, onlar dedilər ki, Pakistandakı vəziyyət təhlükəli olaraq qalır; söz-söhbət gəzirdi ki, Hindistan Amerikanın razılığı ilə hərəkət edir, hər iki dövlət hədə-qorxu vasitəsilə bizim dövlətimizi öz siyasətini dəyişməyə məcbur etməyə çalışırdı. Bundan əlavə, evimizin əsas su bağlantısı tutulmuşdu – boruları dəyişmək vaxtı çoxdan çatmışdı – və təzyiq o qədər aşağı düşmüşdü ki, duş qəbul etmək qeyri-mümkün olmuşdu; vedrə və çömçələrə keçmişdilər. Bu məni yenə də iki yarımkürədə olduğumu – belə bir şey mümkündürsə – ailəmin mənə bu qədər ehtiyacı olan bir vaxtda evimdən uzaqda olduğumu, yəni vəziyyətimin absurdluğunu düşünməyə vadar etdi.

Onlara edə biləcəyim yeganə kömək pul göndərmək idi, bunu da etdim, yığdığım pulun hamısını qardaşıma göndərdim, çünki atam qəbul etmədi. Pulun transferi üçün banka zəng etməyim mənə işimin əhəmiyyətini görməyə kömək etməli idi; hər şey bir tərəfə, baş vuracağım başqa bir gəlir mənbəyim yox idi. Lakin əvəzində, işimə olan laqeydliyim artmaqda davam etdi. Daha vitse-prezidenti aldatmaq mümkün deyildi; səhvlərim aydın idi və töhmətlər getdikcə kütləşirdi. Geri baxanda, Cimə zəng edib məni əvəzləməyi xahiş etmədiyinə təəccüblənirəm, amma əslində, təəccüblü bir şey yoxdur:

T.me/Cinciva

şirkətimizdə vitse-prezidentin işi – adın *vitse* hissəsinə rəğmən – mümkün qədər avtonom olmaq idi. Yaxşı vitse-prezident işləri *yerinə yetirən* idi, nə olursa-olsun və vaxtından əvvəl yardım üçün müraciət etmək adamın yuxarılar qarısındakı etimadını sarsıda bilərdi.

Mənə gəlincə, böyük dəyişiklik astanasında idim; yalnız son katalizatora ehtiyac var idi və mənim üçün bu, nahar vaxtı gəldi. Xuan Batistanın dəvətinə hazırlıqsız yaxalandım; bir gün otağının qarşısından keçərkən o, sadəcə, qeyd etdi ki, Valparaisoya baş çəkib duzda bişirilmiş balıq yeməmək ayıb olar və həmin günorta sevimli restoranına gedəcəyi üçün mən də – bekar idimsə – ona qoşula bilərdim. Mən – maraq və nəzakət xətrinə, həm də iclas otağımızın zəhərli ab-havasına qayıtmamağım üçün – dedim ki, şərəf duyaram və bir də ayıldım ki, müştərimizin şirkəti əldə etmək istəyinin uğursuz olmasını hər şeydən çox istəyən bir adamla şəhərin küçələrini keçib getməkdəyəm.

Xuan Batista başına şlyapa qoymuşdu, əsa ilə gəzirdi və sürəti elə aşağı idi ki, Nyu-Yorkda yol kəsişməsini belə keçsəydi qanunu pozmuş olardı. Əyləşdikdən və ikimiz üçün də sifarişi o verdikdən sonra dedi: "Səni müşahidə edirəm, cavan oğlan və yəqin belə desəm, şişirtmərəm ki, sən çaşqın görünürsən. Sənə, əslində, şəxsi bir sual verə bilərəmmi?". – "Əlbəttə", – dedim. "Başqalarının həyatını dağıdaraq pul qazanmaq səni narahat edirmi?", – o

T.me/Cinciva

soruşdu. "Biz, sadəcə, dəyərləndiririk", – deyə cavab verdim: – "Satışı və alışı, əslində, bizim dəyərləndirməmizdən sonra şirkətin başına nə gələcəyini qərarlaşdırmırıq". Başını tərpətdi; siqaret yandırıb şərab qədəhindən bir qurtum aldıqdan sonra dedi: "Heç yeniçərilər haqqında eşitmisənmi?". "Yox", – dedim. "Xristian oğlanlar idilər", – deyə o izah etməyə başladı: – "Osmanlılar tərəfindən əsir alınıb müsəlman ordusunda, o zamanın ən güclü ordusunda əsgər edilirdilər. Qəddar və tamamilə sadiq idilər; öz sivilizasiyalarını yer üzündən silmək üçün vuruşmuşdular, ona görə də üz tutacaq başqa bir yerləri yox idi".

Siqaretin külünü boşqabına tökdü. "Amerikaya gedəndə neçə yaşın var idi?", – soruşdu. "Universitetə getmişdim", – cavab verdim: – "On səkkiz yaşım var idi". "Böyük olmusan", – dedi: – "Yeniçəriləri həmişə uşaqlıqdan götürürdülər. Unuda bilmədikləri xatirələri olsaydı, özlərini qəbul edildikləri imperiyaya xidmətə həsr etməkdə daha çox çətinlik çəkərdilər". Gülümsədi və daha bu mövzu barəsində danışmadı. Yeməyimiz də gəldi və kaş ki balıq onun tərif etdiyi qədər dadlı olmuş olaydı; amma bədbəxtlikdən, dadını artıq xatırlamıram.

Lakin sizin ifadənizdən belə görünür ki, nəyinsə səhv olduğunu düşünürsünüz. Soruşursunuz, bu söhbət həqiqətən baş veribmi? Əslində, bu Xuan Batis-

T.me/Cinciva

ta həqiqətən mövcud olubmu? Sizi əmin edirəm, ser: mənə inana bilərsiniz. Yalan uydurmaq adətim yoxdur! Bundan əlavə də, bu hadisənin sizə danışdığım digər hadisələrlə müqayisədə daha çox uydurma olmasına da bir səbəb yoxdur. Yaxşı... yaxşı... məncə, biz artıq belə son bir mərhələdə suallar oyatmayacaq qədər çox hadisədən bəhs etmişik.

Xuan Batistanın sözləri məni dərin düşüncələrə qərq etdi. Bütün gecəni nəyə çevrilmiş olduğumu düşünərək keçirdim. Heç bir şübhə ola bilməzdi: həqiqətən də, müasir dünyanın yeniçərisi idim, mənimlə qohumluğu olan bir ölkəni işğal edən və ola bilsin ki, elə mənim öz ölkəmi də müharibəyə sürükləyən sözləşmə ilə məşğul olan Amerika imperiyasına xidmət edirdim. Əlbəttə, mübarizədə idim! Əlbəttə, özümü parçalanmış hiss edirdim! "Underwood Samson" adamlarına – imperiya zabitlərinə qoşulmuşdum, halbuki imperiyanın öz mənfəəti üçün həyatlarını alt-üst etdiyi Xuan Batista kimilərinə mərhəmətli olmağa daha çox meyilli idim.

Səhəri gün alov tonqalı ilə üzləşəcək bir adam davranışı ilə – yox, bu, yəqin ki, çox dramatik səslənir və bütün axşamların içindən məhz bu axşam üçün olduqca təhlükəli müqayisədir, amma məqsədimi anlayırsınız – vitse-prezidentə dedim ki, daha işləməkdən imtina edirəm. Çaşıb qaldı, – "İmtina edirəm" nə deməkdir?", – dedi. "Burada bir klonam", – deyə cavab verdim: – "Nyu-Yorka

T.me/Cinciva

qayıtmaq istəyirəm". Panika qalxdı; Cimlə təcili konfrans təşkil olundu. "Bura bax, bala", – Cim ona xas olmayan gərginliklə telefondan səsləndi: – "Bilirəm ki, başında cürbəcür fikirlər var. Lakin indi bu işdən çıxsan, şirkətimizin nüfuzuna ziyan vuracaqsan. Komandana ziyan vuracaqsan. Müharibədə əsgərlər, əslində. bayraqları uğrunda döyüşmür, Çingiz, dostları, yoldaşları, komandaları uğrunda savaşır. İndi sənin komandan da səndən qalmağını xahiş edir. Sonra fasilə istəsən, sənindir".

Qəbul etməliyəm ki, Cimin sözləri məni düşünməyə vadar etdi. Ona böyük hörmətim var idi; həmişə yanımda olmuşdu, mən isə indi ona xəyanət edirdim. Məni əvəz edəcək adam ayrılıb işləri sürətləndirmək üçün göndərilənə kimi dəyərləndirmənin təhvil tarixi keçmiş olacaqdı. Cimin məni göndərməsi bir inam və comərdlik göstəricisi idi; mənim buna cavabım şillə kimi və şirkətin bu maliyyə böhranında xüsusilə həyasız bir addım olacaqdı. Bundan başqa, işimdən savayı – artıq itirəcəyimdən tam əmin olduğum – vizamın da vaxtı keçəcəkdi, Birləşmiş Ştatları tərk etməyə məcbur olacaqdım. Lakin həmin vaxt bütün bunları düşünməməyə qərar verdim; düşünmək istəmirdim ki, Erika ilə olmaq ümidimi də itirirdim. Tək bildiyim o idi ki, diqqəti yalnız fundamentallıqlara yönəltmək vaxtım artıq keçmişdi. Ona görə də növbəti axşam, cədvəlimdən də iki həftə əvvəl Nyu-Yorka uçdum.

T.me/Cinciva

Ah, ofisiantımız yaşıl çay gətirir, ağır yeməyin həzmi üçün bu, mükəmməl bir yardımdır. Heyrətamiz xidmətdir, elə deyilmi? Lap lazım olan vaxtda gəlib çıxdı. Adamın ağlına da gəlməzdi ki, ser, o, bizə belə diqqətlə göz qoyur, amma artıq gecədən keçir deyə, onun diqqətini alacaq başqa müştərilər yoxdur.

11

İnsanların tərk etdiyi bir kütləvi məkanın xarakterinin dəyişməsi necə də qəribədir; tərk edilmiş əyləncə parkı, qapalı opera evi, boş hotel: filmlərdə bütün bunlardan qorxunc hadisələrin arxa fonu kimi istifadə olunur. Bu bazarla da belədir: bizim kimi baş çəkənlərin sayı azaldıqca, seyrəkləşdikcə bura məşum bir şəkil alır. Bu, bəlkə də, ara-sıra ay işığının süzüldüyü, yuxarıdakı buludlu səma ilə əlaqəlidir, ya da bəlkə, buradan uzanıb gedən ara küçələrdəki kölgələrlə, amma məncə, bizi ən çox narahat edən *tənhalığımızdır*, şəhərin ürəyində olduğumuz halda, tək-tənha qalmağımızdır. Ah! Budur, ser, qoxunu duyursunuzmu: bu ilıq mehdə gələn toz qoxusunu? Cənubdakı səhranın qoxusudur, tutqun işıqlı, tənha səhnədən keçəcək yabanı ot topasından xəbər verən bir qoxu.

Baxmayaraq ki, məni Santyaqodan Nyu-Yorka aparan uçuşun ab-havası tamamilə bunun əksinə idi – təy-

T.me/Cinciva

yarə demək olar ki, dolu idi – fikirlərim hazırda sizinlə olduğumuza bənzər bir yerdə idi. Bəli, fikirlərim tutqun idi. Düşünürdüm ki, Amerikanın dünyada özünü necə aparmasına həmişə nifrət etmişəm; ölkənizin dünyada baş verən bütün hadisələrə müdaxilə etməsi dözülməz idi. Vyetnam, Koreya, Tayvan boğazı, Mərkəzi Asiya, indi də Əfqanıstan: mənim ana vətənim olan Asiyada baş vermiş bütün əsas münaqişə və qarşıdurmalarda Amerika mərkəz rolunu oynayırdı. Bundan əlavə, bir pakistanlı olaraq öz təcrübəmdən bilirdim ki, maliyyə Amerika imperiyasının öz gücünü göstərdiyi əsas vasitədir. Bu dominantlıq layihəsində vasitəçi olaraq iştiraka etiraz etməkdə haqlı idim; yeganə təəccüb doğuran o idi ki, bu qərara gəlməyim üçün o qədər vaxt lazım olmuşdu.

Nyu-Yorka qayıdanda ətrafıma eks-yeniçəri – yəni Prinseton və "Underwood Samson" yetişdirməsinin analitik, lakin akademik və peşəkarın əsasən hissələrə diqqət yönəltmək məcburiyyətindən uzaq və bu səbəbdən də sizin cəmiyyəti bir bütöv olaraq təhlil etməkdə *azad* - gözləri ilə baxmaq qərarına gəldim. Bu cür baxıldıqda, imperiyanızın necə də ənənəvi görünməsi məni heyrətə saldı. Giriş axtardığım postda silahlı keşikçilər dayanmışdı; şübhəli irqdən olduğumdan karantinə alındım və təkrar yoxlanışa məruz qaldım; qəbul edildikdə, lazımi icazəsi olmadığından aşağı maaşlı işi qəbul etməyə məcbur edilən, təhkimli sinfinə məxsus bir arabaçı tutdum.

T.me/Cinciva

Mən özüm də qalmaq haqqı iş sahibimin xeyirxahlığının davam etməsindən asılı olan, bir növ müqaviləli qulluqçu idim. "*Təşəkkür edirəm, Xuan Batista*", – yatağıma uzananda düşündüm, – "*bütün bunları gizlədən örtüyü qaldırmağa yardım etdiyin üçün!*"

Lakin mən yəqin ki, xüsusi emosional vəziyyətdə, bir növ semi-hipnotik çaşqınlıq içərisində olmuşdum, çünki səhər oyananda hisslərim tamamilə fərqli idi. Yalnız onda əl çəkdiyim şeyin nəhəngliyini dərk etdim. Başqa harada – pul və ailə əlaqələri olmadan, bu gənc yaşımda – belə bir gəlir qazanmağa ümid edə bilərdim? Bu sehrli canlılığı və həyəcan hissi olan imkanlar şəhəri üçün darıxmayacaqdım? Bəs Erika qarşısında, ya da daha çox, ona olan arzumdan doğan, özümə qarşı borcum? Yaxşı, bəs Cimin üzünə necə baxacaqdım?

Nə vaxtsa böyük məhəbbətdən doğan romantik münasibətdə ayrılmaq təcrübəniz olubsa, mənim nədən keçdiyimi təsəvvür edə bilərsiniz. Belə vəziyyətlərdə, adətən, elə ehtiraslı anlar olur ki, ağla gəlməyən dilə gəlir; bunun ardınca, nəhayət ki, azadlıq eyforiyası başlayır; dünya təptəzə görünür, sanki ilk dəfə görürsən; sonra isə qaçılmaz şübhə, peşmanlığın çarəsiz və qədərə məhkum geriləməsi başlayır; yalnız bundan sonra – emosiyalar yatanda keçdiyin səyahəti soyuqqanlılıqla nəzərdən keçirmək mümkün olur. Mənim şübhə və peşmanlığım daha tez başladı, "Underwood Samsonda"kı son iş günümdə

T.me/Cinciva

metroya minərkən, bizim cinsin tez-tez etməyə meyilli olduğu kimi, dizinin burxulduğunu görən, amma hələ ağrını hiss etməyən bir adamın keçirdiyinə bənzər şokda idim.

Ona görə yox ki – xahiş edirəm məni başa düşün – səhv etdiyimə inanırdım, yox, sadəcə, səhv etmədiyimə inanmırdım. Başqa sözlə desək, beynim qarışmışdı. Buna baxmayaraq, qürurum imkan vermədi ki, məni bürümüş qəmginlikdən təsirləndiyimi göstərim. Nəzərlərimin təsirli – məni hansısa uca və eksklüziv məbədə bənzər parlaq fasadı ilə indiyə kimi heyrətə salan – girişdə ya da pəncərələrimizdən açılan möhtəşəm mənzərədə ləngiməsinə imkan vermədim; özüm icazə vermədim ki, nə vaxtsa yüzlərin arasından burada olmaq üçün seçilmişliyimi sübut edən, zərifliklə çap edilmiş vizit kartlarım olan qutunu götürüm. Sakitcə imkan yaratdım ki, yol göstərən iki təhlükəsizlik gözətçisi məni aparsın, onlar isə dayanıb azsaylı şəxsi əşyalarımı karton qutuya yığmağıma tamaşa etdilər, sonra da məni çıxış söhbət üçün insan resursları şöbəsinə kimi müşayiət etdilər.

Təəccüblü şəkildə qısa çəkdi – ciddi və qorxulu dərəcədə formal, amma ittihamsız – lazımi formalar imzalandıqdan və işə dair yüksəldici göstəricilərə uyğun məlumat toplandıqdan sonra mənə deyildi ki, Cim mənimlə danışmaq istəyir. O, qara kostyum və qara qalstuk geyinmişdi – dəfn rəngləri, düşündüm – və yuxusuz görünür-

T.me/Cinciva

dü. "Həqiqətən bizi batırdın, bala", – dedi. "Bilirəm", – cavab verdim: – "Təəssüf edirəm". "İş yerində mərhəmətə çox da inanmıram", – davam etdi: – "Amma söhbət səni qovmaqdan gedəndə heç tərəddüd etmədim. Əslində, kaş bunu bir ay əvvəl edib, özümüzü Valparaisoda bizə verdiyin başağrısından xilas edəydim. Lakin...", – fasilə verdi: – "Sənə bir şey deyəcəyəm. Səndən xoşum gəlir, Çingiz. Böhran keçirdiyini görürəm. Ürəyini boşaltmaq istəsən və danışmağa adam axtarsan zəng et, sənə pivə alım". Boğazım sıxıldı; cavab verə bilmədim, yavaşca başımı tərpətdim... baş əyirmiş kimi.

Cimin ofisindən çıxdıqdan sonra məni liftə yönəltdilər. Son – saqqallı və küsəyən – həftələrdə iş yoldaşlarımda necə dərin şübhə oyatdığımın fərqinə vardım; yalnız Vaynvrayt yaxınlaşıb sağollaşmaq üçün əlimi sıxdı; digərləri ya mənə tərəf heç baxmadı, ya da baxdılarsa da, bunu elə narahatlıqla etdilər ki, sanki işin ortasında işdən çıxmaq əvəzinə, onların hamısını öldürmək niyyətində olduğum üçün həbs edilsə idim, daha uyğun olardı. Gözətçilər yalnız binadan çıxdıqdan sonra məni tək buraxdılar. Bu zaman əlimin arxası ilə gözlərimi sildim, çünki yüngülcə yaşarmağa başlamışdılar.

Yadda saxlamalısınız ki, yalnız iyirmi iki yaşım vardı və bu mənim ilk sanballı işim olmuşdu; o yaşda və o şəraitdə adamda yəqin ki, hadisələr şişirdilmiş emosional rezonans doğurur. İstənilən halda, mənə elə gəlirdi ki, dün-

T.me/Cinciva

yanın sonudur – yəqin ki, elə belə də vardı – və piyada East Village istiqamətinə yol aldım. Məncə, bir az qəribə görkəmim vardı – Manhettenin içi ilə işarəsiz bir qutu daşıyan pərişan və qıllı bir pakistanlı – amma yoldan keçənlərdən hansısa yersiz söz eşitdiyimi xatırlamıram; ancaq olsa belə, fərqinə varmayacaq dərəcədə fikirli idim.

Mənzilimdə viski süzüb fikirli-fikirli oturdum. Hələ tez idi – gün yarı olmamışdı – ona görə də ailəmə zəng etməyə qərar verdim. Qardaşım cavab verdi. Dedi ki, göndərdiyim pulu alıb və işçilər artıq yeri qazıb xarab boruları çıxarıblar, sabaha kimi də onları dəyişdirəcəklər. Ona dedim ki, geri – Lahora köçməyi qərara almışam. Məni fikrimdən döndərməyə çalışdı; Hindistanla gərginlik artmaqda idi. Yenicə İslamabadda olmuşdu və dedi ki, xarici səfirliklərin işçiləri və QHT əməkdaşlarının ailələri ölkəni tərk edirlər. İzah etdim ki, ayrı seçimim yoxdur; "İşdən çıxarılmışam", – izah etdim: – "Tezliklə vizamın da vaxtı bitəcəkdir". Dedi ki, ailəm qeydimə qalacaq. Ona demədim ki, mənim *onların* qeydinə qalacağıma ümid edirdim və zəngdən sonra da bir müddət içkimi qarışdırmağa davam etdim.

Lakin sizin stəkanınız bir müddətdir boş qalıb. Hesabı istəyim? Əlimi yellədim və budur, gəlir. Soruşursunuz ki, nə qədərdir? Xahiş edirəm, narahat olmayın, siz burada qonaqsınız və... - kiçik bir rəqəmdir – mən ödəyəcəyəm. Yarısını ödəmək istəyirsiniz? Qətiyyən olmaz;

T.me/Cinciva

bundan başqa, burada biz ya hamısını ödəyirik, ya da heç ödəmirik. Sizin ölkənizə ilk gələndə tanışların hesabı bölməsinin mənə necə yad göründüyünü xatırladım. Mən qarşılıqlı səxavətin bu cür hallarda riyazi dəqiqlikdən üstün tutulduğunu öyrənərək böyümüşəm; vaxt verildikdə isə hesabı bərabərləşdirmək üçün ikisi də eyni dərəcədə uyğundur.

Lakin psixi xəstəxanaya çəkilməyi seçmiş sevgili ilə necə davranmaq lazım olduğunu öyrənməmişdim, ona görə də Erikaya e-mail yazmaq və gedib şəxsən görüşmək arasında qərarsız qalmışdım. Sonunda qərarın özü məni tapdı: ona e-mail yazmağa çalışdım, amma mesajım mənə geri qayıtdı – qeyd var idi ki, mesaj ona çatdırıla bilmır, çünki inboksu doludur – mən də maşın kirayələdim və xəbər vermədən klinikaya getdim. Qeydiyyat şöbəsində mənə dedilər ki, dəvətsiz qonaqlar qəbul edilmir – Erikanın orada olmasını nə təsdiq, nə də inkar edə bilirdilər – elə məndən getməyimi istəyirdilər ki, keçən dəfə görüşdüyüm tibb bacısını gördüm və köməyini xahiş etdim.

"Onunla mən danışacağam", – o məni kənara çəkərək qeydiyyatdakı tibb bacısına dedi. Tələşlı görünürdü, məndən xahiş etdi ki, əyləşim. "Nə bilirsiniz?", – soruşdu. "Nə haqqında nə bilirəm?", – deyə suala sualla cavab verdim. "Təəssüf edirəm", – dedi: – "Erika gedib". Ondan *gedib* deyərkən nəyi nəzərdə tutduğunu soruşdum və

T.me/Cinciva

tibb bacısı izah etdi. Erika təxminən iki həftə əvvəl – onu son dəfə gördüyümdən az sonra yoxa çıxmışdı. Klinikaya ilk gəldiyində tək qalmağı sevməz, saatlarla tibb bacıları, məsləhətçi və digər xəstələrlə vaxt keçirərdi, xüsusilə də mənimlə danışan tibb bacısı ilə. Lakin burada qaldığı son vaxtlar tez-tez tək gəzirdi, bir gün isə geri qayıtmamışdı. Paltarlarını Hudsona baxan daşlı təpədə səliqə ilə qatlanmış halda tapmışdılar.

"Demək istəyirsiniz ki, intihar edib?", – deyə soruşdum. "Qalıqlarını tapmayıblar", – tibb bacısı dedi: – "Qeyd də buraxmayıb. Texniki olaraq itkindir. Lakin hamı ilə vidalaşırdı". Mənə Erikanın atılmış ola bildiyi yeri göstərməsini xahiş etdim və biz o yerə getdik. Aşağıdakı buzlu axına çırpılmazdan əvvəl qarla tozlanmış iynəyarpaqlıların arası ilə qaçaraq, qranit qayadan atılıb havada süzərək, qüdrətli çayın, bacasından tüstü çıxan balaca bir evin olduğu, digər sahilinə nəzər salaraq intihar etmək üçün gözəl yer idi. Lakin Erikanın solğun, çılpaq bədəninin belə bir qövs cızdığını təsəvvür edə bilmirdim.

Ona görə də şəhərə qayıtdım və dərhal onun mənzilinə getdim. Erikanın anası makiyaj etməmişdi; qaşlarının görünməyəcək qədər nazik olduğunun fərqinə vardım. İzah etdim ki, klinikadan yenicə qayıtmışam; Erikadan bir xəbər varmı? Erikanın anası gözlərini mənə elə zillədi, sanki səbəbsiz yerə ona şillə vurmuşdum. "Xeyr",

T.me/Cinciva

– özünü ələ alaraq əzgin-əzgin dilləndi: – "Qorxuram, ondan heç bir xəbər yoxdur". "Xahiş edirəm, əmin olun ki, sizə köməyi dəyəcək hər şeyi etməyə hazıram", – dedim. "Təşəkkür edirəm", – məni içəri dəvət edərək cavab verdi. Dedi ki, fövqəladə hallar xidməti Erikanı axtarmaqda davam edəcək və yerli qəzetlərdə davamlı surətdə elanlar gedəcək; adamın bundan artıq edə biləcəyi çox şey yox idi. Əhəmiyyətsiz məsələlərdən söhbət etməyə çalışdıq, amma çətin idi – məndən necə olduğumu soruşduqda dedim ki, yenicə işdən çıxarılmışam; mən də eyni şeyi soruşduqda. sadəcə, solğun bir gülümsəmə gördüm – və biz beləcə, əsasən sakitcə oturduq. Lakin mən getməzdən əvvəl o, məncə, mehribanlıq əlaməti olaraq, iki şey etdi: birincisi, dedi ki, Erika ona mənim saqqalla daha dəliqanlı göründüyümü söyləyib; ikincisi, mənə Erikanın əlyazmasını verdi, "Bəlkə", – dedi, – "bunu oxumaq istədiniz".

Bunu təxminən bir həftə edə bilmədim; eləcə, televizorumun üstündə qaldı. Bu müddət ərzində Erikadan bir işarə gözlədim – e-mail, telefon zəngi, səs – heç nə gəlmədi. Şəhərdə –onun məni apardığı yerlərdə gəzib dolaşdım, onu, ya da bizə aid bir şeyləri görəcəyimə ümid edirdim... bilmirəm. Bu yerlərdən bir neçəsini – ilk görüşümüzdən əvvəlki gecə getdiyimiz Chelseadəki qalereya kimi – tapa bilmədim, yox olmuşdular, sanki heç mövcud olmamışdılar. Digərləri, Mərkəzi Parkda

T.me/Cinciva

piknikə getdiyimiz yer kimi qalırdılar, amma elə bil, dəyişmişdilər. Bəlkə, fəslin dəyişməsi ilə, bəlkə də, şəhərin dəyişkən təbiəti ilə əlaqədar idi.

Erika ilə sentyabrda – Dünya Ticarət Mərkəzinə hücumdan sonra, münasibətimizin lap əvvəli sayılacaq vaxtdakı bir görüşümüzü xatırlayırdım. Baxmayaraq ki, adətən, yayın sonu və yaxınlaşan payızın gəlməsi ilə əlaqələndirilir, sentyabr mənə həmişə yeni başlanğıclar, bir növ *yaz* kimi görünüb – ola bilsin, akademik ilin başlanğıcı olduğu üçün. Nyu-Yorkdakı həyatıma sentyabrda baş vurmuşdum, gələcəyə dair optimist xəyallarla dolu idim. Bir dəfə Erika ilə Union Square boyu gəzərkən, atəşböcəyi görmüşdük. "Bax", – heyrət içərisində demişdi, –"binalarla yarışmağa çalışır". Həqiqətən də, belə idi: ən yaxın məsafədən baxdıqda binaların parlaqlığı içərisində o, boğulan yaşıltəhər bir şölə idi. Onun on dördüncü küçəni keçib cənuba tərəf yol almasına baxmışdıq. Erika qarşımda dayanmışdı, başını sinəmə söykəmişdi, qollarımla onu sarmışdım, ovuclarım qarnında idi. Məhrəm bir hərəkət idi – hamilə yoldaşı ilə dayanmış gələcək ata kimi – və Erika mənə söykənmişdi. Nəfəs aldıqca əzələlərinin hərəkətini hələ də hiss edə bilirəm. Yanımızdan bir taksi şütümüş və biz atəşböcəyini gözdən itirmişdik. "Səncə, gedə bildi?", – deyə o soruşmuşdu. "Bilmirəm", – demişdim, –"ancaq ümid edirəm ki, bacardı".

T.me/Cinciva

Onun yoxa çıxmasından sonra keçən günlərimdə bu cür düşüncələrə dalaraq gəzirdim, onlar yuxularıma da nüfuz edirdi; həmin dövrdə yuxular onunla yeganə əlaqə formam idi. Lakin sonda anasının mənə verdiyi əlyazmanı oxudum. Boynuma almalıyam ki, bunu etməyə qorxurdum – sanki Erikanın səsini eşidə biləcəyim son dəfə ola bilərdi – və o səsin nə dəyəcəyi fikri əsəblərimi tarıma çəkirdi. Lakin Erikanın povesti əzab dolu, avtobioqrafik bir yazı deyildi. O, sadəcə, adada yaşamağı öyrənən kiçik bir qızın macərası haqqında nağıl idi. Təhkiyə ümid saçırdı və zəif olsa da, tez-tez detala da dalırdı: misal üçün, yerə düşmüş bir meyvənin qabığı və ya axındakı xərçəngin yellənən bığcıqları kimi.

Yazdıqlarının ritmində Erikanı tapa bilmədim; sanki səhv idi, mənə heç bir ipucu vermirdi. O qədər məqsədli və qətiyyətli görünürdü ki, məni çaşdırırdı. Mənə güclü təsir də etmişdi. Əlyazmanı əlimdən qoyanda Erikanın sağ və ya ölmüş olduğuna dair heç bir fikrim yox idi. Lakin anlamağa başlamışdım ki, Erika mənim hekayəmin bir parçası olmamağa qərar vermişdi; özününkü daha güclü görünmüşdü – həmin vaxt, öz yolu ilə - və hekayəsinin sonuna getməkdə, mənim çata bilmədiyim yerlərə keçməkdə idi. Vida etmək üçün hazırlıqlarıma başlamaqdan savayı bir yol görmədim.

Çox istəyərdim Nyu-Yorkda keçən son günlərimin sakit olduğunu deyim; heç nə həqiqətdən bu qədər uzaq

T.me/Cinciva

ola bilmər. Mən qəzəbə bürünən, depressiyaya batan, pərişan və emosional bir dəli idim. Bəzən yatağımda uzanıb dairəvi hərəkət edən fikirlərə dalır, Erikanın niyə və hara getdiyini soruşurdum: arabir küçələrdə dolaşır, saqqalımı provokasiya üçün gözə soxur, mənə qarşı gələcək hər hansı bir adamla münaqişəyə girmək üçün can atırdım. Hər yerdə təhqir edən tapılırdı; tarixin o mərhələsində sizin ölkənizdən yayılan - tək dövlətdən yox, həm də mediadan və tənqidçi jurnalist adlandırılanlardan gələn - ritorika mənim qəzəbimi daim hazır yanacaqla təmin edirdi.

Onda mənə elə gəlmişdi ki – sözün düzü, ser, elə indi də elə gəlir – Amerika yalnız poza verməklə məşğuldur. Bir cəmiyyət olaraq, sizə hücum edənlərlə sizi birləşdirən ağrını dərk etməkdə acız idiniz. Öz fərqlilik miflərinizə, öz üstünlük fərziyyələrinizə qapılmışdınız. Bu inamlarınızı da dünya səhnəsində elə oynayırdınız ki, bütün dünya sizin sinirinizin əks-səsasından silkələnirdi, elə mənim minlərlə mil uzaqda müharibə təhlükəsi ilə üz-üzə qalmış ailəm kimi. Belə bir Amerikanın qarşısını almaq həm insanlıq, həm də sizin öz maraqlarınız üçün lazım idi.

Belə də etməyə qərar verdim, bacardığım qədər. Lakin əvvəlcə çıxıb getməli idim. Soyuq, aydın bir günorta, klinikaya səfərimi və o uçurumdan Hudsona açılan mənzərəni xatırladan bir günorta, JFK hava limanına

T.me/Cinciva

yola düşdüm. Erikanı paltarlarını çıxararaq, keçmişini tökərək, onu tapıb evinə aparan, yemək verən mehriban bir qadınla rastlaşana kimi meşənin içi ilə gəzişən təsəvvür etdim. O gəzintidə necə də üşüdüyünü təsəvvür etdim. Ona görə də Pakistana getməzdən əvvəl son jestim Erikaya istilik arzusu olaraq, gödəkcəmi bir sədəqə kimi səkidə qoydum – adamın ölülər üçün qoyduğu çiçəklər kimi yox, daha çox canlıların başı üstündə hərlədilən rupi kimi. Lakin sonra terminalın pəncərəsindən baxanda gördüm ki, təhlükəsizlik həyəcanına səbəb olmuşam və bu zaman əsəb içərisində başımı yellədim.

Soruşursunuz ki, Amerikanın qarşısını almaq üçün dəqiq nə etmişəm? Həqiqətən, heç bir fikriniz yoxdur, ser? Tərəddüd edirsiniz - heç qorxmayın, güc yolu ilə cavab alacaq qədər kobud deyiləm. Etdiklərimin çox olmadığına və yəqin ki, sizin gözləntilərinizi qarşılamayacağına baxmayaraq, danışacağam. Lakin gəlin əvvəlcə bu bazardan çıxaq: qapılar bağlanır və ətrafımızda bəzi xoşagəlməz tiplər dolaşır. Harada qalırsınız? Deyirsiniz Pearl Continentalda? Sizinlə gəzəcəyəm. Yox, uzaq deyil və gedəcəyimiz yolların bir hissəsi tərk edilmiş olsa da, bizə heç bir şey olmayacaq. Lahor, əvvəl də dediyim kimi, kiçik, cinayətləri olmayan bir şəhərdir – həm də ikimiz də qoçuları dayandıracaq qamət və görünüşə malikik.

T.me/Cinciva

Arxaya baxmanızdan bilirəm ki, ser, getmək arzusunda olanların tək biz olmadığımızın fərqindəsiniz. Bəli, çox diqqətli olan, amma niyəsə sizə şübhəli görünən ofisiantımız kimi, digərləri də bizdən arxadakı Mall küçəsinə tərəf yol almaqdadırlar. Burada təəccüblü heç nə yoxdur; axşam işi artıq yekunlaşıb. Əvəzində nəzərlərinizi bu gözəl – fərqli dərəcələrdə təmirə ehtiyacı olan – Britaniya dövründən qalan, coğrafi və arxitektura nöqteyi-nəzərindən şəhərin qədim və müasir hissələri arasında əlaqə rolunu oynayan binalara yönəltmənizi təklif edərdim. Necə də valehedicidir: əczaxana, əla sari tədarükçüsü, kişi dərzisi. Lövhələrdə *ata* və *oğul* sözlərinə necə də tez-tez rast gəldiyimizə fikir verin; bunlar nəsildən-nəslə ötürülən ailə müəssisələridir. Yox, sizin də haqlı olaraq qeyd etdiyiniz kimi, o silah və sursat satıcısı bu qəbilədən deyil – amma razılaşmalısınız ki, onlar əsasən cazibədar və bir o qədər də qəribədirlər.

Bu kəskin konturları və sıxılmış fasadları olan plazalar tamamilə başqa məsələdir; onlar tarixi qorunma instinkti ön plana keçməzdən əvvəl, əsasən səksənlərdə, doxsanlarda tikilib və bu ərazinin səthini dəridəki qıcıqlanma kimi ləkələyir. Onları xüsusilə gecələr xoşagəlməz hesab edirəm – işıqsız və boş, adamın kimsə tərəfindən sürüşdürülüb birdəfəlik yox ola biləcəyini təsəvvür etdi-

T.me/Cinciva

yi o dar keçidlərlə bağlanmış vəziyyətdə! Bəli, siz tamamilə haqlısınız, hələ xeyli yolumuz var.

The Legend of Sleepy Hollow ilə tanışsınızmı? Deyirsiniz, filmi görmüsünüz? Mən görməmişəm, amma əminəm ki, filmi də əsəri əhatə edib; əlbəttə ki, nəsr əsəri çox güclü əsərdir. Adam başsız atlının yanında olduğunu hiss etdikdə atında oturmuş tənha İçabod Kreynin qorxusunu hiss etməyə bilmir. Boynuma alım ki, gecə gəzintilərinə çıxanda, bəzən o xəyali at ayağı taqqıltısını xatırlayıram. Onda ürəyim necə də sürətlə döyünür! Lakin aydındır ki, siz mənim bu düşüncələrimdən aldığım zövqü paylaşmırsınız; əslində, əndişəli görünürsünüz. Onda icazə verin, mövzunu dəyişim....

Sizə, ser, Amerikanı *necə* tərk etdiyimi danışırdım. Mənim təcrübəmdəki həqiqət bu, ilk baxışda sadə görünən faktı mürəkkəbləşdirir; Pakistana qayıtmışdım, amma sizin ölkədə məskunlaşmam tamamilə kəsilməmişdi. Erika ilə emosional şəkildə bağlı qalmışdım və onun bir hissəsini də özümlə Lahora gətirmişdim – ya da belə demək daha dəqiq olar ki, öz şəhərimdə tapa bilmədiyim hansısa hissəmi Erika ilə qoyub gəlmişdim. Hər nə olursa-olsun, bunun təsiri ilə daim əhvali-ruhiyyə dəyişikliyi hiss edirdim; matəm dalğaları məni ağuşuna alır, bəzən xarici stimullar səbəbindən hüzn və peşmanlıq yaranır, bəzən də buna səbəb daha yaxşı dünya istəyən daxili *axınlar* olurdu. Özəyimdəki gözəgörünməz ayın

T.me/Cinciva

cazibəsinə cavab verdim və heç gözləmədiyim səyahətlərə baş vurdum.

Misal üçün, tez-tez heç bir dəqiqə də yatmadan, dan yeri sökülənda yerimdən qalxardım. Bundan əvvəlki saatlarda Erika ilə mən bütöv bir günü birlikdə yaşamış olardıq. Mənim yataq otağımda oyanıb valideynlərimlə səhər yeməyi yemiş, iş üçün geyinmiş, duşda bir-birimizi nəvazişlərə qərq etmiş, skuterlərimizi götürüb kampusa yola düşmüş olardıq və yolboyu başının başıma toxunduğunu hiss edərdim; fakültə dayanacağında ayrılardıq və ətrafda ötüb keçən tələbələrin ona zillənmiş baxışlarına həm əylənər, həm də hirslənərdim, çünki bilməzdim ki, o baxışların neçəsi onun gözəlliyinə, neçəsi isə yadelliliyinə zillənir; Kral məscidinin yanında, ay işığında üzən açıq havada baha olmayan, amma ləziz şam yeməyi yeyərdik; işdən, havadan və ya uşaq sahibi olmağa hazırlıqdan danışardıq; mən onun urdu dilində, o isə mənim kurs planımda düzəlişlər edərdi; yatağımızda, tavandan asılmış sərinkeşin vızıltısı altında sevişərdik.

Bundan heç də az canlı olmayan, daha sürətli yollarla da yerdəyişmə edərdim. Yadımdadır, bir dəfə musson yağışları yağan vaxt yolun kənarında, bir yük maşını təkərinin izində palçıqlı bir gölməçənin yaranmasına baxırdım. Yağış damlaları bu balaca gölün kənarlarını doldurduqca ortada bir daşın qalxdığına diqqət etdim, lap ada kimi və Erikanın belə bir səhnəyə baxmağa necə sevinəcəyini dü-

T.me/Cinciva

şündüm. Buna bənzər başqa bir hadisə də yadımdadır: Skuterimdə qəza keçirəndən sonra evə qayıdıb köynəyimi çıxaranda döş qəfəsimin üstündə, vaxtilə onunku olan yerdə göyərmə görmüşdüm. Güzgüdə özümə baxıb barmaqlarımı qançıra toxundurmuş və arzulamışdım ki, o, tez yox olmasın, belə olması isə qaçılmaz idi.

Bu səfərlərdən sonra inandım ki, sərhədləri bir dəfə dolaşdıqdan və münasibət quraraq başqaları üçün əlçatan olduqdan sonra təkrar bərpa etmək hər zaman mümkün deyil: nə qədər çalışsaq da, əvvəl olduğumuzu zənn etdiyimiz avtonom formanı təkrar bərpa etmək iqtidarında olmuruq. Çöldən nə isə içəri keçir, içəridən nə isə çöldə qalır. Ola bilsin, sizin bununla müqayisəyə gələn bir təcrübəniz olmayıb, çünki mənə çılğın bir dəliyə baxırmış kimi baxırsınız. Demirəm ki, hamımız *eyniyik*, amma – tezliklə sizə də aydın olacağı kimi – adamın özünü ziyandan qorumaq üçün divarlar hörməsinə qarşı deyiləm; sadəcə, qayıdarkən davranışımın müəyyən aspektlərini izah etmək istəyirdim.

Heç də kiçik olmayan maliyyə çətinliklərimə baxmayaraq; hər il *Princeton Alumni Weekly* almaq üçün ödəniş etməyi bacarırdım, sinif qeydləri və sonda verilən nekroloqlara xüsusi diqqət yetirərək başdan-başa oxuyurdum; ara-sıra tanış adlara rast gələr və arxada qoyub gəldiyim həyatın bu kiçik dəliklərinə gərgin-gərgin göz qırpırdım, o dünyanın adamlarının – Yunanıstana birgə səfər etdi-

T.me/Cinciva

yim adamlar kimi – necə yaşadığını düşünürdüm. Lakin Erika o səhifələrdə heç vaxt gözə dəymədi, onun haqqında qeydin beynəlxalq poçt şıltaqlıqları üzündən gözümdən yayınması ehtimalı da vardı, amma onun hər epizodda olmamağından da eyni dərəcədə ümidə və hüznə qapılırdım.

Bilmirəm nəyi tapacağıma ümid edirdim – romanın çap olunduğu və Erikanın kitab təqdimatında ortaya çıxıb dostlarını həyəcanlandırdığı haqqında bir qeydimi? Cəsədinin tapılması haqqında son bir elanımı? Bir araya gəlib çəkilmiş şəkildə onunku ola biləcək bulanıq bir sifətimi? Lakin bir şeyi dəqiq bilirəm ki, vaxt ötsə də, axtarmaq həvəsim azalmırdı. Bir neçə ay – onun e-maili aktivliyini dayandırana kimi ona yazmağa davam etdim; ondan sonra onun yoxa çıxmasının ildönümündə, ildə bir məktuba qədər azaltdım, amma məktublar həmişə açılmadan üstümə qaytarıldı.

Qardaşım keçən aprel – mənim iyirmi beş yaşım tamam olandan az sonra evləndi. Bundan sonra anam – artan bir tezliklə – mənim də eyni şeyi etməyimi məsləhət görməyə başladı; inanırdı ki, xəstə bir melanxoliyaya qapılmışam və əmin idi ki, öz ailəmin olması həyatdan ləzzət almağın ən yaxşı yoludur. Həm də düşünürdü ki, işdə ya da kənarda təklikdə daha çox vaxt keçirirəm, dostlarımla isə az. Hətta bir dəfə açıq-aydın bir əsəbiliklə soruşdu ki, mən gey deyiləm ki. Ona Erika haqqında

T.me/Cinciva

danışmamışdım və vaxt keçdikcə bunu etməyi düşünməyin daha da çətinləşdiyini görürdüm; münasibətimiz başımda davam edirdi və bunu anamla müzakirə etmək – boynuma alıram ki, mənim öz şəxsi marağım üçün – reallığın bu münasibətə vuracağı, aradan qaldırıla bilinməyəcəyi ziyanını gözə almaq olardı. Əlbəttə, demirəm ki, hazırda Erika ilə münasibətim olduğuna, ya da bir gün belindəki çantanın ağırlığı altında əyilərək qapımda gülümsəyib mənə sürpriz edəcəyinə həqiqətən *inanıram*. Lakin gəncəm və başqa biri ilə evlənməmə ehtiyac yoxdur, gözləməkdən isə məmnunam.

Bəli, ser, siz ki qaçmağa hazır görünürsünüz, sizi belə diksindirən nədir? Uzaqdan gələn o səs? Sizi əmin edirəm ki, bu, tapança səsi deyildi – niyə belə düşündüyünüzü anlaya bilirəm – sadəcə, keçib gedən rikşanın hava borusu idi. Onların, adətən, motorları yaxşı vəziyyətdə olmur və belə səslər çıxarır. Çox narahatedici səsdir, razıyam. Nə? Bizi kimsə izləyirmi? Heç kimi görə bilmirəm – yox. Bir dəqiqə, siz ki dediniz, mənim də orada, zülmətdə bir neçə fiqur gözümə dəyir. Yaxşı, Mall küçəsində, hətta belə gec saatlarda da tək olacağımızı gözləyə bilmərik. Çox güman ki onlar evlərinə gedən işçilərdir.

Bəli, haqlısınız: ayaq saxladılar. Nə demək istəyirsiniz, ser, onlara işarə verdimmi? Qətiyyən! Mənim də sizin kimi onların kimliyi barədə məlumatım yoxdur.

T.me/Cinciva

Adamın ağlına yalnız o gəlir ki, ya nə isə yerə salıblar, ya da söhbətə dalıblar. Bəlkə, onlar da *bizim* niyə ayaq saxladığımızı və onlara qarşı hansısa pis niyyətdə olub-olmadığımızı düşünürlər! Bu qədər narahat olmağımıza əsas yoxdur; gəlin gecəyarı gəzintimizi davam etdirək. Lahor səkkiz milyon insanın şəhəridir, hər şey bir tərəfə: heç də xəyalatların məskən saldığı bir kənd deyil.

Yaxşı ki, davam etməyə razısınız. Bəs nə axtarırsınız? Ah, sizin qeyri-adi cib telefonunuz. İş yoldaşlarınıza mesaj göndərirsinizsə, bəlkə, hoteldən çox uzaq olmadığımızı bildirmək istəyərsiniz – haradasa on beş dəqiqə qalıb, yəni mən də hadisələri müəyyən bir sonluğa gətirmək istəyirəmsə, tələsməliyəm. Biz az əvvəl məndən Amerikanın qarşısını almaq üçün nə etdiyimi soruşdunuz. İcazə verin, indi birlikdə keçirdiyimiz vaxtın sonuna gəlmişkən, sizə cavab verməyə çalışım, amma sizi məyus edə də bilərəm.

Nyu-Yorkdan qayıtdığım ilin yayında Hindistanla müharibə təhlükəsi son həddə çatdı. Hər iki sərhədin içərisindəki çoxmillətli şirkətlər əsas işçilərinin ölkəni tərk etmələrini istədilər və "birinci dünya"nın səyahət şirkətləri vətəndaşlarını bizim regiona vacib olmayan səfərlərdən çəkinməyə çağırdı. Sanki düşmənçiliyin rəsmi olaraq başlanmasına yeganə əngəl hava şəraiti idi: birincisi, Hindistanın səhrada hücum edə bilməyəcəyi qədər isti vardı, ikincisi, musson yağışları üzündən Hin-

T.me/Cinciva

distan tanklarını Pəncabda sürmək təhlükəli idi. Kəşmir dağlarının keçidləri oktyabrda qarla qapandığından, hücum üçün ən əlverişli vaxt sentyabr ayı hesab olunurdu. Beləliklə, sentyabr keçdikcə gözləməyə davam etdik – sizin ölkənizdə medianın bütün diqqəti Nyu-York və Vaşinqtona edilən hücumların ildönümündə olduğu üçün bizə çox da fikir verən yox idi – sonra isə günlər qısaldı, sövdələşmələr inkişaf etdi və on milyonlarla insanın həyatına son qoya biləcək fəlakətin başvermə təhlükəsi azaldı. Əlbəttə, insanlıq üçün yaranan fasilə qısa sürdü: altı ay sonra İraqın işğalı başlayacaqdı.

Bu münaqişələri birləşdirən ümumi bir tel yaranırdı – Amerikanın kiçik bir zümrəsinin, əsgər forması geyinməmiş qatillər tərəfindən sadə vətəndaşların mütəşəkkil və siyasi motivasiyalı qətlini nəzərdə tutan terrorizm əleyhinə mübarizə maskası altında irəliləməsi konsepsiyası. Başa düşdüm ki, bu konsepsiya irqimiz üçün yeganə öncəlik daşıyırdısa, ərazisində bu cür qatillər yaşayan torpaqlarda məskunlaşmış olanların həyatının ikinci dərəcəli ziyandan savayı bir əhəmiyyəti qalmırdı. Bu, məncə, Amerikanın Əfqanıstan və İraqa bu qədər ölüm gətirdiyinə və Hindistandan taktiki olaraq istifadə edərək, bundan da artıq ölüm riskinə yol verərək, Pakistanı təzyiq altında saxlamasına haqq qazandırırdı.

Bu müddət ərzində universitetdə müəllim kimi işləməyə başladım və ölkəmin sizin ölkə ilə əlaqələrini

T.me/Cinciva

kəsməsini kampusda təbliğ etməyi öz missiyam hesab etdim. Tələbələrim arasında məşhur idim – bəlkə, gənc olduğum üçün, bəlkə də, mənim maliyyə mühazirələrimdə onlara ötürdüyüm eks-yeniçəri qabiliyyətlərimin praktiki xeyrini gördükləri üçün – və onları Pakistana daxili və xarici siyasətdə daha çox azadlıq tələb edən nümayişlərdə iştirakın məziyyətlərinə inandırmaq çətin deyildi. Bu yığıncaqlarımız xəbərə dəyəcək dərəcədə böyüdükdə xarici media tərəfindən "anti-Amerika nümayişləri" adlandırıldı.

Diqqəti cəlb etmək üçün etdiyimiz ilk nümayiş olduğumuz bu yerdən çox da uzaqda deyildi. Ölkənizin səfiri şəhərdə idi və biz şüarlar səsləndirərək, plakatlar tutaraq onun çıxış etdiyi binanı əhatə etdik. Sayımız minlərlə idi, burada hər cür mənsubiyyətdən olan adam vardı – kommunistlər, kapitalistlər, feministlər, dini ədəbiyyatçılar – getdikcə vəziyyət nəzarətdən çıxdı. Heykəllər yandırıldı, daşlar atıldı və sonra da formalı və mülkü geyimli polislər bizə həmlə etdi. Əlbəyaxa dava başladı, mən də birinə qarışdım və nəticədə, bir gecəni qanamış dodaq və göyərmiş yumruqlarla həbsxanada keçirdim.

İş saatlarım siyasi görüşlü gənclərlə o qədər doldu ki, tez-tez axşam yeməyindən xeyli keçmişə kimi, məni axtaranların bütün kurikulum və ekstra-kurikulum tələblərini qənaətbəxş səviyyədə cavablandırana qədər qalmalı olurdum. Təbii ki, bu qadın və kişilərin çoxunun müəl-

T.me/Cinciva

liminə çevrildim: onlara yalnız yazıları və mitinqləri ilə bağlı deyil, həm də könül işləri və bir çox başqa geniş məsələlərdə məsləhət verirdim – aludəçilik reabilitasiyasından tutmuş ailə planlanması, dustaqların haqları və döyülmüş həyat yoldaşlarının sığınacaqlarına kimi.

Sizə yalandan deməyəcəyəm ki, bütün tələbələrim mələk idi: çoxu adi quldurdan savayı bir şey deyildi. Lakin illər ərzində insanları asanlıqla oxumağı öyrənmişəm – deməsəm olmaz ki, bu *mənim* əvvəlki müəllimim Cimdən öyrəndiklərimə əsasən formalaşmış bir bacarıqdır – və heç yanılmadığımı iddia edə bilməsəm də, məncə, belə deməyim düzgün olar ki, adamların xarakteri haqqında duyğularım ümumən çox yaxşıdır. Mən, adətən, deyə bilirəm, misal üçün, kütlənin içərisində kim zorakılığa daha meyilli görünür və ya iş yoldaşlarımdan hansı dekana məndən şikayət edə bilər ki, fəaliyyətim cızığından çıxana kimi mənə yerimin göstərilməsi vacıbdir.

Bir neçə dəfə rəsmi xəbərdarlıq almışam, amma kurslarıma tələb o qədər böyükdür ki, indiyə kimi uzaqlaşdırılmamışam. Birdən elə bilərsiniz ki, təhsillə maraqlanmayan, cinayətkar gənclərlə əlbir, kampus fraksiyalarını qarətçi dəstə kimi idarə edən *o tip* müəllimlərdənəm. Diqqətinizə çatdırım ki, cəlb etdiyim tələbələr zəkalı, idealist, həm mərifətə, həm də ambisiyaya malik elm əhlidir. Bir-birimizə "yoldaş" deyirik – eyni düşüncəli hesab etdiyimiz hər kəsə də – lakin bizi bunun əvəzinə

T.me/Cinciva

xeyirxahlar adlandırmağa da tərəddüd etməzdim. Buna görə də onlardan birinin, kasıb ucqar ərazilərimizin inkişafına yardım cəhdi edən koordinatorunuza sui-qəsd planlaşdırmaq ittihamı ilə həbs olunması xəbərini dərin çaşqınlıqla qarşıladım.

Deyilən sui-qəsd haqqında məlumatım yox idi – mərhəmət vasitəçisinin hədəfə alınması inanılmazdır – amma əmin idim ki, haqqında söhbət gedən oğlan səhvən əlaqəli hesab olunurdu. Soruşursunuz ki, məlumatım yox idisə, necə əmin ola bilərdim? Deməliyəm ki, ser, siz qətiyyətli şəkildə düşməncəsinə və günahlandırıcı bir ton seçmisiniz. Sizi əmin edirəm ki, mən zorakılığa qarşıyam; qan tökülməsinə qarşıyam, özünümüdafiədən savayı. Soruşursunuz ki, bəs özünümüdafiəni hansı genişlikdə təyin edirəm? Heç bir genişlikdə! Mən qatillərlə müttəfiq deyiləm, sadəcə, bir universitet müəllimiyəm.

Üz ifadənizdən görürəm ki, mənə inanmırsınız. Fərq etməz, mən sözlərimdəki həqiqətə əminəm. Oğlanın özündən soruşmaq qeyri-mümkün idi, çünki yoxa çıxarılmışdı – şübhəsiz ki, gizli saxlama mərkəzinə, sizin ölkənizlə mənimki arasında olan qanunsuz limboya qaçırılmışdı. Mən dəfələrlə ifadə verdiyim kimi, onunla xüsusi olaraq tanış deyildim, amma utancaq gülüşünü və maliyyə axını hesabatlarına qabiliyyətini xatırlayırdım və onun davranışı ətrafındakı müəmma məni qəzəbə bürüyürdü. Kampusumuza beynəlxalq televiziya xəbər şə-

T.me/Cinciva

bəkəsi gələndə onlara demişdim ki, heç bir ölkə Amerika qədər asanlıqla başqa ölkələrin əhalisini ölümə düçar etmir, uzaqlardakı insanları qorxuya salmır. Ola bilsin ki, bu mövzuda istədiyimdən də artıq inandırıcı olmuşdum.

Sonra ağlıma gəldi ki, ümidsizliyimi ifadə etməkdən savayı, həm də özümə diqqəti cəlb etmək istəyirdim; mən öz yolumla, qitələr və sivilizasiyalararası sərhədləri aşacaq parlaqlığa malik bir işıldaböcək şöləsi yarada bilmişdim. Erika baxırdısa – məntiqli olaraq bilirdim ki, o, dəqiq baxmırdı – məni görə və təsirlənib mənimlə əlaqə saxlaya bilərdi. Bu baş vermədikdə isə itkinin gizli meyilləri məni narahat etməyə başladı. Lakin qısa müsahibəm əks-səda doğurmuşdu: günlərlə təkrar-təkrar efirə gedirdi və onu hətta indi də terrorla müharibə montajlarında görmək olur. Böyük təsir oyatdığından, yoldaşlarım mənə xəbərdarlıq edirdi ki, Amerika bu sərt düşüncələrimə reaksiya olaraq məni qorxutmaq və ya daha pis bir şey etmək üçün öz elçisini göndərə bilər.

O vaxtdan bəri Körtzü gözləyən Marlou kimiyəm. Heç nə dəyişməyibmiş kimi normal yaşamağa cəhd edirəm, amma izləndiyimi hiss edərək fasilələrlə paranoyyadan əziyyət çəkirəm. Hətta dəyişik rutinlər yaratmağa çalışıram – misal üçün, işə getmə saatlarımı və ya keçdiyim yolları dəyişərək – amma anlamağa başlayıram ki, bunun heç bir mənası yoxdur. Üzləşmə vaxtı çatdıqda

T.me/Cinciva

taleyimlə qarşılaşmalıyam və ona qədər heç bir panik olmadan davranmalıyam.

Hər şeydən də çox, indi sizin etməkdə olduğunuzu etməməliyəm, yəni çiyinlərim üstündən arxama baxmamalıyam. Mənə elə gəlir ki, daha söhbətimə qulaq asmırsınız: ola bilsin mənim inadkar bir yalançı olduğuma əminsiniz, ya da sizə elə gəlir ki, bizi izləyirlər. Həqiqətən, ser, bir az rahatlasanız, yaxşı olar. Bəli, o adamlar daha da yaxınlaşırlar və bəli, o adamın üzündə təsadüfə bax: bu ki bizim ofisiantımızdır; məni tanıyıb başını tərpətdi – həqiqətən qəddar bir ifadə vardır. Lakin sizə bir ziyan vurmaq fikrində deyillər, sizi əmin edirəm. Aydın görünən bir şeyə oxşayır, amma deməliyəm ki, biz pakistanlıların hamısının potensial terrorçu olduğunu təsəvvür etməməlisiniz, elə biz də siz amerikalıların gizli qatil olduğunuzu düşünməməliyik.

Ah, sizin hotelin darvazalarına çatmaq üzrəyik. Ola bilsin ki, bizim ofisiantımız da sağollaşmaq istəyir, çünki addımlarını sürətləndirir. Bəli, mənə əl edir ki, sizi saxlayım. Bilirəm ki, fikirlərimdən bəziləri sizə mənfur görünür; ümid edirəm əlinizi sıxmağıma etiraz etməyəcəksiniz. Bəs əlinizi niyə gödəkcənizə uzadırsınız, ser? Metal parıltısı sezirəm. Sizinlə aramızda müəyyən bir məhrəmlik bağı yarandığı üçün inanıram ki, bu sizin viza kartlarınızın qutusunun parıltısıdır...

T.me/Cinciva

Mohsin Hamid – Mohsin Hamid 1971-ci ildə anadan olub. Pakistanlı yazıçıdır. Pəncabi və Kəşmir əsilli ailədə anadan olub, uşaqlığının bir hissəsini ABŞ-də keçirib. Prinston Universitetində təhsil alıb. Daha sonra Harvard Hüquq məktəbində oxuyub. Nyu-Yorkda "McKinsey & Company"də menecment kimi fəaliyyət göstərib.

2001-ci ilin yayında Londona köçdü, əvvəlcə cəmi bir il qalmaq niyyətində idi. Yazmaq üçün tez-tez Pakistana qayıtsa da, səkkiz il Londonda yaşamağa davam etdi və 2006-cı ildə Birləşmiş Krallığın ikili vətəndaşı oldu.

Həmidin ilk romanı "Moth Smoke" nüvə sınağından sonra Lahorda marixuana çəkən keçmiş bankirin ən yaxın dostunun arvadına aşiq olub heroin aludəçisi olmasından bəhs edir. 2000-ci ildə nəşr olunan kitab qısa müddətdə Pakistan və Hindistanda çox məşhur oldu. Bu əsərə görə ABŞ-də ən yaxşı ilk romana verilən Heminquey Mükafatının finalçısı olub və roman Pakistanda televiziya və İtaliyada operetta üçün uyğunlaşdırılıb.

Müəllifin digər əsərləri:

1. "How to Get Filthy Rich in Rising Asia", (2013)
2. "Exit West", (2017)
3. "The Last White Man", (2022)

T.me/Cinciva

MOHSIN HAMID

THE RELUCTANT FUNDAMENTALIST



Reallıqla qarşı-qarşıya gəldikdə, adamın iki seçimi var: özünü hər şey yaxşı imiş kimi apar və ya çox işlə ki, hər şeyi əvvəlki şəkildə bərpa edə biləsən. Mən hər ikisini seçdim. Prinstonda cəmiyyət içində mən özümü səxavətli və qayğısız gənc şahzadə kimi aparırdım. Lakin həmçinin bacardığım qədər sakitcə üç kampusiçi işdə çalışırdım – Yaxın Şərq araşdırmaları proqramının kitabxanası kimi az-az baş çəkilən yerlərdə, dərslərimə isə gecə boyu hazırlaşırdım. Tanıdığım adamların çoxu mənim cəmiyyət içərisindəki xarakterimdən təsirlənirdi. Cim yox. Lakin xoşbəxtlikdən, mənim ayıb gördüyüm yerdə o, imkan görürdü. Həm də tam yox, müəyyən mənada – sonralar öyrənəcəyim kimi – haqlı idi.

Ah, çayımız gəldi! Belə şübhəli baxmayın. Xoşagəlməz heç nə baş verməyəcək, hətta qarın ağrısı belə. Hər şey bir tərəfə, çay heç də zəhərlənmiş kimi görünmür. Yaxşı, əgər sizi daha rahat edəcəksə, qoyun fincanımı sizinki ilə dəyişim. Bax, belə. Nə qədər şəkər istərdiniz? Şəkərsiz? Çox qəribə, amma təkid etməyəcəyəm. Bu yapışqan, narıncı şirniyyatdan – calebidən dadın, amma ehtiyatlı olun, istidir! Görürəm ki, bəyənirsiniz. Bəli, ləzzətlidir. Hətta belə isti bir gündə də bir fincan çayın bu qədər təravətləndirici olması çox maraqlıdır – əsrarəngizdir.

9 789952 386721

QANUN NƏŞRİYYATI
kitab sifarişi (012) 431-16-62
və www.qanun.az saytında
www.fb.com/qanunpublishing
www.instagram.com/qanunpublishing

7.40

T.me/Cinciva